SƏDNİK PAPA PİRSULTANLI

Af-276165

ELDƏN-OBADAN EŞİTDİKLƏRİM

AGAH-2006

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

TOPLAYANI VƏ TƏRTİB EDƏNİ:

Sədnik Paşayev-Pirsultanlı,

Filologiya elmləri doktoru, professor,
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
Respublikanın Əməkdar Mədəniyyət işçisi

Redaktor: ***Sahib İbrahimli,***
filologiya elmləri namizədi, dosent

"Eldən-obadan eşitdiklərim", 138 səh.

Görkəmli folklorşünas alim S.Pirsultanlı xeyli vaxtdır ki, dildə-ağızda gəzib dolaşan xalq söyləmələrini toplayıb nəşr etdirmək və elmi cəhətdən araşdırmaqla məşğuldur. İndiyə qədər onun tərtib etdiyi "Azərbaycan xalq söyləmələri" ("Azərnəşr", 1992) və "Xalqın söz mirvariləri" ("Yazıçı", 1999) adlı iki kitab işıq üzü görmüşdür. Hər iki kitabda toplanmış materiallar öz ideya və sənətkarlıq məziyyətləri ilə diqqəti cəlb edir.

Oxuculara təqdim olunan yeni kitabda S.Pirsultanlının son illərdə əldə etdiyi nümunələr toplanmışdır. Güman etmək olar ki, bu kitab folklor mətnşünaslığında əhəmiyyətli rol oynayacaq, şifahi xalq ədəbiyyatını sevənlər, ali və orta məktəbdə təhsil alan tələbələr və şagirdlər üçün faydalı olacaq.

S 4702060201 Qrifli nəşr @2006
096-06

Hikmətlərlə dolu bir kitab

Siz çeşmənin gözünü mənə göstərin, axarını özüm təyin edərəm. Siz dəyirmana dən gətirin, üyütmək məndə.

Mən bir folklorşünas kimi deyərdim ki, folklorun öyrənilməsi onun toplanmasından başlayır. 35 il bundan əvvəl Azərbaycan folklorunun janr mənzərəsinə diqqət etdikdə də öz-özümə düşünürdüm ki, folklorun hansı sahəsi toplanmamış qalır. O zaman bir toplu şəklində əsatir və ya əfsanələrə rast gəlmirdim. 1973-cü ildə nəşr etdirdiyim «Yaşayan əfsanələr» kitabı bu sahədə ilk qaranquşdur. Bundan sonra 1976-cı ildə «Yurdumuzun əfsanələri», 1978-ci ildə «Yanardağ əfsanələri», nəhayət, 1985-ci ildə bütövlükdə «Azərbaycan xalq əfsanələri» kitabını nəşr etdirdim. Bundan sonra mənim diqqətimi daha çox cəlb edən atalar sözü və zərb məsəllər kimi məişətimizə möhkəm daxil olmuş xalq söyləmələridir. Xalq söyləmələri nağıldan kiçik olub, lətifələrimiz kimi konkret məna daşıyır. 1992-ci ildə «Azərbaycan xalq söyləmələri»nin birinci cildini nəşr etdirmişəm. Xalq söyləmələri o qədər zəngindir ki, bundan sonra neçə belə kitabları nəşr etdirmək mümkün olacaqdır.

Milli – mənəvi dəyərlərimizin erroziyaya uğradığı bir zamanda tarixi ibrət götürmək üçün bu folklor nümunələrinin əvəzi yoxdur.

Bizim oxuculara təqdim etdiyimiz bu folklor nümunələrindən çoxu təkamül dövrünü yaşayır, hətta bəziləri məhəlli xarakter daşıyır. onlar zaman–zaman yaşayacaq, dildə-ağızda gəzəcək, folklor qazanında qaynayacaq və əsl bədii sənət nümünələrinə çevriləcəklər. Hər necə olsa belə, bu nümunələr bu gün də xalqa zövq vermək qabiliyyətinə malikdir. Bizim vəzifəmiz onları itib-batmağa qoymamaq, göz bəbəyi kimi qorumaqdır. Bu mənim içimdən gələn səsdir. Folklorşünas üç keyfiyyəti daim özündə yaşatmalıdır. Onun xalq ədəbiyyatımızı

dərindən sevən ürəyi, yurdumuzu qarış-qarış gəzməyi bacaran yorulmayan ayağı və toplanan nümunələri təhlil etməyi bacaran başı olmalıdır. Bu folklor nümunələrinin əhəmiyyəti ondan ibarətdir ki, gənc folklorşünaslarımız onların təkamülünü izləyə biləcəklər və onları tədqiq edərək dəyərli əsərlər meydana çıxaracaqlar. Vətən övladı kimi bu, mənim müqəddəs arzularımdan biridir.

Bütün bunlardan sonra nəzər-diqqətimi çəkən o oldu ki, Azərbaycan folklorunda Molla Nəsrəddin lətifələrindən sonra yeni yaranmış lətifələr toplanılmamışdır. Mən Gəncəbasarda şəxsiyyəti məlum, ünvanı məlum lətifə yaradıcılarını kəşf etdim. Böyük zəhmət bahasına onların tərcümeyi-hallarını və lətifələrini topladım.

1997-ci ildə, təkrar 2000-2001-ci illərdə daşkəsənli Kərağan Usubun lətifələrini çap etdirdim. Bundan sonra Tovuzun Çeşməli kəndindən olan Unnu Ağcanın lətifələrini, həmin rayonun Qandallar kəndindən olan Dabravol Qasımın lətifələrini, yenə həmin rayonun Qaraxanlı kəndindən olan Künə Dəmirin lətifələrini ayrıca kitab şəklində nəşr etdirdim. Bunların lətifələrini bir yerə yığaraq «Gəncəbasar» lətifələri adı altında çap etdirib oxucuların sərəncamına verdim. (2005)

Göyçənin Zod kəndindən olan Bəhram Qamanovun, daşkəsənli Dəvral Ələsgərin, tovuzlu Hıçqırıqlı Məhəmmədin, Qarğa Məcidin, gəncəli Bamәzə Musanın, laçınlı Aşıq Abbasın, Qəbələnin Xırxatala kəndindən olan Qədirin, Molla Alcanın və başqa lətifələrindən nümunələr toplayıb ayrı-ayrı qəzet və jurnallarda çap etdirmişəm. «Hikmətlərlə dolu» bir kitabda yurdumuzun ayrı-ayrı guşələrindən və qonşu respublikalarından ayrı-ayrı vaxtlarda toplanmış qeyri-adi nümunələri cəmləşdirərək bütöv əsər halına salmışıq. Mən əminəm ki, bu kitab xalqın qəlbinə daha tez yol tapacaq və orada yurd-yuva salacaqdır. Bu kitabda qəribə şer parçaları, Koroğlu əfsanələri, nakam məhəbbətlərin hıçqırıqları, üzərində tarixin möhürü olan mahnılar və onun ayrı-ayrı variantları özünə yer tapmışdır.

Həmçinin kitabda üç vücudnamə verilmişdir. Bunlar da nadir tapıntılardır. Dastan söyləyən aşıq dastanın əvvəlində ya üç ustadnamə deyir və yaxud da bir vücudnamə söyləyir. Dastanın sonunda isə ya bir vücudnamə və ya bir cahannamə deyir. Bunların hamısını demək dastanın tipindən və necə tamamlanmasından asılıdır.

Bundan sonra oxuculara çap olunmamış nadir dastanları, çap olunmuş dastanların variantlarını təqdim edəcəyik.

«Folklor dənizində Qəzənfər Paşayev dalğası» adlı elmi əsərimi tamamlamaq üzrəyəm. Ömür vəfa qılsa, «Folklor, yazılı ədəbiyyat və aşıq yaradıcılığı» adlı elmi-nəzəri əsərim də işıq üzü görəcəkdir.

Xalq arasında çox sayda təmsillər yaşayır. Onlardan bir qismini toplayıb «Azərbaycan xalq söyləmələri» kitabında nəşr etdirmişəm. Bu, çox azdır. Xüsusən balacalarımız üçün maraqlı olan təmsillərimizi toplamalıyıq. Uşaq oyunları ilə bağlı bir toplu halında çap olunmamışdır.

Sədnik Paşa Pirsultanlı,
filologiya elmləri doktoru, professor,
Azərbaycan Yazıçılar birliyinin üzvü,
Respublikanın Əməkdar Mədəniyyət işçisi

Zəkanın töhfəsi

Torpağın nəfəsi

Nuru Paşa Şuşada imiş. Uzaqdan baxır ki, məscidin həyətində böyük izdiham var. O, maraq göstərib, məscidə tərəf gəlir. O baxır ki, minbərdə bir molla əzan çəkir. Elə məlahətli səslə, avazla əzan çəkir ki, sanki muğam oxuyur. Mollanın səsi, avazı, səliqə-səhmanı Nuru Paşanın xoşuna gəlir. Ona görə da mollaya bir ovuc qızıl lirə bağışlayır. Nuru Paşa deyir:

- Əgər İstanbula gedib orada əzan çəksən hər ayına bir kilo qızıl lirə verirəm. İstanbulda çox millətlərin nümayəndəsi yaşayır, kim bu əzanı eşitsə dönüb müsəlman olar.

Molla deyir:

- Paşam, təklifinizi məmnuniyyətlə qəbul edərəm. Lakin sonda yanınızda utanaram. Çünki mənə belə səsi verən Şuşa torpağıdır. Bu torpaqdan uzaqlarda inanmıram belə səsim olsun.

Tək–tək Bədir də doğar

Nadir şah qoşunu ilə Şəmkiri tutur. Ona xəbər çatdırırlar ki, yerli əhali içərisində Bədir adlı bir oğlan var, baş aparır, bizimkilərə tabe olmur. Nadir bir neçə əsgər göndərir və tapşırır ki, onu sağ tutub gətirin! Nadirin adamları Şəmkirin Morul kəndinə gəlirlər. Lakin onlar elə-belə Bədiri özlərinə tabe edə bilmirlər. Xəyanət yolu ilə fürsət tapıb, onun başını kəsib Nadirə gətirirlər. Nadir bu igidin başına baxıb fikirə gedir və düşünür ki, bu dəliqanlının tayfası onun qoşununa zərər gətirə bilər. O zaman qanları sakitləşdirmək üçün Bədirin anası Şahlar xanımı öz hüzuruna gətizdirir və ayağa qaxıb onu ehtiramla qarşılayır. Peşmançılığını bildirərək deyir:

- Mən tapşırmışdım ki, onu tutub yanıma sağ gətirsinlər.

Şahlar xanım deyir:

- O mümkün olmazdı. Mərdanə döyüşdə Bədiri tutmaq çətin olardı.

Nadir şah bu sözdən sonra Şahlar xanımdan soruşur:

- Analar Nadir kimi oğul doğar, yoxsa Bədir kimi?

Şahlar xanım deyir:

- Nadir kimi.

Nadir şah ikinci dəfə soruşur:

- Analar Nadir kimi oğul doğar, Bədir kimi?

Yenə də şahlar xanım deyir:

- Nadir kimi.

Nadir şah üçüncü dəfə soruşur:

- Analar Nadir kimi oğul doğar, Bədir kimi?

Bu dəfə Şanlar xanım deyir:

- Analar Nadir kimi oğul doğar, tək-tək də Bədir kimi oğul doğar.

Şahlar xanımın qüruru qarşısında Nadir şah baş əyir, onun ayaqları altına xalı-xalça döşətdirir və qəminə şərik olduğunu bildirir.

Torpaq Morulundur

Şəmkirin Şiştəpə kəndi ilə Morul kəndi arasında kiçik bir torpaq sahəsi üstə mübahisə varmış. Şiştəpəlilər deyirmiş bu torpaq sahəsi bizimdi, morullular da deyirmiş bizimdi. Elat ağsaqqalları bu dava-şavanı kəsmək üçün hər iki tərəfi anda çəkirlər. Morullulardan bir nəfər corablarını Morul torpağı ilə doldurur. Ayaqları corabın içində Morul torpağının üstə durur. Şiştəpəlilərin ağsaqqalları "Quran"a and içməkdə tərəddüd edirlər ki, bəlkə uzaq keçmişlərdə bu yer morullların olub.

Bu dəfə Morulun ağsaqqallarını anda çəkirlər. Onlar da tərəddüd edirlər. Ağsaqqalların içərisindən biri qabağa çıxıb deyir:

- Mən and içərəm.

Həmin ağsaqqal irəli yeriyib əlini "Quran"a basıb deyir:

- Bu "Quran" haqqı ayağımın altındakı torpaq Morulundur.

Qılınc ustası

Hökmdara xəbər verirlər ki, ölkədə bir qılınc düzəldən usta var, tayı bərabəri yoxdu. Şah ustanı hüzuruna çağırır və deyir:

- Mənə bir qılınc düzəlt, elə qılınc olmasın. Sənə qabaqcadan deyirəm o qılıncla sənin başını kəsəcəyəm.

Bir müddətdən sonra usta qılıncı düzəldib gətirir. Şah baxır ki, ömründə belə qılınc görməyib. Şah ustaya deyir:

- Sən bildin ki, bu qılıncla sənin boynunu vuracağam. Necə əlin gəldi ki, belə bir qılınc düzəltdin.

Usta deyir:

- Bir cana görə mən illərlə qazandığım hörməti, sənətkarlığı itirə bilməzdim. Qiymətli sənət candan da əzizdir.

Cambulun pələngi

Qazaxıstanın Cambul meşələrində pələnglər yaşadığı məlumdur. Məşhur Qazax akını Cambulun ilhamvericisi xallı bir pələng imiş. O, oxuyanda pələng başını əlləri üstə qoyub onu dinləyərmiş. Məclisin qızğın yerində Cambulun tənburunu köynəyə qoyur və deyir:

- Mənim pələngim ağladı, getdi. Mənim ölümüm çatdı, gedim ailəmlə vidalaşım.

Cambul evə gəlir, özünə yer hazırlayır, yönün qibləyə çevirib əqrabaları ilə bir-bir görüşür. Yenə da pələng başını əllərinin üstünə qoyub göz yaşı axıdırmış. Pələng ayağa qalxıb getmək istərkən Cambul ellərilə vidalaşır, hamıya mən getdim deyib, canın tapşırır.

İkisi də mənimdir

İki qardaş torpaq üstündə dalaşırdı. Birisi deyirdi, bu torpaq atamdan mənə qalıb, o birisi də deyirdi ki, sənə yox, mənə qalıb. Kənardan qardaşların mübahisəsini seyr edən bir qoca onlara yaxınlaşıb dedi:

- Qoy, torpaqdan soruşum yer kimindir.

Qoca qulağını torpağa söykədi və ayağa qalxıb dedi:

- Torpaq deyir ki, onların burada payı yoxdur. Onların ikisi də torpağındır.

Qanınız mənim damarımda axır

Dabravol Qasım Tovuz rayonunun Qandallar kəndindəndəir. Çar Rusiyası dövründə Gürcülərdən, Ermənilərdən əsgər apardıqları halda, Azərbaycanlıları əsgər aparmayıb vergi vergi alırdılar. Həmin dövrdə Qasım könüllü olaraq əsgər gedir. Bu səbəbdən da el arasında onu Dabravol Qasım deyə çağırırdıoar.

Dabravol Qasım Rusiya, Yapon müharibəsində yaralanır və çox qan itirir. Ona qan vurmaq lazım gəlir. Dabravol Qasım deyir:

- Mənə tanımadığım bir alkaşın qanını vura bilmərsiniz. Mən elə natəmiz qanlağ yaşamaq istəmirəm. Mənə kimin qanı vurulacaqsa mən o, adamı tanımalıyam.

On bir əsgəri cərgəyə düzürlər. Dabravol Qasım əli ilə işarə edir ki, o oğlanın qanını vurun. Dabravol Qasımı

sağaldırlar. Ondan soruşurlar. Sən nədən bildin ki, o müsəlmandır?

Mən onun müsəlman olduğunu bilmədim. Üz-gözünün işığından anladım ki, təmiz qanlı insandır.

Həmin oğlan Çərkəz idi. Hər ikisi əsgərlikdən tərxis olundu. Bir-birilərinin ünvanını götürüb ayrıldılar.

Dabravol Qasım 60 yaşına qədər oğlanın vətəninə gedib onunla görüşürdü. Dabravol Qasım Çərkəz dostuna demişdir:

- Biz Rus deyilik, qardaşıq. Sənin təmiz qanın 60 ildir ki, mənim damarlarımda axır.

Kim ona toxunsa

Qandal Nağını düşmənləri Sibirə, katorqaya göndərirlər. O, Sibirdən qaçıb Dağıstana, oradan da Tovuz rayonundakı doğma kəndi Qaraxanlıya gəlir. Eşidəndən uzaq, bir gün Qaçaq Qandal Nağının cavan oğlu ölür. Hüzn yerinə Nağının qatı düşməni silahsız gəlir. Nağının adamları ona deyirlər:

- Göydə gəzdiyimiz düşmən silahsız-filansız öz ayağı ilə gəlib çıxıb.

Nağı deyir:

- O, kişilik edib, el adətinə görə başsağlığına gəlib. Kim ona toxunsa, nəslini yer üzündən kəsərəm…

Dilənçiyə onluq qızıl verir

Gəncədə Sarı İmamqulu oğlu Ələkbərin şax gəzməsini çoxlarının gözü götürmür. Bir neçə gənc Ələkbəri aradan götürmək qərarına gəlir. Qarpız oğlu Əli döşünə döyür ki, onu mən güllə ilə vuraram. Ona çoxlu pul yığıb verirlər. Qarpız oğlu Əli qadın paltarı geyib şəhər parkına çıxır. O, bilir ki, günün hansı saatında Ələkbər parka gəlir. Ələkbər

dəstə ilə ona tərəf gələndə əlləri əsir. Ələkbər bir onluq qızıl verib deyir:

- Aparın bu pulu o qadına verin, yazığın acından əlləri əsir.

Qarpız oğlu Əli onluğu görüb aradan çıxır. Tay-tuşları soruşurlar ki, bəs niyə vurmadın. O, qorxduğunu gizlədir, deyir ki:

- Ə, bir dilənçi arvada onluq qızıl verən oğulu da vurmaqmı olar?

Özünüzə yezid tapın

Adətən, dini şəbihlər zamanı meydan tamaşaları göstərilirdi. Tovuzun Cilovdarlı kəndində meydan tamaşası düzəldilibmiş. Bu dini şəbih belə qurulmuşdu. Bir at Düldül kimi bəzənmiş, Həzrət Əli başdan-başa göy geyinib əlində qılınc ata süvar olmuşdu. O biri atı da başdan ayağa qırmızı geyinmiş Yezid minmişdi. Onlar qabaq-qabağa gəlib qılınclaşır, xalq üstünlüyü Həzrət Əliyə verdiyi üçün onun zərbinə dözməyən Yezid atının başını çəkib qaçır. Cilovdarlı kəndində göstərilən bu şəbihdə Yezid rolunda Heybət kişi çıxış edirdi. Heybət kişi atı sürüb qaçanda, həqiqətən atın cilovunu yığa bilmədi, at baş götürüb Kürə tərəf qaçdı. Bundan qorxuya düşən Heybət kişi qışqırdı:

- Ay camaat, mən getdim, özünüzə təzə Yezid tapın!

Donun yerini göstərmişəm

Daşkəsən bölgəsinin Qazaxyolçular kəndində savadlı və qoçaq bir igid yaşayırmış. Bu kəndə qonşu kənddən gəlin gətirirlər. Gəlin bulağa gedərkən Abdulkərim durbinlə baxır ki, gəlinin donu bizimkilərin donundan bir qarış gödəkdir. Çayın bu tayından, o tayına gəlinin qıçına güllə atır. Hamı qışqırır ki, Abdulkərim gəlini vurdu. Abdulkərim deyir ki,

Siz bilirsiniz ki, mən sərrast nişançıyam. Gəlini vurmamışam, gullə ilə qıçını cızmışam. Donun haradan olmasının yerini göstərmişəm.

Kişi patronu ilə

Bir gün qaçaq Qafar Abdulkərimin qonşusunu yanına çağırıb deyir:

- Ayə, Sizin bu Abdulkərim çox baş aparır. Onu aradan götürmək lazımdır. Sənə çoxlu pul, qoyun verəcəm.

Qonşu bildirir ki, tüfəngim var, amma patronum yoxdur. Qaçaq Qafar bildirir ki, Xoşbulaq yaylağına patron göndərəcəm. Saymazyana arvadınla kiçik oğlunu göndər patronu aparsın. Bundan xəbər tutan Abdulkərim Zağalı çayında onların qabağını kəsib deyir:

- Bacı, sən yaxşı yerin qızısan. Qardaşlarınla da dostam. Ərini şeytan aldadıb. Çıxart patronları bu çaya tök.

Qadın patronları çaya tökür. Abdulkərim bir daraq patron çıxarıb oğlana verir. Deyir ki, bacı sən əlini patrona vurma və ərinə de ki, kişi kişini arvad gulləsilə yox, kişi gülləsilə öldürər.

Sümsü məsələsi

Bir bəy kasıb kişini yanına çağırıb ona yüz manat verdi. Bildirdi ki, mənim atımın hər qulunu dünyaya gələndə çiynində üç qanad gətirir. Lakin yerə dəydikdə kiçik buz parçası kimi çilik-çilik olur. Siz, götürün yapıncını, mənim madyan atım doğacaq. Arxasınca gəzin və onu yerə dəyməyə qoymayın. Kişi o qədər hərlənir ki, taqətdən düşüb yatır. Lakin qəflətən oyananda görür ki, at doğur. Həm də bir nurani kişi yapıncı ilə qulunu tutur. Kasıb yazıq bu nurani kişiyə minnətdarlıq etdi ki, onun əvəzinə qulunu

tutur. Nurani kişi bildirdi ki, mən bunu sənə görə etmirəm. Mən at sahibi bəyin bəxtiyəm. Həmişə onu qoruyuram. Kasıb soruşdu:

- Mənim də belə bir bəxtim varmı?

Nurani qoca bildirdi ki, sənin bəxtin o dağın dalında qamışdan zurna ney üçün sümsü yonur.

O, bəxtinin yanına gəldi və dedi:

- Başqasının bəxti ona kömək edir, sən isə mənə etmirsən.

Bəxti acıqlı-acıqla dilləndi:

- Əgər başım bu sümsü yonmağa qarışmasaydı, səni yüz manat qazanmağa qoymazdım.

İlan və bağban

Şahın bağında yaşayan qızıl ilanın balasını bağban bellə iki kəsib öldürdü. Şahın qapıçısı həyəcanla bildirdi ki, hörmətli hökmdar, möcüzə baş verib, sizə şikayətə qızıl ilan gəlib. Şah dedi ki, burax gəlsin. İlan daxil olub şaha bildirdi ki, qibleyi-aləm sağ olsun, bizim nəslimiz əyyami-qədimdən şah bağında yaşayır. Qızıl güllərin ətri bizə bəsdir. Biz bir bəni-insana toxunmarıq ki, şah bizim nəslimizi yer üzündən silər. Lakin sizin bağban heç bir günahı olmadan mənim balamı öldürmüşdü. Şah bağbanı çağırtdırıb ilanın dediklərinin həqiqət olduğunu biləndən sonra dedi:

- Sənə rüsxət verirəm, bunun harasından çalırsan, çal.

İlan dedi:

- Mən onu öldürməyəcəyəm. Qoy o yeddi qapıdan dilənçi payı alsın. Bağban altı qapıdan dilənçi payı aldı. Yeddiyə çatanda ilan onu çaldı. Şah ilanı hüzuruna çağırtdırdı. «Axı sən dedin ki, o yeddi qapıdan dilənçi payı alsın və sən onu çalmayacaqsan». İlan bildirdi ki, hörmətli hökmdar, mən onu sizə demədən də dərhal çala bilərdim. Ancaq onun üzündə o qədər həya, nur var idi ki, o nurdan

gözüm qamaşırdı, lakin yeddi qapıdan dilənçi payı alandan sonra onun üzündə bir damcı nur qalmamışdı. Ona görə də mən onu çox asanlıqla çaldım.

Tale gölü

O qədər də gözəl olmayan bir qız boylu-buxunlu gözəl bir oğlanla evlənir. Lakin hər dəfə oğlana baxdıqca xəcalət çəkir və öz-özünə deyir: «Xalqın övladını bədbəxt etmişəm. Ya özümü öldürəcəm, oda, suya atacam, baş götürüb səhralara qaçacam, ya da bir gözəl qız tapıb bu oğlana alacağam, özüm da onlara qulluqçuluq edəcəyəm. Elə kənardan baxmağım da kifayətdir». Qız baş götürüb ucu-bucağı görünməyən bir səhraya gəlib çıxır. Uzaqdan bir yaşıllıq görünür. Sevinir. Gəlib görür ki, ətrafı yaşıllıqlara bürünmüş gözəl bir göldür. Göldən sarışın, ala göz, saçları yana tökülmüş gözəl bir qız çıxır. Qız qışqırır:

- Amandı, göllər sonası, dayan sənə sözüm var. Mən səni öz sevgilimə almaq istəyirəm.

Göllər sonası soruşur:

- Nə üçün?

Qız deyir:

- Vicdan əzabı çəkirəm. Oğlan məndən gözəldir. Ona siz yaraşırsız.

Göllər sonası deyir:

- Mən çoxmu gözələm?

Qız dyir:

- Çox-çox.

Göllər sonası bildirir ki, mən sənin bəxtinəm. Hər dəfə sevgilin sənə baxanda mənim camalımı görür. Get, arxayın yaşa. Qız sevinə-sevinə geri qayıdır.

Allahla şərikli qarpız

Bir kişi hər il Kürün qırağında qarpız əkirdi. Məhsul yetişənə yaxın göy şaqqıyır, sel suya qarışırdı. Bostanı yuyub aparırdı. Bostançı dedi ki, mən bu il bostanı Allahla şərikli əkəcəm. Yarısı onun, yarısı mənim. Doğrudan da, bir bostan yetişdi ki, gəl görəsən. Allahın sahəsində olan bir tağın üstündə qoç boyda bir qarpız var idi. Özü də bu tağ bostançının sahəsinə keçmişdi. Bostançı dedi:

- Allahın oğlu yox, uşağı yox. Onun bəndələrindən biri da mən. Deyirəm, bu qarpızı tağdan üzüm.

Bostançı qarpıza yaxın gedən kimi göydə şimşək çaxmağa başladı. Bostançı əllərini göyə qaldırdı və dedi:

- Adına fəda olum, sənin qarpızına toxunmuram. Hər kəsin payı özünə qismət olsun.

Şir tükündən dua

Bir oğlanla bir qız təzə evlənmişdilər. Ancaq yola getmirdilər. İkisi də bir-birnə buynuz göstərirdilər. O deyirdi, mən deyən olacaq, o biri deyirdi, yox mən deyən olacaq. Qız anası dedi ki, gedək mollaya, oğlanın dilini-ağzını bağlatdıraq. Molla oğlanı yaxşı tanıyırdı. Bilirdi ki, caduya-pitiyə gələn deyil. Odur ki, dedi:

-Qızım, sənə dua düşmür, dua yazdırmaq üçün Qarabağda bir şir yaşayır, gərək onun tükündən gətirəsən. Qız dedi:

- Molla, şir məni parçalayar.
- Onda get, ərinlə yaşa.
- Yaşaya bilmərəm.
- Onda boşan.
- Axı, sevirəm.
- Sevirsən, get Qaradağdan şir tükü gətir.
- Molla, şirə necə yaxınlaşmaq olar?

- Bala, bütün canlılar südü çox sevir. Bir badya süd apar, üstünə gələndə qabağa tut.

Beləliklə, qız şiri özünə ram etdi. Şirə süd apararkən bir yekə qabda qızdırılmış su apardı. Şiri çimizdirdi. Şir başını onun dizinin üstünə qoyub yatdı. Şirin çiynindən bir qom tük qopardı. Şir acıqlı-acıqla oyananda südü onun qabağına tutdu. Molla gördü ki, doğrudan da qız diri şirin bir çəngə tükünü qoparıb gətirib. Molla soruşdu:

- Qızım, o şirin dili vardımı?

- Yox, molla əmi. Mən öz xidmətlərimlə onu ram etdim.

Molla dedi:

- Qızım, o vəhşi şirə göstərdiyin qayğının yarısını ərinə göstərsən, sənə tabe olmazmı?

Bülbül və qızıl

Bir varlıya bildirdilər ki, bir bülbül var. Bədənində iki kiloqram qızıl lal var. Bir tamahkar tələ qurub bülbülü tutdu. Bülbül gördü ki, onu öldürəcəklər. Bülbül dilə gəlib dedi:

- Mənim heç 200 qram çəkim yoxdur. Mən qızılın yerini bilirəm. Məni burax. Hansı ağaca qonsam bil ki, qızıl onun dibindədir.

Əldən çıxan bülbül ağaca qonub dedi:

- Məndən sənə bir nəsihət. Hər deyilənə inanma. Əlindən çıxana da heyfsilənmə.

Kişi bığı

Bir kişi kasıblamışdı. Varlı bir kişinin yanına borca gəldi. Varlı dedi:

- Bığından bir tük girov qoy, sənə borc verim.

Kişi bığından bir tük qopardıb ədəblə dəsmala büküb varlıya verdi. Bir müddətdən sonra varlanıb, borcu qaytardı və girov qoyduğu bığını geri aldı. Bir gün qonşusu yenidən varlanan kişidən soruşdu:

- Necə oldu ki, birdən ayağa qalxa bildin?

O, bildirdi ki, bığımdan girov qoyub borc aldım. Qonşusu da həmin varlının yanına gəldi. Varlı dedi:

- Bığından girov qoy.

Kişi çəkib bığının parasını qopartdı. Varlı bildirdi:

- Mən sənə borc verə bilmərəm. Səndən əvvəlki kişi tək bir bığını qoparana qədər rəngində qan qalmamışdı. O, ədəb-ərkanla bir bığı dəsmala bükdü. Gecə-gündüz yatmadı. Özünü oda-suya vurub pul qazandı. Qeyrət rəmzi olan bir bığını insan kimi geri qaytardı. Sən isə elə bil bığdan tük çəkmirsən, bulağın ayağından yarpız yığırsan…

Sultan Yavuz və Xətai

Türkiyə sultanı Yavuz eşidir ki, Xətai gənc olsa da, bacarıqlı Dövlət başçısı kimi yeni-yeni şöhrət qazanır. Onu da öyrənir ki, Xətai möhkəm sətrənc (şahmat) oynayandı, azarkeşdi.

Yavuz karvan düzəldib Təbrizə gəlir. Karvansarada gecələyir və burada möhkəm sətrənc oynuna başlayır. Bundan xəbər tutan Xətai karvan başçısını saraya çağırır və onunla sətrənc oynuna başlayır. Yavuz hər dəfə şahmat gedişində şaha hücum edir. Xətai ayağa qalxıb Yavuzun qulağından dartır və deyir:

- Bir də şaha hücum etmə!

Oyunda Yavuz səkkiz kisə qızıl udur. Lakin qızılları adamlarının köməyi ilə Xətainin saray divarlarının dibinə basdırır.

Yavuz Türkiyəyə qayıdan kimi qulağına bir cüt qızıl küpə (sırğa) düzəltdirir və hər gün əlini o küpələrə toxundurub deyir:

- O, gənc hökmdar Türkiyəyə hücum edəcək. Gücü çatsa, əlini bir də qulaqlarıma uzadacaq.

Bir də xəbəro tutur ki, Şah İsmayılın abdalları (dərvişləri) Anadoluda at oynadır. Sivasdakı ələviləri və onların əqidə rəhbərləri bəkdaşiləri özünə tərəf çəkib. Yavuz siyasət işlədir. Nev şəhərinə gəlir və qulağındakı qızıl küpələri açıb Hacı Vəli Bəkdaşinin məzarı üstünə qoyur, qulaqlarına isə kərpicdən düzəldilmiş bekdaşi küpəsi taxır. O, bununla Xətainin arxalandığı ələbilərin düşüncəsini dəyişir. Xətainin arxalandığı qüvvəni zəiflədir.

Göylər kəndində möcüzə

Şamaxı rayonunun Göylər kəndindən bir ailəli oğlanı səkkiz il iş verib Sibirə göndərdilər. O zaman Gəncə dəmir yolu çəkilmiş olur. Həbsxananın kadr şöbəsinin rəhbəri oğlanın anketini oxuyarkən Şamaxının Göylər kəndinin altından xətt çəkir. O, bir neçə mühəndisi də yanına çağırır. Seyfdən qədim bir xəritə çıxarır. Oğlandan soruşur:

- Sizin kəndinizdə Beyləqan qalası var, dururmu? Qalanın qabağında iki uzun daş var, onu görmüsənmi?

Oğlan uşaq yaşlarından o qalada uşaqlarla oynadığını, o uzun daşı at kimi mindiyini söyləyir.

Rus ona deyir:

- Sənə çoxlu qızıl verərəm, həbsdən tamamilə azad edəcəm, səninlə düz on nəfər gedəcək. Onlar Yelizavetpoldan (Gəncədən) səkkiz öküz alacaqlar. Bir araba götürüb axşam kənd yatandan sonra o daşları arabaya qoyub Gəncə qatarına çatdıracaqlar. Öküzləri də, arabanı da sənə bağışlayacaqlar.

Oğlan çox sonralar səhvini başa düşür ki, Mildəki Beyləqan şəhəri müharibələr nəticəsində dağılarkən onun paytaxtı Şamaxıdakı Göylər kəndinə köçürülmüş, xəzinəsi isə o iki daşın içərisində gizlədilmişdir. Həmin sərvət

haqqında əllərində xəritə olduğu üçün ruslar siyasətlə onu aparmışlar.

Başını türk ordusuna gətirir

Hacı Bilal düşmənlərlə qəhrəmancasına döyüşür. Düşmənin kafir nümayəndəsi Hacı Bilalın boynunu qəflətən qılıncla vurur. Hacı Bilalın sol əlilə başını sinəsində saxlayır, sağ əlilə döyüşə-döyüşə başını gətirib türk ordusuna təhvil verir. Hazırda Bilalın məzarı Türkiyənin Sinop şəhərindədir. Hər gün onu yüzlərlə insan ziyarət edir.

Göz qayanı yıxır

Qəbələnin Nic-Abdal kəndi yaxınlığında axan çayın üstündə qızılqaya adlı bir qaya var. Bir-birindən xəbərsiz bu qayanın yanına üç gözüdəyməcəli kişi gəlir. Birinci kişi deyir:

- Paho! Qayadakı əzəmətə bax, az qalır zirvəsi buluda dəysin.

Qaya uçur və çayın qabağını kəsib göl əmələ gətirir. İkinci gözüdəyməcəli kişi deyir:

- Sən daşların hünərinə bax. Birdən-birə böyük göl əmələ gətirdi.

Bənd yarılır su axmağa başlayır.

Üçüncü gözüdəyməcəli kişi irəli yeriyib deyir:

- Sən kişidəki gözə bax ha. Suyu necə yardı. Kişinin gözlərinin ikisi də yerə düşür.

Ardanış əhvalatı

Azərbaycandan İrəvana səfər etdikdə Göyçənin Ardanış kəndində yol yarı olur, axşam düşür. Eləcə də

İrəvandan qayıtdıqda adamlar axşama Ardanış kədinə çatırlar. Deyirlər ki, bu kənd çox çətin qonaq qəbul edir. Mən bunun cavabını bir rəvayətdə tapdım.

İrəvandan Ardanışa axşam çatan gəncəbasarlı qonaqları heç kəs evinə götürmür. Kəndin qurtaracağında bir qadının qapısını döyürlər və Allaha and verib qonaq qalırlar. Göyçədə təzə yorğana «atma» deyərlər. Qarı qonaqlara yatmaq üçün təzə «atma» yorğan verir. Və gecəni yatmır. Deyir bir gecədə yuxusuz qalım, görüm bu qonaqlar haqqında söylənənlər düzdürmü? Gecə qarı yalandan xoruldayır. Qonağın biri o birinə deyir:

- Ayə, qarı yaman yatıb. Dur bu yorğanları da götürək yola düşək. Qarı onları qarşılayıb deyir:

- Ay bala, elə sizin bu xasiyyətinizə görə Ardanışda qonaq eləmirlər.

Qızıl küpəsi

Sədnik Paşa Daşkəsən rayon qəzetində işləyirdi. Redaksiya ilə təhlükəsizlik idarəsi qonşu idi. Sədnik Paşa təhlükəsizlik idarəsinin rəisi Ağamirzə Məmmədovla yaxın dost idi. Çox zaman naharı bir yerdə keçirərdilər.

Təxminən 1949-cu ilin oktyabr-noyabr ayları olardı. Sədnik Paşa redaksiyada axşamlar divanda yatırdı. Gecə yarısı oyananda baxdı ki, təhlükəsizlik idarəsinin işıqları yanır. Sədnik Paşa tez əynini geyinib ora yollandı. Qapı bağlı idi. Sədnik Paşa qapını döydü. Qapı açıldı. İki nəfər orta yaşlı adamı o qədər döymüşdür ki, ağız-burnu, üst-başı qan idi.

Ağamirzə Məmmədov izah etdi ki, qoyun otararkən, alban abidəsindən bir küpə qızıl tapıblar. Küräni tapan kişi qızılın beşini artıq götürüb. Ona görə də aralarında narazılıq olub, bu biri kişi bizə şikayət edib. Mən bunları ona görə döyürəm ki, o yekəlikdə abidədən bu qədər yox, çox qızıl tapılar.

Sədnik Paşa qırılmış küpəni qəzetlə, yapışqanla yapışdırır. Qızılları küpəyə yığır. Qızıl küpəyə düz yerləşir. Nə biri artıq çıxır, nə də əskik gəlir. Sonra küpəni qırılmış daşdakı yerinə qoyur. Üzünü Ağamirzə Məmmədova tutub deyir:

- Yoldaş rəis, burada hər şey dəqiqdir.

Ağamirzə Məmmədov şəhadət barmağını öz ağzına tutub «sus» deyir.

Sədnik Paşa rəisə deyir:

- Sizdən bir xahişim var, kim qızılı tapıb vaxtında orqanlara xəbər verəndə ona tapılan sərvətin 30 % çatır. Siz bunlara özü xəbər vermiş kimi pul çeki yazıb verin, gedib bankdan alsınlar. Böləndə özləri düz bölə bilmədilər, heç olmasa, siz onların mükafatlarını bərabərləşdirin.

Bu son qərar rəisin də, üst-başı qanlı qızıl tapanların da ürəyincə oldu.

Gülləsiz ayı ovu

Kəlbəcərin Şapılar və Qaraçanlı meşələrində ov edən ovçu Süleymanın qəribə ovçuluq məharəti var idi. O, ağaca dəmir parçası ilə bir-birinə yaxın kəndir bağlayır və hər bir kəndirdən kiçik kötük parçası asır. Kötüklərdən yuxarıda olan budaqda bal pətəyi asır və şanı bir yerindən yaralayır. Yerə bal damcılayır. Meşədə olan ayılar balın dalınca gəlirlər. Ayı bal damcılarını yalayır. Sonra gözü iri bal pətəyinə sataşır və ona doğru can atır. Ağacdan asılmış kötüklər ona mane olduqda Yumruğu ilə səhərə qədər döşüyür, nəhayət, taqətdən düşüb yerə yıxılır. Səhər ovçu gəlir. Rahatca başqa heyvanlar kimi başını qibləyə çevirir kəsir, dərisini salamat soyub dövlətə təhvil verir, ətini Gədəbəy bazarına çıxarır.

Ağlağan qarı

70-80 yaşında bir qarı hey ağlayırdı. Onu çarçovla oğlu belinə şəlləyib, yol yuxarı, yol aşağı gəzdirirdi. Birdən Peyğəmbər oğlanın qarşısına çıxdı. Oğlan soruşdu:

- Canım sənə fəda. Bu anamı hey gəzdirirəm kirimir, ağlayır.

Peyğəmbər deyir:

- Ərə ver.

- Bu qoca arvadın nəyini ərə verim.

Qarı iki əlli oğlunun başına qapaz endirib deyir:

- Ərə ver deyir, ver. Sən Peyğəmbərdən çox bilirsən.

Təkə

Qoyun yaz başı yaylağa gedərkən təkə qabağa çəkib gedir. Soruşurlar:

- Ay təkə, bu sürü kimindi?

Təkə döşünə döyüb deyir:

- Suru mənimdi.

Payız təkə sürünün arxasınca sürünə-sürünə dal qıçını çəkə-çəkə gəlir. Soruşurlar:

- Ay təkə, bu sürü kimindmi?

Deyir:

- Heç dalınca çata bilirəm ki, deyim kimindir.

Qurduğum saray uçar

Bozalqanlı Aşıq Hüseyni İrana toya çağırırlar. Onun zənguləli səsi, məclis keçirmək, dastan danışmaq qabiliyyəti hamını heyran edir. Məclisdəkilər Aşıq Hüseynə böyük

maraqla qulaq asırlar. Ancaq kəndin ən şöhrətli bəyi məclisin şirin yerində yatır. Onun başının üstündə məlahətlə oxuyur, «Koroğlu cəngisi» çalır. Bəy oyanmır ki, oyanmır. Axırı hövsələsi çatmayan aşıq bəyi qaldırır və deyir:

- A bəy, mənim oxumağım xoşuna gəlmir ki, yatırsan?

Bəy deyir:

- Məni bu hala salan, sənin sazındı, sözündü, səsindi, oxumağındı.

Bəy qoltuq cibindən bir kisə qızıl çıxardır. Onu Aşıq Hüseynə verib deyir:

- Qabaqcadan pulunu verirəm. Oğluma toy edəcəm. Tovuza göndərəcəyim adamla, toya gələrsən.

Nə ilə əlaqədarsa bəyin oğlunu həbs edib, on iki il iş verirlər. Bəy Aşıq Hüseynin dalınca adam göndərir. Aşıq Hüseyn deyir:

- O bir kisə qızılı gətir oğlana ver. Mən İrana toya gedə bilməyəcəyəm. Dünənki səsim, avazım yoxdur. Aradan çox illər keçib. O vaxt, bəyin qəlbində saray qurmuşam. İndi gedib bu səslə o sarayı uçurmaram.

Loğman Bibixanım

Gəncə çayının sahilində Tatoğlu Hüseynin evləri indi də qalır. Hüseyn o qədər varlı idi, təkcə onu demək kifayətdir ki, onun Gəncədən başlanan qoyun sürüsünün qabağı Xoşbulağın Nağara dağında dayanırdı. Onun qoyun sürüləri, naxırları və ilxıları sular bulandırırdı. Geniş el yolunda gediş-gəlişi dayandırırdı.

Yaylaq zamanı Tatoğlu Hüseynin arvadının qıçı ombadan çıxdı. Hüseyn dedi:

- Mənim arvadımın qıçına bir kişinin, bir qadının əli dəyə bilməz. Əli dəysə, arvadı da öldürərəm, sınıqçını da. Elə sınıqçı tapın ki, nə istəsə alsın, əli dəymədən qadının qıçını yerinə salsın.

Nəhayət, soraqlaşıb türkə çarə ilə insanları müalicə edən Bibixanımı tapıb gətirdilər. Bibixanım dedi:

- Bəy, enli kürək iri bir camış seç. Onu gözyndən qoyma. Bir gün ac saxla.

Bundan sonra Bibixanım bəyə deyir:

- Camışın belinə döşək qoy. Arvadını öz əllərinlə həmin döşəyin üstə sər. Bellini enli örkənlə Sarı. Sonra yedəyinə alıb, camışı göy otlaqda doyunca otar. Daşın üstünə çoxlu duz səp. Yalayıb doyandan sonra onu çayın üstünə gətir. Doyunca otlamış camış duzun təsiri ilə çayın suyunu ara vermədən içinə çəkir. Camışın iki yandan qarnı qalxır. Qadının qıçı yerinə düşür.

Bibixanım Tatoğlu Hüseynə tapşırır:

- Qadın yerə düşən kimi qamçı ilə hallaxlayıb, onu qovsun. Əgər qadın yerə düşəndə axsasa, o, ömrü boyu axsayacaqdır.

Tatoğlu Hüseynin arvadı qışqırır:

- A sınıqçı arvad, bir yaxşılıq etmisən, ikinci pislik eləmə. Qamçının şallağı varlığımı əlimdən alır. Məni öldürtmə. Ərimdə gözün var, ikimizi də alıb saxlayar.

Bibixanım deyir:

- Onda mənə tərəf sərbəst yeri gəl.

Bəy arvadı əvvəlki kimi nazlana-nazlana gəlir.

Bibixanım Tatoğlu Hüseynə deyir:

- Arvadında heç bir şikəstlik qalmadı.

Tatoğlu Hüseyn Bibixanımı gətirən atı, həmin camışı Bibixanıma hədiyyə verir və deyir:

- Bu gündən sənin adın bizim mahalda «Loğman Bibixanım»[1] qaldı.

---

[1] Bibixanım Sədnik Paşa Pirsultanlının ata nənəsidir. Özü də Gəncənin Böyük Bağmanlar qızıdır. Onlar indiki «Yaşıl aptekin» üst yanında olublar. Onlar Qağalar nəslinə mənsubdurlar.

Səmənd ağanın faytonu

Səmənd ağanın xətir-hörməti, ad-sanı Göyçə mahalı ilə bir idi. Hər kəs onunla hesablaşır, onun ağlını-kamalını yüksək qiymətləndirərdi. Səmənd ağa bəxti üzdə olan adam idi. Allah-təala ona nə qədər ağıl-kamal vermişdisə, ondan artıq var-dövlət vermişdi. Qış olanda Göyçəgölün üstü buz bağlayanda Səmənd ağa buzun üstü ilə faytonu sürdürüb İrəvana gedərdi.

Bir gün Zodlulardan biri qeyzə gəlib dedi:

- Ayə, Səmənd ağanın var-dövləti varsa, mənim də hünərim, qoçaqlığım var, sabah mən də faytonu Göyçə gölünün üstü ilə sürəcəm.

Səmənd ağa faytonçusuna dedi:

- Ayə, buz sınacaq o, dəli faytonu ilə batacaq, məni vayqanlı görəcəklər ki, buzun üstü ilə fayton sürməyi sən adət eləmisən. Uzun bir kəndir götür o, ağıldankəm batası olsa, kəmənd atıb çıxaraq.

Səmənd ağa yenə öz qaydası ilə buzun üstü ilə faytonla gedirdi. Bir də baxdı ki, dəli qonşusu atları çapa-çapa faytonla gəlir. On-on beş addım gəlməmiş buz sındı. Faytonun təkərləri buza ilişdi. Səmənd ağa faytonçusuna tapşırdı:

- Kəmənd at, onun boğazına keçir.

Onu kəndirlə çəkib sürüyə-sürüyə sahilə çıxartdılar. Qonşunun atları da, faytonu da Göyçə gölünün dibinə getdi. Səmənd ağa üzünü tutub qonşusuna dedi:

- Buzun üstündə məni saxlayan mənim taleyimdir. Sən mənim taleyimlə bəhsə girmə!

Səmənd Ağanın kişiliyi

Kəlbəcərin Geştək kəndində toy idi. Zoddan Səmənd ağanın dəstəsi də gəlir. Bozat altında Səmənd ağa dünyaya

meydan oxuyurdu. Oğluna toy edən Alı gördü ki, Cıdır yarışında Səmənd ağanın atına at çatmayacaq və kəlbəcərlilər uduzacaq. Toy nəmərini Göyçə aparacaq. Alı bilirdi ki, Geştəkdə Səmənd ağanın atını keçən bir at var. O kürən də düşmən qapısındadır. Alı toyu olan oğlunu düşmən qapısına göndərdi:

- Get, İlyas əminə de ki, qoy düşmənçiliyimiz sonraya qalsın. Ya səni girov götürsün, ya da kürəni versin, biz basılmayaq. El təəssübü elə düşür.

İlyas kişi qızıl kürəni yəhərləyir, atın yüyənini toyu olan oğlana verib deyir:

- Atana de ki, düşmənçilik öz yerində qalır. Atı özü minsin. Nəməri Göyçə aparmasın.

Toy şaxı bəzənir. «Koroğlu nağarası» çalınır. Geştəyin düzündə yarış başlanır. Səmənd ağanın boz atı ilə Alının mindiyi Qızıl kürən bir-birinə meydan oxuyur. Qızıl kürən bir anın içində gözdən itir. Səmənd ağa deyir:

- Alı, Geştəkdə mənim atımı keçəcək at yox idi. Bircə at var idi, o da sənin düşmənində idi.

Alı əhvalatı danışır. Göyçənin və Kəlbəcərin ağsaqqalı kimi tanınmış Səmənd ağa Alı ilə İlyası yanına çağırır və Quranı ortaya qoyub deyir:

- Siz ki, belə mərd oğlanlarsınız, sizi and verirəm bu Qurana barışın, qannan keçin. Qohum olun.

Səmənd ağanın təklifilə Alının qızını İlyasın oğluna nişanlayırlar. Toy-toya qarışır. Səmənd ağanın eldə-elatda belə kişilikləri çox olub.

Alovdan qorxurdum

Məşədi Yəhya ilə Allahyar bəy dost idilər. Onlar Yanıqlı dərəsi ilə atlı gəlirdilər. Allahyar bəy soruşdu:

- Məşədi Yəhya, biz dostuq, sən yüksək dini təhsil görmüsən, Məşhədə getmisən, sən doğrudan da mövhumatda bir həqiqət görürsənmi?

Məşədi Yəhya dedi:

- Allahyar bəy, görürsənmi yeddi-səkkiz qadın sakitcə çayda paltar yuyurlar, sakitcə sən onlara diqqət yetir. Sonra mənim möcüzəmə bax.

Məşədi Yəhya bir İsmi-əzəm oxudu. Qadının biri ayağa durub paltarını soyuna-soyuna onlara tərəf yüyürməyə başladı. Allahyar bəy yalvardı:

- Məşədi, mən ölüm qoyma qadın alt paltarını soyunsun.

Məşədi Yəhya bir dua oxudu qadın dayandı. Allahyar bəy atdan düşüb qadına tərəf gəldi və dedi:

- Qızım, nə üçün əynini soyunurdun?

Qadın dedi:

- Hər tərəfi alov bürümüşdü, alovun arasında təkcə bir cığır qalmışdı, mən o, cığırla qaçırdım. Əynimi ona görə soyunurdum ki, sağımda, solumda olan alov paltarımı yandırmasın.

Allahyar bəy dedi:

- Məşədi Yəhya, məni qorxutdun.

Qaçaq Kərəm və Məşədi Yəhya

Bir gün Qaçaq Kərəmin atı ölür. Kərəm Allahyar bəylə canbir dost imiş. Ondan at aparmağa gəlir. Allahyar bəy deyir:

- Kərəm, mənim Məşədi Yəhya adlı igid bir dostum var. İki atı var. Göy at, Ağ at. İkisi də mənzil kəsən atdır, mənim adımdan de o sənə at verər.

Məşədi Yəhya Qaçaq Kərəmi yaxın dost kimi qarşılayır və deyir:

- Atın ikisi də sənə qurbandı.

Kərəm atların burnunu sıxır və Göy atı bəyənir. Məşədi Yəhya deyir:

- Kərəm, indi ki, İrana gedirsən, Göy atla Məşhədə get, qayıdanda Məşədi Göy atı qoy, Ağ atı apar.

Arada bir dəfə Kərəm İrandan Allahyar bəylə Məşədi Yəhyanın görüşünə gəlir. Kərəm bildirir ki, hələ Məşhədə gedə bilməyib. Kərəm İrana qayıdır. Bundan sonra nə Kərəm, nə da Göy at vətənə dönmür.

İlan vuran ölməmişdi

Sürücü qara Mustafa belə deyirdi ki, Goranboyun Rəhimli kəndindən olan iki qardaş Kürün qırağındakı bostanlarına baş çəkməyə gedirlər. Qayıdanda qardaşın birini ilan vurur. O biri qardaş deyir:

- Qardaş, tale belə gətirdi. Gedim kənddən araba gətirim, səni aparım.

İlan vuran qardaş ağrıya tab gətirməyib bütün paltarını soyunur, başının altına yığır. Milçəklər, digər həşərat, cücülər onun üstünə hücum çəkir. Qanını soran milçəklər ölüb yanına tökülür. Bir an içində onun ətrafında milçək meyidindən hasar yaranır. Oğlanı bərk yuxu tutur. Bədəninin şişi çəkilir. Rəhimli kəndindən gələn adamlar səs eləyir, səs gəlmir. Yaxınlaşanda görürlər ki, onun ətrafında on minlərlə milçək qırılıb. Oğlanı oyadırlar. O, şirin yuxu gördüyünü söyləyir. Arabaya qoyub sağ – salamat evinə gətirirlər. Kəndə gələn qardaşından on yaş böyük olan ilan vuran qardaş ondan çox sonra, 90 yaşında vəfat edir.

At altında oynayır

Allahyar bəylə Məşədi Yəhya o qədər yaxın dost idi ki, bir günləri ayrı keçməzdi. Hazırcavablığına, qoçaqlığına, dosta sədaqətinə görə Allahyar bəy Məşədi Yəhyaya bir kənd bağışlamışdı.

Sofular kəndinə çatmağa üç-dörd kilometr qalırdı. Məşədi Yəhyanın Göy atı altında oynamağa başladı. Allahyar bəy soruşdu:

- Bu nədir, at altında oynayır?

- Bəy, kənddə toy var, at zurnanın havasını alıb.

Kəndə çatdılar. Doğrudan, toy idi. Allahyar bəy dedi:

- Gərək, gedək.

- Yox, bəy burada iş var. Yüz nəmər salarsan, mən də cərimə alaram.

Tovuzun qədim toy adətlərindən biri bu idi ki, kim özünə güvənsə, toyu olan bəyi güləşə çağırardı, yıxsa, yüz manat nəmər alardı, yıxılsa, yüz manat cərimə verərdi. Bəy güləşə etiraz etsə, at qoşaşdırar, cıdır yarışına çıxardılar.

Təzə bəy Məşədi Yəhya ilə güləşməyə razılıq vermədi. At yarışına çıxdılar. Məşədi Yəhyanın Göy atı bayaq ötüb keçdi. Təzə bəy atın başını döndərib geri qayıtmaq istədi. Məşədi Yəhya bir andaca onu haqladı və təzə bəyin papağını başından götürdü. Təzə bəy dedi:

- Sənə iki yüzlük verim. Birini cibinə qoy. Birini də cərimə kimi qaytar.

Məşədi Yəhya dedi:

- Özümə qalsa, güzəştə gedərdim, amma Göy at bunu mənə bağışlamaz.

Gözlərini itirir

Qızılvəngli Aşıq Alının çoxlu qızı, bircə oğlu olur. Böyük qızı Göyçənin Zod kəndində ərdə imiş. Alının oğlu da bacısının yanında xəstə yatırmış.

Alıya deyirlər:

- Allah özü saxlasın, oğlan bu gecədən salamat çıxsa, ona ölüm yoxdur.

Alı dizinə qədər çirmənir, dizini buzun üstə qoyur və deyir:

- İlahi, səhərəcən dizi yalın, buzun üstə qalacağam, oğlumu qoru.

Səhər tezdən muştuluqçu gəlir ki, Alı əmi, oğlun salamat qaldı. Sevincək qalxan Alının dizlərinin dərisi

soyulub buzun üstə qalır. Beləliklə, Alı oğlunun yolunda gözlərini itirir. Bu zərbədən Alı ömürlük kor olur…

Qara xurcunun tayına kömək et

Qovlar-Əsrik bölgəsində adamyeyən Qara adlı bir kişi vardı. Hamı ondan tük salardı. Bu Qara böyük bostan salmışdı. Yenə Məşədi Yəhya ilə Allahyar bəy hardansa atla gəlirdilər. Bostana çatanda Məşədi Yəhya atdan düşüb xurcunun iki gözünü də qarpızla, yemişlə doldurdu. Sonra Allahyar bəyə üzünü tutub dedi:

- Bəy, kömək et bu xurcunu atın belinə qaldıraq.

Allahyar bəy dedi:

- Məşədi Yəhya, məni qana-qadaya salma.

Məşədi Yəhya bir də baxdı ki, adamyeyən Qara boynunun kökündə durub. Özünü o yerdə qoymayan Məşədi Yəhya ərklə:

- A Qara, qadan alım, gücüm çatmır, kömək et, bu xurcunu atın belinə qaldıraq.

Qara dinməzcə xurcunun tayını qaldırdı, xurcunu atın belinə qoydular.

Qara dedi:

- Məşədi Yəhya, ərklə dediyin söz xoşuma gəldi, yoxsa, meyidin, yerə sərili qalmışdı.

İmişlidə bir kənd var

İmişlidə bir kənd var, qədim Bəcrəvan kəndi. Burada dəmirçilər nəslinin özünəməxsus ənənələri yaşamaqdadır. Onların ulu babaları Atəş və oğlu dəmirçi olublar. Onların həyətində əbədi olaraq çəkic və zindan var. Kim bu həyətə girsə, üç dəfə çəkiclə zindanı səsləndirməlidir. O bundan sonra evin əziz qonağı ola bilər. Xocalıda, Sabirabadda

prokuror işləmiş Atakişi Atakişiyev bu nəslə məxsusdur. Həmin nəsillə bağlı bir əhvalat:

Plov məsələsi

Atəş nəslinin südlü plovunun səs-sədası Arazın o tayına da çatmışdı. Bu plov xüsusi qazanabənzər qabda bişir, plov qazan qədər göbələk kimi qabdan yuxarı qalxır. Bu hissə qaymağa bükülmüş olur. Plovun həmin hissəsini bıçaqla kəsib kimin şərəfinə bişibsə, onun qarşısına qoyurlar.

Bir gün bu plovun sorağı ilə Bəcrəvana – Atəş soyuna Arazın o tayından üç qonaq gəlir. Özləri də plov həvəsilə gəldiklərini bildirirlər. Ev sahibi arvada plov bişirməyi tapşırır. O da xəlvətcə bildirir ki, odun yoxdur. Kişi farmaşı açır, oradan dörd top ipək qumaş gətirir, baş-başa qoyub yandırır. Plov bişib, vaxtında süfrəyə gəlir. Səhər tezdən həyətə çıxan qonaqlar qəribə bir mənzərənin şahidi olurlar. Ocaq yerində yarıya qədər yanmış dörd top ipək qumaş qalığı görürlər. İşin nə yerdə olduğunu başa düşən qonaqlar gedəndən sonra İrandan bir dəvə yükü ipək qumaş hədiyyə göndərirlər.

Övlad haradan olardı

Bəcrəvanda Atəş nəslindən olan bir ailənin iki oğlu olur. Böyük oğlanı evləndirirlər. Eşidəndən uzaq təzə bəy qısa müddətdə dünyasını dəyişir. Ata və ana bildirirlər ki, əgər bu gəlin evdən çıxarsa, biz özümüzü məhv edərik. Ona görə də, kiçik qardaş bu işə razı olur. Aradan 25 il keçir. İkinci qardaş da dünyasını dəyişir. Ağlaşmada təəssüflənirlər ki, heyf bu oğlandan, bir övladı da qalmadı. Gəlin qayıdır ki, övlad haradan ola bilərdi, o, sizin yanınızda zahirən mənlə ər-arvad kimi yaşasa da, ölənəcən

mənə qardaş arvadı kimi yanaşdı. 25 ildə qardaş örtüsünə, qardaş çarpayısına nəinki yaxınlaşmadı, gözünün ucu ilə belə baxmadı.

Bir atanın iki qızı

Ata qızının birini Kürün bu tayına, birini isə o tayına ərə vermişdi. Bir gün arvad dilləndi.

- Ay kişi, qoyun, mal satmamısan ki, başından keçəsən. Get gör, qızların güzəranı necədir.

Kişi böyük qızın qonağı oldu. Qız dedi:

- Ata, bu göz işlədikcə sonu görünməyən kərpicləri biz kəsmişik. Əgər bu il gün olarsa, var-dövləti yığıb-yığışdırmaq olmayacaq.

O biri gün kiçik qıza qonaq getdi. Qız dedi:

- Ata, bu göz işlədikcə görünən göy zəmilər bizimkidir, əgər yağış olarsa, məhsulu yığıb-yığışdırmaq olmayacaq.

Kişi evə qayıtdı. Arvad qızlarının güzaranını soruşdu. Kişi dedi:

- Arvad, yağış oldu, böyük qız batdı, gün oldu kiçik qız. Qızlardan biri yağış, biri isə gün istəyir.

Yuxu

Bir kişiyə yuxuda deyirlər ki, Çalqayanın başında xəzinə var, get, oradan öz payını götür. Kişi yuxudan oyanır, Çalqayanın başına gəlib xəzinəni tapır. Papağını qızılla doldurub, alaçığa dönür və deyir:

- Qalanını da sabah axşam gedib gətirərəm.

Kişi sabah ayılır ki, böyük uçqun olub, dağ yerindən oynayıb. Kişi öz-özünə deyir:

- Ey dili-qafil, o böyük xəzinədən mənim bircə papaq payım varmış.

Tapa bilmirik, tapanda vura bilmirik

Bəcrəvanda, Arazın sahilində Atəş nəslindən olan bir qoca hörmətli şairimiz Səməd Vurğunu görüb onun yanına gəlir. Salam verib soruşur:

- Şair, buralarda nə edirsən?

Əlində tüfəng, yanında ov tulası olan Səməd Vurğun deyir:

- Axtaranda tapa bilmirik, tapanda vura bilmirik.

Atəş nəslindən olan qocanın gözü ov tulasının dal qıçındakı bel qayışına sataşır:

- Bağışla, şair bu nədir?

Səməd Vurğun deyir:

- Bu tula qabağa qaçıb turacı, qırqovulu yerindən qaldırır. Onun sürətinə çatmaq olmur. Ov tulasının ayağını bağladıqda isə onun sürətini azaltmaq olur.

Hərbi and

Şair Yadigar Tahirin arvadı ukraynalıdır. Onun iki oğlu Ukraynada ali məktəbdə oxuyur. Onları ordu sıralarına çağırırlar. Qardaşlar andiçmə mərasimdə deyirlər:

- Bizim burada and içməyimiz düz olmaz. Anamız ukraynalı olsa da atamız azərbaycanlıdır. Biz andı atamızın torpağında içməliyik. Onları Ukrayna ordusunda nümunə olaraq göstərirlər və əsl ata oğlu belə olar – deyirlər.

Məni kişi saymadınız

Şahvələdlidən Allahverdi adlı bir kişi qohumlarından acıq edib Qazaxyolçular kəndinə köçür. Bir gün kənddə cöngə kəsib alışma edirmişlər. Hamıya pay edirlər və deyirlər ki, Allahverdiyə pay etməyək. Heyvanın baş ayağını və içini ona bağışlayaq. Hamı qab götürüb payını aparmağa gəlir. Allahverdiyə bildirirlər ki, sənə pay etməmişik. İçi, başı sənə bəxşeyiş etmişik.

Allahverdi heç nə götürmür, barxanasını götürüb kənddən çıxır. Onun qabağını kəsirlər ki, getmə. Allahverdi deyir ki, mən bu kənddə qala bilmərəm. Məni kişi hesab edib adımı alışma siyahısına da salmadınız.

Qarışqa və buğda

İki qardaş şərikli alver edirdilər. Qardaşın biri şəhərdən mal daşıyır, o biri isə dükanda alver edirdi. Günorta qardaşlar oturub ləzzətlə pürrəngi çay içirdilər. Böyük qardaş görür ki, qarışqa buğdanı aşıra-aşıra dükanın altına gətirir. Böyük qardaş dedi:

- Dünyada ən halal canlı arı və qarışqadır. Bizdə də halallıq olmasaydı, qarışqa bizim dükanın altında yuva bağlamazdı.

Bir neçə müddətdən sonra böyük qardaş gördü ki, qarışqa buğdanı aşıra-aşıra geri daşıyır. Balaca qardaşına dedi:

- Haramlıq ya səndədir, ya məndə. Qarışqa bizdən üz döndərib gedir.

Balaca qardaş dedi:

- Mən elə bildim ki, üzr istəyirəm, siz kənarda kef çəkirsiniz. Bir az puldan gizlətdim. Nə fayda, qarışqa çuğulluq edib bildirdi.

Bulaq qanımızı aldı

Bayram kişi Göyçəyə taxıl almağa gedirdi. Oğlu Cavad da əl çəkməyib onunla getdi. Sonalar bulağına çatanda, beş atlı qaçaq gəlib Bayram kişini öldürdü, atını da apardılar. Şair Cavad bulağın mərmər daşını qucaqlayıb dedi:

- Ay Sonalar bulağı, səni and verirəm o, bir allaha atamın qanını yerdə qoyma.

Bir an içində on səkkiz atlı peyda oldu. Bu beş qaçağı öldürüb, Bayram kişinin atını Cavadın yedəyinə verdilər. Cavad ağlaya-ağlaya kəndə qayıtdı. Cavad anasına dedi:

- Beş atlı qaçaq atamı öldürdü. Ancaq qadasın aldığım Sonalar bulağı göz qırpımında qanaqan aldı.

At məsələsi

Bir nurani kişi atla keçirdi. Gördü bir cavan zarıyır. Kişi soruşdu:

- Nə olub, balam?

Cavan dilləndi:

- Yorulmuşam xəstəyəm, dizlərim taqətdən düşüb.

Kişi bildirdi:

- Oğul, ömrümdə nə bir adamı tərkimə mindirmişəm, nə da birinin tərkinə minmişəm, gəl atı sənə verim, min. Bir mənzil söhbəti edə-edə gedək.

Oğlan atı minən kimi cıdıra çıxdı. Kişi gördü ki, aldanıb, oğlan atı aparır. Kişi dedi:

- Oğul, atı aparırsan, apar. Birini də alaram. Amma, sən elə etdin ki, bundan sonra yolda qalana heç kəs kömək etməyəcək.

Qaçaq Nəbi toya gəlir

Mən 1927-ci ilin may ayının 15-da Azərbaycanın dilbər güşəsi olan Şuşada sənətkar ailəsində dünyaya göz açmışam. Orta məktəbə də orada getmişəm. Müəllimlərim Mirzə Xosrov, Həsən İkva, Yəhya Şeyda və s. olmuşdur. Bizim müəllimlərin şagirdlərə qarşı münasibəti çox yaxşı idi. Ona görə ki, şagirdlər də gələcəkdə özləri kimi savadlı şəxsiyyət olsunlar. Orta məktəbi qurtaran vaxtlarımızda Şuşa şəhərində, biz yaşadığımız küçədə, Çölqala məhləsində bir gözəl toy oldu. Həmin toyda Qarabağın məşhur xanəndəsi Hacı Hüsü iştirak edirdi. Həmin vaxt toy sahibi Balaməşədi Sadıq oğluna toy eyləyirdi. Toyun gedişi zamanı camaat təşvişə düşdü. Baxıb gördülər ki, bir dəstə gəlir. Bu dəstə Qaçaq Nəbinin dəstəsi idi. Dəstə Zavıx dərəsində olurmuş. Onlar eşidibdi ki, Qarabağda toy olacaq, Hacı Hüsü oxuyacaq. Qaçaq Nəbi başında qırx nəfərlə toy qurulan yerə yaxınlaşır. Nəbi baxıb görür ki, camaatda başqa əhvali-ruhiyyə əmələ gəlir. Deyir ki, ay camaat, biz nə adam öldürənik, nə də adam oğurlayan. Gəlmişik biz də bir həftə Hacı Hüsüyə qulaq asıb feyziyab olaq. Camaat sakitləşir. Bəli, bu minvalla toy başa çatır. Nəbinin dəstəsini Şuşa əhalisi təntənə ilə yola salır. Nəbi beş kiloluq qızıl torbasını Hacı Hüsüyə verir. Nəbi çıxanda toy yiyəsinə deyir ki, gün o gün olsun, oğlunun toyuna gələk.

İtin sədaqəti

Bugünki əhvalat vaxtilə Ağcabədi ərazisində olubdur. Bu əhvalatda söhbət oranın yaxın kəndindən gedir. Burada Çərkəz adında bir bəy yaşayırdı. Sovetləşmə dövründə Çərkəz bəy öz ailəsini başqa kəndə aparmışdır. Çərkəz bəy ruslar tərəfindən vurulmuşdu. Çərkəz bəy qapısını qorumaq

üçün bir neçə it saxlayırdı. Onun ən çox sevdiyi bir iti var idi. Ruslar Çərkəz bəyi öldürdükdən sonra it cəsədi həyətlərində olan kəhrizə tərəf sürüyüb aparır. Çərkəz bəyin iki oğlu da qonşu kənddə idi. Səhər tezdən qapılarına gəlirlər ki, görsünlər atalarının halı necədir. Böyük oğlu qapıdan içəri girəndə görür ki, it kəhrizin yanında oturub ağlayır. İt Çərkəz bəyi gizlətdiyi yeri aparıb onlara göstərir. Ağa bəy həmin dəqiqə gedib atasının cəsədini ordan götürür. Kənd camaatı onu dəfn etmək üçün qonşu kəndə aparırlar. Dəfn mərasimi zamanı həmin it də onlarla bərabər qəbirstanlığa gedir. Bəli, ümumi təziyyə qaydasıyla Quran oxunur, meyidin üstü örtülür. İt özbaşına üç dəfə hürüb qəbirin başına fırlanır. Ondan sonra it canını tapşırır. Bu hadisə camaata çox pis təsir edir. Onun oğlu bu yaxınlara qədər Ağcabədidə yaşayırdı. İndi bilmirəm, harda yaşayır. Bununla da, Çərkəz bəyin həyatı qurtarır.

Mən ikinci sınıqçı Səfiyəm

Qasım həm də güclü sınıqçı imiş. Adamlar hər dəfə deyəndə ki, Qasım, halal olsun, mahir sınıqçısan o, deyirmiş:

- Mən birinci yox, sınıqçılıqda ikinci Səfiyəm. Qandallarda, ümumilikdə Əsrik çayı dərəsində Səfi kimi sınıqçı olmayıb, bundan sonra da çətin ki olsun.

Qasım kişi bir gün sınaqçı Səfidən adamlara belə bir əhvalat danışır:

- Bir gün Allahyar bəyin arvadının qıçı omadan çıxır. Bəy belə şərt qoyur ki, arvad ölsə də, ona kişi əli dəyə bilməz. Amma kim onun qıçını sağaltsa, məndən böyük ənam alacaqdır. Bir səhər bizim sınıqçı Səfi Allahyar bəyin hüzuruna gedir və deyir:

- Bəy, mən qadının qıçını sağaldaram. Ancaq mənim dediklərimə tam əməl etməlisən.

Səfi iri camışı üç gün bağda susuz saxlatdırır, üçüncü gün deyir:

- Bəy, bir-iki qadın köməkçi çağır. Camışı nazik çullayın. Sonra qadını üzü yuxarı camışın belinə çıxarın və enli örkənlə sarıyın. Sonra camışı yedəyə alsınlar, onu otlu biçənəkdə otarsınlar. Doyandan sonra daşa duz səpsinlər, yalasın, sonra camışı bulağa çəksinlər.

Allahyar bəy sınıqçının tapşırıqlarını tam yerinə yetirir. Camış sudan çəkdikcə qarını qalxır, qadının qıçı yay kimi dartalıb yerinə düşür, qadın qulun kimi qışqırır.

Qadını camışın belindən düşürürlər. Allahyar bəyin arvadının qıçı anadangəlmə olur.

Allahyar bəy deyir:

- Səfi, məndən nə istəyirsən, ürəklə istə!

Səfi deyir:

- Bəy, mənim də az-çox mal-qoyunum var. Otlaq yerim yoxdur, mənə bizə yaxın olan Başgüneydən nə versən, otlaq yeri ver.

Allahyar bəy deyir:

- Az-çox yox, bütün Başgüneyi sənə bağışlayıram. Bu gündən oranın adı Səfigüneyi olsun.

Bəy əlavə Səfiyə bir at, bir də yanı balalı bir camış bağışlayır.

O güneyin adı bu gün də «Səfigüneyi»dir.

Daha kəndimizi yandırmazlar

Beyləqan rayonunda belə bir qayda var. El yaylağa köçəndə kəndi gözləmək üçün bir mötəbər Adam seçirlər ki, ev-eşiyi, bağ-bağçanı qorusun. Lakin kəndlərdən biri hər il yandırırlar. Kənd camaatı yığılır ki, gəlin bu dəfə kəndi qorumağı başbilənimizə tapşıraq. Qocanın 13-14 yaşlı nəvəsi yalvarır ki, baba qoy səninlə mən də qalım, həyan olum, istəyəndə su verim.

Axşamdan qoca yatır, lakin uşaq yatmayır. Baba ayılıb soruşur:

- Bala, niyə yatmırsan?

- Baba, qorxuram kəndi yandırarlar adın batar.

- Bala, qorxma kəndi yandıran olmaz. Kəndi mən özüm yandırırdım ki, bu işi mənə tapşırsınlar.

Bəyin şərti

Bəy o adamı naxırçı götürürdü ki, çörəyini tez yeyib dursun, mal arxaşda yatışmasın, örüşdə şehli – şehli otlasın.

Çoban götürəndə isə hər birinin çarığının altına daş qoyurdu. Qoyunu otar, daşı salamat gətir. Ağlı olan daşı çıxardıb atırdı və deyirdi:

- Bu bəy çoban götürməz, başqa bir bəy götürər. Canımdan keçməmişəm ki.

Ağlı olmayan çoban isə ayağındakı daşı axşamacan gəzdirirdi, ayaqları şişirdi, yara olurdu. Axşam birincini bəy işə götürürdü, ikincini yox. Deyirdi:

- Öz canının qədrini bilməyən mənim qoyunumun qədrini bilməz. Ona bir aylıq haqq verirdi ki, ayağı sağalana qədər yesin.

Kürk əhvalatı

Zaqalata qəbiristanlığının yanından keçəndə görürlər ki, avqust ayında qəbirqazan bir kişi əyninə kürk geyinib.

Soruşurlar:

- Ay qoca, yayın istisində bu kürk nədir?

Qoca əlini qəbirstanlığa tutub deyir:

- Oğul, burada ölənlərin çoxu soyuqdan ölüb. Heç istidən ölən yoxdur.

Mənimsə cavabım banketə qaldı

Sədnik Paşa doktorluq müdafiəsini başa çatdırmış, səsvermə də sevinclə keçmişdi.

Müdafiə Şurasının sədri Yaşar Qarayev ayağa qalxıb dedi:

- Sədnik Paşa, tribunaya gəl. Bu xeyirxah işdə kimə minnətdarsan bildir.

Sədnik Paşa həyat yoldaşı Səfurə xanımı tribunanın yanına çağırdı və sözə başladı:

- Mənə səs verən, Müdafiə Şurasının üzvlərinə öz təşəkkürümü bildirirəm. Mən əsasən, hər kəsdən əvvəl bu həyat yoldaşım Səfurə xanıma minnətdarlığımı bildirirəm. O, mənimlə yuxusuz qalıb, cəfa çəkib mənim yazılarımı makinadan çıxarıb, çay verib, su verib, yatmayıb ki, mən də yataram.

Professor Mürsəl Həkimov yerindən dilləndi:

- Durum gedim, ə, biz arvadın əməyini qiymətləndirməmişik.

Səfurə xanım qeyri ixtiyari dilləndi:

- Mürsəl qardaş, arvadın qədrini gəncliyində bilmək lazımdır, indi isə gecdir.

Sədnik Paşa gülə-gülə dedi:

- Mürsəl müəllim, cavabını Səfurə xanım verdi. Mənimsə cavabım qoy banketə qalsın.

Durnalı düzündə

Qabaqtəpə kəndindən bir nəfər Durnalı düzündə qoyun otarırmış. Qəflətən yeridiyi yerdə quyuya düşür. Yerə baxanda görür ki, quyunun dibində qara qazan var. Qazanın qapağını qaldıranda görür ki, qızılla doludur. O, boynundakı çörək çantasını boşaldıb qızılla doldurur. Toqqası ilə çantanın ağzını bağlayıb quyudan kənara atır.

Bir müsibət ilə quyudan çıxa bilir. Qoyunları vaxtından əvvəl kəndə qaytarır. Başına gələnləri arvadına danışır. Arvad çox ağıllı və tədbirli idi. Kişiyə tapşırır ki, ağzın qanla dolu olsa, yerə tüpürmə. Yerişini-duruşunu dəyişmə. Evimizi balaca düzəldək. Ancaq səkkiz oğlumuz var. Onları oxudaq, sənət sahibi edək.

Kişi öz arvadı ilə Durnalı düzünə gəlirlər. Nə qədər gəzirlərsə, qızıl olan quyunu tapa bilmirlər.

Kişi ölən zaman qardaşına deyir:

- Mən Durnalı düzəndə quyuya düşdüm. Qızıl dolu qazanı gördüm. Lakin sonrakı gün çox axtardım, tapmadım.

O gündən bəri Durnalı yaylağını adamlar böyük maraqla axtarmışlar. Hələ o quyunu görən olmayıb.

Buzxana

Gədəbəyin Daryurd kəndinin yuxarı hissəsi meşəlikdir. Meşəlikdən sonra Kiçik Qafqaz sıra dağları başlanır. Qədmalı yaylağında Ocaq yalı vardır. Buraya qurbanlar kəsmək üçün gəlirlər. Bu təbiətin möcüzəsi ilə bağlı bir məsələdir. Bu dağda kiçik qayalıqda üç kaha oyruğu var. Qışda bu kaha oyruğu çox isti olur. Qayanın başında qar dayanmır, əriyir. Yayda isə təbiətin möcüzəsi başlanır. Gecə-gündüz kahaların üstündən damcı damır. Yayda daman bu damcılar yerə düşdükdə buza çevrilir. 1-2 metr qalınlığında buz təbəqəsi yaranır. Adamlar balta ilə buzu doğrayıb atlara yükləyib kəndə aparırlar. Avqust ayında bu sal buzları adamlar evə gətirirlər. Xəstə olsa da, olmasa da büllur buz laylarından istifadə edirlər. Bu təbiətin möcüzəsi hələ öz sirrini adamlara açmayıbdır.

Ağını belə toplayırlar

Akademiyanın folklorşünas alimlərindən Bəhlul Abdulla, Məhərrəm Qasımlı və Elxan Məmmədli Yardımlı rayonuna folklor nümunələri toplamaq səfərinə çıxırlar. Onlara xəbər verirlər ki, burada məşhur ağı deyən bir qadın var, onun sinəsi bayatılarla doludur. Qadına müraciət edirlər, o bildirir ki, həqiqətən ölü olmasa, mən ağlaşma qura bilmərəm, sinəmdən bayatı qopmaz. Mən ölünü vəziyyətinə uyğun sözlərlə ağlayıram. Ona uyğun sinəmdən bayatılar qopur. Onlar deyirlər:

- Elə bizim bir nəfərimiz mehmanxanada yatıb qalxmayıb. Deyirlər adətə görə, onun ağlaşması olduğu yerdə qurulmasa, Bakıya, evlərinə aparmaq olmaz.

Sənəm xala deyir:

- Gedin mehmanxanaya, mən bir-iki nəfər qadın da götürüb gəlirəm.

Folklorşünaslar aralarında çöp atırlar, bir nəfəri stolun üzərinə uzadıb, üstünə ağ mələfə çəkirlər. Səsyazma cihazını hazır saxlayırlar. Sənəm arvad gətirdiyi qadınlarla ağlaşmaya başlayır, nə başlayır. Folklorşünaslar yoldaşlarından birini diri-diri ağlayan Sənəm xaladan bir kitab dolusu rəngarəng ağı (bayatı) toplayırlar.

Əski dünya görüntüləri

Ovçu Pirim və Xan Kəlbi

Ovçu Pirim bütün canlıların, hətta bitkilərin, ağacların dilini bilirmiş. Səsindən tanıyırmış ki, bu qırqovuldur, bu turacdır, bu bildirçindir və hər hansı bir heyvandı. Onun qardaşı Xan Kəlbi (ikinci adı Kərənədir) bütün heyvanların səsini çıxara bilirmiş. Bir gün Xan Kəlbi qardaşı Ovçu Pirimə deyir ki, gəl birlikdə meşəyə, ova çıxaq. Ovçu Pirim bildirir ki, qardaş, oturduğun yerdə otur, qəlbimə dumanlı şeylər gəlir. Xan Kəlbi bildirir ki, olan şey deyil, mən bu gün səninlə ova getməliyəm. Xan Kəlbi qardaşından xeyli aralanıb cəngəlliyə girir və orada meşə xoruzunun səsini çıxarır. Ovçu Pirim xeyli vaxt idi ki, meşə xoruzunun ətinə tamarzı imiş. Tüfəngi nişanlayıb atır və qardaşı Kərənənin səsini eşidir. Gəlib görür ki, qardaşını güllə ilə vurub öldürüb. Ovçu Pirim burada üç bənd şer söyləyir. Heyf ki, onun iki bəndi bizə gəlib çatmışdır:

Bu gün nəs gündü, mən çıxdım ova,
Ruzigar çevrildi, bəd oldu hava,
Çaxmağı çəkəntək od düşdü qova,
Hayıf oldu, Xan Kəlbini öldürdüm!..

Tüfəng, səni zərgərlərə düzdürdüm,
Boğazına qızıl üzük saldırdım,
Tərifini ucalara qaldırdım,
Hayıf oldu, Xan Kəlbini öldürdüm!..

Ovçu Pirim və Xan Kəlbi
(ikinci variant)

Sizə hardan xəbər verim Ovçu Pirimdən. Ovçu Pirim bir gün evdə oturmuşdu. Qardaşı Xan Kəlbi yanında söhbət

eləyir. Özündən kiçik qardaşı idi. Xan Kəlbi Ovçu Pirimə dedi ki, qardaş, bir gün ova gedəndə məni də ova apar. O güllərdən, çiçəklərdən mən də yığım. Amma Xan Kəlbi heç ova çıxmamışdı, ancaq çox şeylərdən məlumatı var idi. Bir gün Ovçu Pirim dedi:

- Qardaş, hazırlaş mənimlə ova gedək. Xan Kəlbi geyindi, kecindi, çöl libası geyinib hazır oldu. Ovçu Pirimlə yola düşdülər. Gəlhagəl, gəldilər ov oylağına yetişdilər. Bir təpənin başında oturub nahar elədilər. Sonra Xan Kəlbi Ovçu Pirimə dedi:

- Qardaş, sən bu təpənin başında pusquda dur. Mən o kolluqlara gedim, ov görsəm, sənə işarə verəcəm. Bu, axı, çöl görməmişdi. Bu yerdə yanıldı. Düzgün işarə verə bilmədi. Xeyli aralı getdikdən sonra ovu işarə verdi. Ovun səsi ilə səsləndi. Xan Kəlbi ovun səsini çıxartdı. Ovçu Pirim elə bildi ki, səs ovun səsidir, tüfəngi tuşlayıb, ovunu nişan aldı. Güllə açılan kimi Xan Kəlbi çığırıb yıxıldı. Ovçu Pirim gördü səs ovun yox, qardaşının səsidir. Tez özünü qardaşına yetirdi. Orada tüfəngin nişan yerindən tutub, qundağını möhkəm yerə vurdu. Tüfəng dağıldı. Ovçu Pirim dedi:

- Bir də mən heç kəslə ova çıxmayacam, çıxsam, tək çıxacam.

Çaxmağı çəkdim, od düşdü qova,
Çaxnaşdı buludlar, bəd oldu hava.
Dağılsın bu gün ki, mən çıxdım ova,
Keyik bilib, Xan Kəlbini öldürdüm.

Yaraq, səni zərgərlərə döydürdüm,
Əziz bilib zər-zibaya qoydurdum,
Bu günləri öz gözümü oydurdum,
Keyik bilib, Xan Kəlbini öldürdüm.

Yaraq, səni açılmayıb, qalasan,
Nə nişan götürüb, nə ov alasan,

Canıma yağısan, başa bəlasan,
Keyik bilib, Xan Kəlbini oldürdüm.

Yaraq, görüm sənin xəznən boş olsun,
Tətiyin pas tutsun, qovun yaş olsun,
Barmağın qurusun, əlin daş olsun,
Keyik bilib, Xan Kəlbini öldürdüm.

Ovçu Pirim halını kim sorubdu,
Öz ağlım özümə tələ qurubdu,
Yazı tərs yazılıb, qəza vurubdu,
Keyik bilib, Xan Kəlbini oldürdüm.

«Kərimoğlu və Ayı» dastanı

Heyif ki, əski çağlarla səsləşən bu dastandan da az bir hissə qalmışdır. Əldə olan məlumata görə, Kərimoğlu toy günü səhər tezdən meşəyə oduna gedir. Meşədə ayı ilə rastlaşır. Ayı hiss edir ki, Kərimoğlu qorxur. Ayı əli ilə bildirir ki, «qorxma səni yeməyəcəyəm». Şer demək təbi olan Kərimoğlu ürəklənir və ayıya yalvarmağa başlayır.

Allahın heyvanı, Allah eşqinə,
Gəl yemə, Allaha bağışla məni.
Məhəmmədin, ol «Quran»ın eşqinə,
Gəl yemə, Allaha bağışla məni.

Sən heyvansan, sənin gücün beldədi,
Mən insanam, mənim gücüm qoldadı,
O görünən dağlar bizə daldadı,
Gəl yemə, Allaha bağışla məni.

Kim bilir, Kərimoğlu yaman haldadı,
Parçam biçilibdi, toyum əldədi,

Bir gözəl yarım var gözü yoldadı,
Gəl yemə, Allaha bağışla məni.

İki güyüm

Qarabağdan bir gənc oğlan gəlib Kəlbəcərin Bəylik kəndində çobanlıq edirdi. O, yaylaqda olarkən, leysan yağış yağır. Dağlardan sellər axır. Çoban baxır ki, zəncirlə qulpundan bir-birinə bağlanmış iki güyümün üstünü sel açır. Daş güyümün ağzını açanda gördü ki, güyüm qızılla doludur. Güman edir ki, ikinci güyüm də belədir. Güyümlərin üstünə büründüyünü atıb, hündür yerə çıxıb ağasını, ağasının uşaqlarını səslədi. Ağası ata minib tələsik çobanın yanına gəldi. Çoban xəlvətcə ağasına dedi:

- Dağdan sel gəlib basırdığın güyümlərin üstünü açdı. Ağa, birinə baxdım ağzınacan qızıldı.

Ağası dedi:

- Çox sağ ol, bala. Bu barədə heç kimə söz demə. Oğlanlarımı bu saat göndərirəm. Gələr güyümləri başqa yerdə basdırar. Oğlanlarım gələndə onları büründüyün yanına apar, göstər, sonra qoyunları hayla gəlsin.

Oğlanlarına meşok, çuval verdi ki, güyümləri ata yükləyib qaranlıq düşəndə evə gətirsinlər.

Ağa çobana iki toğluluq, əlli qoyun verib, kəndlərinə yola saldı və tapşırdı:

- Nə badə güyüm haqda danışasan. Səni öldürərlər, qoyununu da əlindən alarlar.

Çoban sevincək Qarabağa yola düşdü.

Ağa ev-eşiyini, mal-qoyununu, dam-daşını satıb, tanınmaz, bilinməz bir məkana köçdü.

Ağacın dibindən

Daşkəsəndəki Dəstəfur kəndinin meşəbəyi Dadaş belə bir qanun qoyur ki, meşəyə oduna gələnlər ağacı kökündən çıxarmalıdırlar ki, müfəttiş gələndə bir nişanə tapmasın. Dilanka adlanan yerdən fısdıq ağacını traktorla yerdən köhkü-köməcli çıxaranda ağacın kökündə olan torpaqla bərabər bir küpə çıxır. Bu deyilənə görə Qaçaq Qafarın Dəstəfur meşələrinə gizlədilmiş qızıl dəfinələrindən biridir.

Bir il sonra qızıl tapan adamın evi yanır. Axtarış zamanı ev sahibi ərimiş qızılın külçəsini tapır.

Üç şey itirdim

Ağıllı-kamallı bir oğlan gəlib həbsxanaya düşür.

Ona deyirlər:

- Bunu səndən gözləməzdik.

Oğlan deyir:

- Üç şey itirdikdən sonra bura gəlib çıxdım. Birinci, Allahımdan qorxardım. Qonşumun köz kimi yanan narı, başqa meyvələri, çəpəri aşıb bizə tərəf keçərdi. Göydəki Allahdan qorxub ona dəyməzdim. Mənə dedilər ki, ali təhsilin var, kommunistsən, ateistsən, Allahı başından çıxar.

İkinci, göydə Allahı, yerdə atamı bilərdim. Mənə dedilər ki, əlifbanın nə olduğunu bilməyən köhnə təffəkkürlü atanın nəyinə qulaq asırsan? Sən müasir insansan.

Üçüncü, dövlətdən qorxurdum. Mənə dedilər ki, milis rəisi qonşum Tükazbanın oğlu, prokuror qonşu kənddəki Cahangirin oğludur. Sən bunların nəyindən qorxursan?

Həmin gündən nə Allahdan, nə dövlətdən qorxurdum, nə də atamdan utanırdım. Bütün məsuliyyətimi itirdim.

Qonşunun bağça-bağını şaxşəvəl elədim. Ağlıma tutdum, sonra gəlib bura çıxdım.

Vərə mumu

Həsən müəllim (Vahabov) orta məktəbdən mənə riyaziyyatdan dərs demişdi. 60-cı illərdə rayonlararası «Mübariz» qəzetində redaktor idim. Daşkəsən rayonunun Qabaqtəpə kəndinə getmişdim. Həsən müəllimin həyətində çoxlu hinduşka var idi. Həsən müəllim erkək bir hinduşkanın qulaqlarına vərə mumu doldurdu. Mən bunun səbəbini soruşdum. O, bildirdi ki, bu hinduşkanı ayın axırı kəsəcəm. Bunlar o qədər əsəbidirlər ki, nə qədər yedirtsən də bir-birinin səsindən arıqlayır. Bundan sonra ona qoz, qarğıdalı verəcəm. Ayın axırında bir toğlu qədər ət verəcək…

Dörd nökər

Ziyadlı kəndində bir bəyin dörd nökəri var idi. Üçünə ayda on manat, birinə isə yüz manat verərmiş. Bir gün nökərlər üzə dayanır. Bəy deyir:

- Balalar, bir gün sizə isbat edərəm ki, o nökər niyə yüz manat alır.

Bir gün Samux tərəfdən yüklü bir araba gəlir. Bəy nökərin birini göndərir ki, soruş, o nə arabadır? Nökər gəlib deyir:

- Ağa, Samuxdan gəlib Gəncə bazarına gedir.

İkinci nökəri göndərir. O da gəlib deyir:

- Ağa, Gəncə bazarına buğa aparır.

Üçüncü nökəri göndərir. O,gəlib deyir:

- Ağa, arabaçı deyir ki, taxılı burda da istəyən olsa, sataram.

Bəy dördüncü nökəri göndərir:

Nökər qayıdıb deyir:

- Ağa, Mustafa bəyin arabaçısıdır. Samux zəmisindən biçilmiş və xırmanlıq üçün hazırlanmış çilik qırmızı buğda aparır. Əgər bazara çatmamış alan olsa, putu bir manatdan, bazara çatdıqdan sonra isə manat yarımdan satılacaq. Mustafa bəy deyib ki, əgər taxılı mal-qoyunla dəyişən olsa, ver getsin.

Bəy deyir:

- Ə, balalar, indi bildinizmi, bu nökər ayda niyə yüz manat alır? Hərəniz bir söz gətirdiniz. Gedin, o arabanın ağzını bəri çevirin.

Evdə də Lala qoymur

Sultan ürəkdən sevdiyi Lala ilə evlənir. Lalanın yeznəsi Nəcəf mal-qoyun oğrusu idi. Ona görə də onun evində qovurma yeyərdilər. Lala yeznəsigilə qonaq gedir. İstəyir ki, qayıdanbaş ət gətirsin. Nəcəf imkan verməyib deyir:

-Sultan məndən canlıdır, həm də cavandır, Gəlsin, yoldaşlı oğruluq edək. Lala ərinə bildirir ki, oğruluğa getməsən, səndə oturan deyirəm. Sultan Lalaya bildirir ki, oğruluğa gedərəm, amma yeznəmlə yox. Sultan bir qayada gizlənir ki, qabanlar yatandan sonra sürüdən bir qoyun oğurlasın. Sultanın qaraltısını alan itlər qayaya tərəf hürüşdülər. Çoban qışqırdı:

- Ayə, kimsən? Ayə, kimsən? Yağışda, suda batıb qırılmışıq. Ölsən də, sənə bir qoyun vermərik.

- Ayə, burda sən qoyunu vermirsən, orada da Lala məni evə qoymur. Bəs, nətər olsun?

Sultanı səsindən tanıyan çoban deyir:

- Aşağı en, a Sultan. Ona iri bir erkək bağışlayır. Özünə də deyir ki, baş-ayağını xaş bişirtdir tezdən sizə qonağam.

Səhər tezdən çoban gəlib Lalaya deyir:

- Ay bacı, bu Sultangil dədə-babadan çörəkçi olublar, çörək bişirib satıblar. Bundan oğru çıxmaz. Elə bu vaxt

inəyin dərisini deşib Nəcəfin boğazına salıb gətirirlər. Çoban Lalaya deyir:

- Bacı, bax, oğru elə olar. Yeznən Nəcəf kimi. İnəyin dərisi də boğazındadır.

Birə min

Belə rəvayət edirlər ki, Cavanşirin gəlini Gülçin dumanlı gündə tənha Talıstan dağlarına tərəf at çapırmış. O, qəflətən çoxsaylı düşmən atlılarının əhatəsinə düşür. Qızı məcbur edirlər ki, bizə bələdçilik edib dumanlı gündə ordumuzu xilas etməlisən. Gülçin deyir:

- Siz dayanmadan arxamca atları dördnala çapın, dumanı yarıb keçək. Qız ürəyində fikirləşir ki, bunlara yol göstərsəm da, düşmən əlində əsir olacağam. Qoy birə min olsun. Biri bizdən öləndə mini də onlardan ölsün.

Gülçin atı cövlana gətirir, düşmən atlıları da onun arxasınca. O, atını sıldırım qayanın üstündən atır. Beləcə, düşmən atlıları özlərini saxlaya bilməyərək qayadan yuvarlanıb məhv olurlar. Gülçin öz canını vətən yolunda fəda etməklə düşmənin bir ordusunu məhv edir.

Lala xaş-xaş əfsanəsi

Əmi qızı ilə əmi oğlu bir-birini sevirlərmiş. Bir günləri, bir dəqiqələri belə bir-birindən ayrı keçmirmiş. Hər dəfə görəndə əmisi qardaşı oğluna deyirmiş:

- Necə də olsa, qızımı sənə verəcəm. Qız yekəlib həddibuluğa çatır.

Əmisi yavaş-yavaş onun ayaqlarını qardaşıgildən kəsir. Hər iki cavan aşıq dərd-qəm içində alışıb yanır. Heç kəsdən onlara imdad olmur. Bir gün qız məktub yazıb çox çətinliklə əmisi oğluna çatdırır. Oğlan məktubu oxuyub görür ki, əmisi qızı onu dağın ətəyindəki görüş yerinə

çağırır. Qız gün-günorta gəlib çıxır vədə yerinə. Oğlan orada onu gözləyirdi. Onlar söhbət etdikləri yerdə qəfildən bir oğlan gəlir. Bu atasının onu nişanlamaq istədiyi oğlan idi. Qız görür ki, araya qan düşəcək. Ona görə əmisi oğlana deyir:

- Əmi oğlu, sən məni bu dərədən aşağı at, qoy mən ölüm, bununla da hər şey bitsin.

Oğlan razı olmur. Qız özünü atmaq istəyəndə oğlan əlini atıb onun saçlarından tutur. Amma, onlar özlərini saxlaya bilmirlər, hər ikisi uçurum dərəyə düşüb tələf olurlar. Araya girən oğlan tutduğu işdən peşiman olub özünü onların dalınca atır. O, da orada ölür. Bunların öldüyü yerdə qırmızı ləçəkləri olan bir çəçək bitir. Ləçəklərin ortasında qara saçaqları olan tellər və bir düyməcik olur. Rəvayətə görə, düyməcik və qırmızı ləçəklər qızla oğlanın, qara tellər isə onları bir-birinə qovuşmağa qoymayan oğlanın qanından yaranır. Bu gülün adına «Lala xaş-xaş» deyirlər. Ən çox uçurumda bitir.

Dağyanusun rəvayəti

Dəmir kişi elinə, obasına, yurduna bağlı adam idi. Yaşadığı və uzun illər rəhbərlik etdiyi Xatınlı sovetliyi ərazisində yerləşən kəndlərin necə yaranmasını, tarixi yer adlarını dərindən və mükəmməl bilirmiş. Onun danışığı maraqlı hadisələrdən birini olduğu kimi oxuculara təqdim edirik.

… Təxminən IV-V əsrlərdə indiki Xatınlı sovetliyi ərazisində yerləşən Xunan şəhərinin kənarında qoyun otaran Dağyanus adlı bir çobanın təsadüfən ayağı sürüşüb çalaya düşür və çaladan ustu yazılı bir cam tapır. Camı götürüb Xunan şəhərinə gəlir. Ancaq, onun üstündə olan yazını heç kim oxuya bilmir. Şəhərin oxumuşlarından biri məsləhət görür ki, camı Gəncəyə aparsan və oranın kahinlərinin başçısına göstərsin. Bu yazını ondan başqa heç

kim oxuya bilməz. Dağyanusun camını kahin oxuyub bərk fikrə gedir. Dağyanus çoban olsa da ağıllı adam idi. Ona görə də kahinin yaxasından yapışıb yalvarmağa başlayır:

- De görüm, niyə fikrə getdin?

Uzun çək-çevirdən sonra kahin camın üstündə yazılanı ona deyir:

- Camın üstündə yazılıb ki, «məni tapan adam bu yerlərin hökmdarı olacaq və böyük söhbət qazanacaq. Bu çalanın altında yerləşən xəzinəni götürüb Xunan şəhərinin tikintisinə və inkişafına sərf edəcək».

Dağyanus deyir:

- Nə olar, mən razı. Ancaq, mən çoban adamam. Hökmdar olandan sonra ağıllı vəzirə ehtiyacım olacaq. O da sən. İndi gedək, görək camda yazılanlar doğrudurmu?

…Onlar bir yerdə Torpaqqalaya gəlirlər. Çalanı qazanda Dağyanusun gözləri kəlləsinə çıxır. Doğrudan da çalanın altı qızıl, ləli-cavahiratla dolu idi. Dağyanus şahid saxlamamağı fikirləşib belindəki, xəncərlə kahini yarı bölür. Sonra çalanın üstünü torpaqlayıb sürünün yanına qayıdır.

… Çox keçmir ki, Xunan şəhərinin hökmdarı ölür. O vaxt bir adət-ənənə hökm sürürdü. Ölən hökmdarın yerinə yeni hökmdar seçərkən quş uçurardılar. Quş kimin çiyninə qonarsa, onu da hökmdar seçərdilər.

Təzə seçiləcək hökmdar üçün quş uçuranda o gəlib Dağyanusun çiyninə qonur. Bundan hirslənən vəzir, vəkil ikinci dəfə bunu təkrar edirlər. Yenə quş Dağyanusun çiyninə qonur.

Şəhər əhli Dağyanusun çoban olduğunu görüb:

- Çobandan bizə nə hökmdar olacaq? – deyə onu meydandan qovurlar.

Üçüncü dəfə quş uçuranda quş gedib yenə Dağyanusun çiyninə qonur. Ələcsız qalan camaat onu özlərinə hökmdar seçirlər. Dağyanus taxta çıxan kimi Torpaqqalada olan ləli-cavahiratı çıxartdırıb sarayın xəzinəsinə gətirtdirir. Dünyada görünməyən, misli-bərabəri olmayan tikinti, abadlıq işlərinə başlayır. Körpülər saldırır,

binalar inşa etdirir. Aclara, yoxsullara əl tutur. Bir sözlə, dünyada ən ədalətli hökmdarlardan biri olur. Onun səsi, sorağı məşriqdən-məqribə çatır. Lakin, bu işlərin ömrü az olur. Sərvət, var-dövlət çoxlarının gözünü örtüb yoldan çıxartdığı kimi, Dağyanusun da yolunu azdırır. Və günlərin birində o da firon kimi özünü yer üzünün Allahı elan edir. Onun bu yersiz hərəkətini görən vəzir və vəkil bu işə qəti etirazını bildirərək saraydan qaçırlar. Qırtım adlı bir it də onlardan ayrılmır. Dağyanus vəzir və vəkilin qaçdığını eşidib dallarınca atlı qoşun salır. Qoşun onları qova-qova gəlib Naxçıvana çıxır. Qoşunun onları tutacağını hiss edən vəzir və vəkil dağlara üz tutur, gəlib Əshabi-Kafa çıxırlar. Mağaranı görüb gizlənmək üçün oraya girirlər. Onlar mağaraya girən kimi hörümçəklər mağaranın ağzını öz torları ilə örtür, göyərçin isə yuva qurub yumurtlayır. Qoşun gəlib Əshabı-Kafa çatanda hökümçək torunu və göyərçin yumurtalarını görüb geri qayıdır.

… Mağarada vəziri, vəkili və Qırtımı bərk yuxu tutur. Bu yatmaqla onlar üç yüz il yatırlar.

… Yuxudan ayılıb ac olduqlarını hiss edən vəzir və vəkil çörək almaq üçün Naxçıvan şəhərinə gəlirlər. Çörək satan pula baxıb gülə-gülə onlara deyir:

- Ay canı sağ olmuşlar, bu pul qədim dövrün-Dağyanusun hökmdar olduğu illərin puludur.

- Necə qədim dövrün, məgər indi Dağyanus hökmdar deyil?

- Yox, Dağyanus öldüyü üç yüz ildən çoxdur.

Onlar kor-peşman geri qayıdırlar. Mağaraya girən kimi vəzirin, vəkilin və Qırtımın ürəkləri partlayıb ölürlər.

Sazın qəbri

Aşıq Dibro (Ona Kamal da deyirlər). Zaqatalanın Tala kəndindən gəlib, Şəmkirli Aşıq Hüseynə şəyird durur. Oxumağı, çalmağı öyrənəndən sonra Aşıq Hüseyn ona saz

bağışlayır. Kamalın öz kəndlərində sevdiyi qız vardı. O, hallı-havalı kəndə gəldi. Kənd camaatı simli çalğı aləti olaraq təmbur görmüşdü, saz görməmişdi. Adamlar yalvardılar. Kamal əlini Qurana bas, tövbə de, bu şeytan əməlini bir da köynəkdən çıxarma, onun səsini bu diyara yayma. Kamala Qurana əl basdırdılar. Sazı kəfənləyib qəbrə qoydular, ona insan kimi baş daşı düzəltdilər, üstünə sazın şəklini çəkdilər.

Gecə eşqi başına vuran Kamal qəbri dağıdıb, sazı oradan çıxarmaq istədi. Qəbir daşına toxunanda elə bil yuxudan ayıldı, əlini Qurana basdığı yadına düşdü, onu vurğun vurdu, bədəninin parası iflic oldu. Kamal ölənəcən saz yanğısı ilə, sevgi yanğısı ilə, ürəkləri yaxan nəğmələr düzüb qoşdu.

Abı-dərdə

Yardımlıda ta qədimlərdən Abı-dərdə adlı qədim bir şəfa bulağı var. Bu bulağın suyunu tuluqlara doldurub Arazın o tayına apararmışlar. O, doxsan doqquz dərdin dərmanıdır.

Bu bulaq necə tapılıb?

Ətraf kəndlərdə tez-tez heç nədən adamlar ölürmüş.

Bir müdrik kişi deiyr:

- Bu yaxında «Abı-dərdə» suyu var. Ay doğan kimi işığı birinci o bulağın gözünə düşür, kim onun suyunu içirsə, səfa tapır.

O vaxtdan kim xəstələnsə, ona Abı-dərdənin suyunu içirirlər. Yardımlıda, onun ətraf bölgələrində Abı-dərdə bulağını tanımayan yoxdur.

Mahnılarda yaşayan məhəbbət

Minayə mənəm

Sənətkar Abdulla Kəlbəcərdə dostlarının birinin evində işləyir. Bir neçə gündən sonra yorğunluğunu almaq üçün küçəyə çıxır. Baxıb görür ki, cavanlar yığılıb söhbət edir. Abdulla yaxınlaşanda görür ki, bu cavanlar gözəllərdən söhbət edirlər. Hərəsi bir gözəl sadalayır. Cavanlardan biri deyir:

- Ayrımlar binəsində Meşəvəlinin qızı Minayədən gözəli yoxdur.

Abdulla belə bir qərara gəlir ki, gədib o gözəli görsün. Kəndə gələndə soruşmaq üçün adam axtarır ki, Meşəvəlinin evini desin. Heç kimi tapmır. Baxır ki, kəndin ortasında bulağın üstündə qızlar suya gəlib. Məcbur olub qızlardan soruşur:

- Ay qızlar, Meşəvəlinin evi haradadır?

Qızın biri cavab verir:

- Qardaş, burada Meşəvəli ikidir, hansını deyirsən?

Abdulla çaşır ki, hansını desin. Məcbur olub deyir:

- Minayənin atası.

Qızlar Minayəni Abdullaya göstərirlər. Abdulla Minayənin gözəlliyinə çaşır.

- Qardaş, niyə dillənmirsən? Adın nədir?

Abdulla qarıxıb adını səhvən Minayə deyir, qızlar gülüşür.

Naqəfil ölkənə düşdü güzarım,
Ləhcədə oxunan min aya mənəm.
Günü-gündən artır dərdim azarım,
Bir dəqiqəsi dönən min ayə mənəm.

Musa Behtullada min ayə vardı,
Quranda oxunan min ayə vardı,

Həcər nalə çəkdi Minayə vardı,
İsmayıl tək gələn Minayə mənəm.

Abdulla çəkməz dostdan ayağı,
Piltə yanar, şölə verər, a yağı,
Ay bimürvət, ay nainsaf ,a yağı,
Bəs niyə demirsən, Minayə mənəm?

Bəlkə, yar gələ, yar gələ

İnəkdağı kəndi Göyçədədir. Kəndin adı ona görə belə adlanıb ki, bu ərazidə çoxlu maral olub, o dövrün insanları maralı öz inəklərinə oxşadıblar. Qaçaq Qurban yaşadığı kəndin adı ilə İnəkdağlı Qurban adlanıb. Əvvəlcə özü dövlət adamı, polis işçisi olan Qurban polis rəisi ilə aralarındakı ciddi münaqişəyə görə onu öldürüb qaçaq düşür. Öz arvadını aparıb qonşu kənddə ata-anasının, qardaşlarının yanına qoyur. Qurbanın arvadı onu çox istəsə də, valideynləri onu əri ilə görüşməyə qoymurlar. 1928-ci ildə İnəkdağlı Qaçaq Qurbanı ölümcül yaralayırlar. Qurban ölüm ayağında canı qədər sevdiyi arvadına sifariş göndərir, onu görüşə çağırır, ümidini üzmür, inanır ki, mütləq sevgilisi gələcəkdir. Amma onu da bilir ki, ölümünə çox az qalıb. Odur ki, son vəsiyyət şerini yazıb anasına verir:

Çıxdım yollar arasına,
Bəlkə, yar gələ, yar gələ!
Qurban qaşın qarasına,
Bəlkə, yar gələ, yar gələ!

Döşəyə verdim özümü,
Qoy deyim axır sözümü.
Ana, bağlama gözümü,
Bəlkə, yar gələ, yar gələ!

Cəlladlar kəsdi üstümü,
Özüm gördüm öz tüstümü,
Görən yar bizdən küsdümü,
Bəlkə, yar gələ. yar gələ!

Döşəyə verdim yanımı,
Halal eylədim qanımı,
Əzrayıl alma canımı,
Bəlkə, yar gələ, yar gələ!

Qurbanam, düşdü güzarım,
Günbəgün artdı azarım,
Torpaqlamayın məzarım,
Bəlkə, yar gələ yar gələ!

Bu bircə gəraylıdan aydın olur ki, Qurbanın gözəl təbi olub, şerində obrazlılıq çox güclüdür. Sözsüz, bu onun birinci və axırıncı şeri olmamışdır.

Yaz, ay Lala

Əslən Şəmkirin Dəllər yörəsindən olan Mayıl XIX əsrin sonu ilə XX əsrin əvvələrində çox məhşur qaçaq olub. Əvvəlcə Qaçaq Mayılın qıçının birini güllə ilə qırdırıblar. Bundan sonra onu tutub zindana salıblar. Müəyyən əhvalatlardan, qoşma və gəraylılardan məlum olur ki, Qaçaq Mayılın, eyni zamanda, bədahətən şer demək təbi da olub. H. Əlizadə vaxtı ilə Qaçaq Mayılın şerlərindən «Aşıqlar» kitabında nümunələr vermişdir. Lakin ən təsirli, yurdu olan şerləri toplanmışdır. Qaçaq Mayılın qəlbinin hıçqırıqları, həyəcanı həyat eşqi ömür – gün yoldaşı Lalaya yazdığı gəraylısında öz əksini tapmışdır. Mayılın «Lala» gəraylısında bir dastanın özəyi yaşayır.

Yenə gəlib bahar fəsli,
Nə gözəldi yaz, ay Lala.
Sinəm dolu qəm dəftəri,
Mən deyim, sən yaz, ay Lala,

Üstə yağsın yaz yağışı,
Viran qalsın belə qışı.
İstərəm vətən görüşü,
Görüm haçan mən, ay Lala.

Mənim başım bəlalıdı,
Cismi–halım yaralıdı.
Niyə bağrın qaralıdı,
Soruşuram mən, ay Lala!

Süsən - sünbül boy verəndə,
Bənövşə boynun əyəndə,
Gözəllər zülfün düyəndə,
Mayıl dərsin sən ay Lala.

Mayıl ağlar yana-yana,
Yandı bağrım döndü qana.
Zalımlar saldı zindana,
Görüşə gəl, tez, ay Lala!

Gəraylıda adın iki dəfə deyilməsi da istəkdən gəlir.

Dördüncü bəndin son misrasında «Mayıl dərsin sən ay Lala» misrasının mənası budur ki, Mayıl səni Lalə kimi dərsin. Həm də bu deyim tərzi şerdə obrazlılığı daha canlı bir şəkildə şəkilləndirib bizə çatdıra bilmişdir. Bəzən şerdə qafiyə sistemi pozulur, lakin məzmun gözəlliyi, deyim tərzi bu vəziyyətdə da ona gözəllik verir.

Qaçaq - igidlik rəmzidir. Siz diqqət yetirin, qaçaqların əksəriyyəti söz demək, qoşma qoşmaq qabiliyyətinə malikdir. Onlar vətənə, sevgilisinə sadiq olur,

belə sadiq ürəklər, qəlblər qızıl piyalə kimi şerlə - sözlə dolu olur. Qaçaq Mayıldan hər nə bilirsiniz, xahiş edirik bizə yazın.

Şair Sədi

Şair Sədi Borçalı çökəkliyindəndir. Onu həbs edirlər, bir müddət zindanda yatandan sonra buraxırlar. Üzü tüklü olur, su deyin yanır. Bulağın başına yığışmış qızlardan su istəyir. Qızlardan biri o birinə işarə edir ki, su verməyin, kafirə oxşayır. Bu söz şair Sədiyə bərk toxunur və aşağıdakı şerini elə oradaca bədahətən söyləyir:

Naz ilə əyləşib qövtü-küyinə,
Xudam verdi sizi boya, gözəllər.
Dayanın bir vəsfi-halım söyləyim,
Bənzəməyin siz təpsayə, gözəllər.

Özüm eşq əhliyəm, eşq dindarıyam,
Ömrüm tamam deyil hələ yarıyam.
Əslim Kosalıdı, su kənarıyam,
Fələk salıb bu dəryaya, gözəllər.

Mənim sizin kimi bir dildarım var,
Gözü yolda qalan ahu-zarlım var.
Yarımı görməyə intizarım var,
Dönüb gözüm yaşı çaya, gözəllər.

Şair Sədiyəm, sizin eldə gəzirəm,
Nahaq yerə şirin canı üzürəm,
Qürbət eldə cəfalara dözürəm,
Bənzəyir qaşınız yaya, gözəllər.

Şair Abdulla

Şair Abdulla Tovuz rayonunun Sarıtala kəndindəndir. Sevdiyi qızı ona vermirlər. aradan on il keçir. Baxır ki, on il bundan əvvəl başqasına gəlin olmuş istəklisi pəncərədən ona tərəf boylanır. Qəlbinin qəmini, kədərini «Hələ» qoşmamı ilə bildirir, yaralı könlünü ovundurur.

Hələ

Aman Allah, mənim könül ülkərim,
O ilk eşqin oduna yanırmış hələ.
Eşqi daşa dəyən nakam aşiqi,
Könül vəfadarı sanırmış hələ.

Baxır pəncərədən dinim, imanım,
O, Məkkəm, Mədinəm, şahım, sultanım.
Baxan gözlərinə canda qurbanım,
O, gözlər dərdimi qanırmış hələ.

Verirlər

Aman Allah, halım olubdu yaman,
Sevgili cananı yada verirlər.
Ülvi məhəbbəti atıb bir yana,
Məzhəbə, şöhrətə, ada verirlər.

Nələr varmış gör aşiqin başında,
Ona rəhmi gəlir dilsiz daşında,
Mən ki, qovrulmuşam eşq ataşında,
Təzədən əzamı oda verirlər.

Ağla, ey ürəyim, ağla, alış, yan,
Sən dözən dəhşətə dözərmi insan?
Axtar Abdullanı hey zaman – zaman,
Ömür yekənini bada verirlər.

Aşıq Hüseyni də ağladır

Aşıq Ələsgərin on iki şəyirdindən ikisi: Əsəd və Nəcəf müstəqil aşıqlıq etmək üçün icazə istəyirlər. Aşıq Ələsgər deyir:

- İndi ki gedirsiniz Şəmşəddin mahalına gedin, Tovuzda Bozalqanlı Hüseyn adlı bir istedadlı sənətkar peyda olub. Mənim salamımı ona yetirin. O, hansı toya göndərsə ora gedin.

Əsədlə, Nəcəf ustadın salamını aşıq Hüseynə yetirirlər. Qonaqlar çörək yeyəndən sonra, aşıq Hüseyn deyir:

- Qabaq-qabağa bir oxuyun.

Cavan aşıqlar sazları bir-birinin üstündə kökləyirlər. Daşkəndli Nəcəfin uca, şümal boyu Hüseyni heyran qoyur. Aşıq Hüseyn deyir:

- Mənim Kürün o tayında, Ceyrancöldə və Eldarda dörd toyum var. Bələdçi verim, gedin, o toyları başa vurun, toy sahibləri sazı özlərinə, özləri sazlarına yaraşan bu sənətkarları onların toyuna göndərdiyi üçün Aşıq Hüseynə təşəkkür salamları göndərdilər. Əsədlə, Nəcəf toylardan yığılmış pulları Aşıq Hüseynin önünə qoyurlar. Hüseyn pulları dörd yerə bölüb və deyir:

- Bunun biri ustadınız Ələsgərin, biri mənim, ikisi də sizin.

Nəcəf Hüseynin çox xoşuna gəlir. Ondan soruşur:

- Nəcəf oğlun varmı?

Nəcəf deyir:

- Üzr istəyirəm, ustad, arvadı yüklü qoyub gəlmişəm.

Hüseyn deyir:

- Əgər oğlun olsa, kirvəsi mənəm.

Bir ay keçmiş Hüseynə Göyçədən xəbər çatır ki, Nəcəfin oğlu oldu. Az sonra ermənilər aşıq Nəcəfi tutub bir mağaraya aparırlar, onun belinə qaynamış samovarı bağlayırlar. Nəcəf ürəyinə istilik keçənə qədər yanıqlı-yanıqlı oxuyur, əbədi susur və gözlərini yumur. Bu kədərli xəbər Hüseynə də çatır, onu ağladır. Aşıq Hüseyn Nəcəfin faciəsini ölənə qədər zehnindən silə bilmir.

Şuxluq edirəm

Məlumdur ki, meşənin sultanı, şahı zolaqlı pələng hesab olunur. Bir gün qamışlıqdan qeyri-adi bir heyvan səsi gəldi. Bütün heyvanlar qorxuya düşüb qaçmağa başladılar. Pələng də qaçmağa üz qoydu. Birdən pələng öz-özünə dedi:

- Mən ki qaçsam, heç kəs mənə tabe olmayacaq. Bir də məndən güclü hansı heyvan ola bilər ki?

Canını dişinə tutub qamışlığa girdi. Gördü ki, bu qəribə səsi çıxaran bir tülküdür. Pələng soruşdu:

-Tülkü bu nə hərəkətdir?

Tülkü dedi:

- Ağa, şuxluq edirəm.

Pələng tülkünün boğazından tutub yerə çırpdı və dedi:

- Mən yolları da batırmışam. Sən hələ bir şuxluq edirsən.

Gülüş doğuran əhvalatlar

Toy mağarına da gəlmərəm

Yemə-içmə məclisində orta yaşlı bir kişiyə deyirlər ki, dostunun ölümündən xəbərin varmı, bu gün onun yeddisidi. O, tez məclisdən çıxıb tələsik dostugilin küçəsinə yollanır. Eşidənlərdən uzaq, həmin küçədə iki mağar varmış. Kişi soruşmadan bu mağarın birinə daxil olur. Ha boylanırsa burada tanış bir sifətə rast gəlmir. O, mağardan çıxarkən ölü sahiblərinə başsağlığı verir, sonra öz yaxınlığını bildirmək üçün deyir:

- Eh, bu rəhmətliklə nə qədər yaxın olmuşam, bulaqların başında nə keflər çəkmişəm.

İki oğlan bunun boğazından yapışıb boğmağa başlayırlar və deyirlər:

- Ayə, bizim atamız harda ölmüşdü ki, sən anamızla bulaqların başında kef çəkirdin.

Kişi başa düşür ki, mağarı səhv salıb. O, deyir:

- Ə, bu Cabbarın mağarı deyil?

Onu bayıra çıxarıb:

- Cabbarın mağarı odur - deyirlər.

Kişi deyir:

- Mən heç o mağara da getmirəm. Bundan sonra heç sizin küçəyə toy mağarına da gəlmərəm.

O, televizora baxan deyil

Tülkü baxdı ki, bir sakit guşədə xoruz budaqda əyləşib. Tülkü dedi:

- Xoruz xəbərin oldu, bu axşam televizorda dedilər ki, dünya sülh şurası qərar qəbul edib ki, bir canlı başqa canlıya toxunmasın. Düş aşağı, söhbət edək.

Elə bu vaxt pələng gəlib çıxdı. Bunu görən tülkü qaçmağa başladı. Xoruz qışqırdı:

- Tülkü, bəs deyirdin bir qərar var – bir canlı başqa canlıya toxunmasın.

Tülkü dedi:

- Ay rəhmətliyin balası, pələng televizora baxandı? Qərar nədi biləndi? Əlinə düşən kimi boğazımı üzəcək.

Saxta yuxu

Şəhərimizdə bir zərgərin iki oğlu olur. Ata oğlanları üçün böyük qızıl sərvəti ilə yanaşı çox geniş həyəti olan ev qoyub gedir. Bir gün böyük qardaş yuxudan durub ağlamağa başlayır. Anası ağlamağının səbəbini soruşur. Oğlan deyir:

- Yuxuda atamı gördüm, məni yaman danladı, dedi ki, o qədər sərvət qoyub getmişəm, heç olmasa sən də başqa yerdə bir bina ucalt, desinlər oddan od törəyib.

Anası oğlana pul verdi. Oğlan evlərindən xeyli aralıda yaraşıqlı bir bina ucaltdı. Aradan bir neçə il keçmişdi anası da dünyasını dəyişdi. Bir gün böyük qardaş səhər-səhər ağlaya-ağlaya ata yurduna gəldi və kiçik qardaşa bildirdi ki, anamızı yuxuda gördüm. Məni danladı. Dedi ki, dünən qardaşının yanında mən vardım, indi isə o təkdi. Köç qardaşının yanına, onu tək qoyma. Qardaşlar ata mülkünün həyətini tən böldülər. Böyük qardaş təzə tikdirdiyi evi, satdı, mülkün pulunun yarısı ilə böyük cəh-cəlal qurdu.

Bir gün kiçik qardaş öz arvadı ilə birlikdə böyük qardaşın evinə qonaq gəldi və soruşdu:

- Bəs qardaş, atamız-anamız yuxularında heç sənə deməmişdilər ki, satdığın mülkün pulundan qardaşına da ver?

Böyük qardaş həyasızcasına gülə-gülə dedi:

- Ayə, nə ata, nə ana yuxusu. Bunların hamısını özümdən uydurmuşam.

Bax, belə dünyanın var, tamah ucundan iki qardaşı düşmən etdi.

Olubdu

Nadir şah var-dövlətini, yəni qoyun sürüsünü, naxırını və ilxısını Sulduz mahalına göndərir. Şərt qoyur ki, mənim malım, qoyunum, atım qırılarsa, o mahalı qılıncdan keçirəcəm, ilk bəd xəbər gətirəni isə boğazından asdıracam. Şahın ən çox istədiyi Qaraqeyqir atı idi. Tapşırmışdır ki, ona xüsüsi xidmət edin. Qarabeyqiri o qədər əzizlədilər ki, o hamısından tez öldü. İl o qədər bəd gəldi ki, qarda, tufanda şahın var-dövləti tamam batdı. Bəhram (Bayram) o mahalın sevimli aşığı idi. Dedi:

- Bir mahala çıxım, görüm nə var.

Baxdı ki, qarısı da, qocası da, oğlu da, qızı da tamam başdan-başa qara geyinibdir. Sulduzlu Aşıq Bəhram adamlara təskinlik verdi ki, Nadir şahın hüzüruna mən gedərəm. Nadir şah aşığı görən kimi sevindi. Nadir soruşdu:

- Hardan gəlirsən?

Aşıq cavab verdi:

- Sulduz mahalından.

Nadir şah sevindi ki, bu iki qat gözəl oldu. Soruşdu:

- Mənim malımdan, dövlətimdən xəbərin oldumu?

- Şahım, onu dillə demək olmaz, ancaq sazın köməyi ilə demək olar:

Başına döndüyüm, ədalət şahım,
Bu il aran zəmin yen qar olubdu.
Qar suyu içməkdən qırıldı uşaq,
Çay-çeşmələr dönüb mismar olubdu.

Böyük bir qar yığdı, qaşdan qabaqdan,
Çörəklər qurtardı təknə-tabaxdan,
Öküzlərin gönün aldıq davaxdan,
Camışlar sabaha ilqar olubdu.

Hər gündə kəsirdik beşin, on beşin,
Alırdıq dərisin, artırdıq leşin,
Allah rast salıbdı, o kəlbin işin,
Yüz leşə bir köpək sərdar olubdu.

Yoncanı əkmişdik dəvə boyunca,
Dəvələr yemədi qarnı doyunca,
Əlim qabar olub, gönün soyunca,
Nər mayalar çöldə bimar olubdu.

Dedim sözlərimi mən də ha dağa,
Aşıqlar dilinə olmaz qadağa,
Min mərkəbdi şah başına sadağa,
Kəm hünər olduğuna dördü qalıbdı.

Deyim gör neçədi atınnan, qatır,
Gördüyün köhlənlər yan-yana yatır.
Kimisi şirələngdi, kimisi qotur,
Qarabeyqir damda murdar olubdu.

Aşıqlar eyləyər söhbəti-dəmi,
Söylə bu dərdlərin varmı əncamı,
Sulduzlu Bəhramam, çəkmərəm qəmi,
Gözəl Şahım mənə qəmxar olubdu.

Qalmadı

Başına döndüyüm, ədalət şahım,
Gördüyün sürüdən biri qalmadı.

Mürşüdü kamilim, ey qibləgahım,
O zəngin sürüdən diri qalmadı.

Sən bizə verdiyin iki yüz dəvən,
Yollar qırağında qurudu gəvən,
İl quraqlıqoldu, qırıldı dəvən,
İki yüz dəvədən biri qalmadı.

Sən bizə vermişdin yüz əlli camış,
Yağmadı yağış, bitmədi qamış,
Daha nə mən dinim, nə da sən danış,
Qırıldı camışlar, diri qalmadı.

Sən bizə vermişdin üçcə yüz qoyun,
Qoyunlar başımıza gətirdi oyun,
Heç macal tapmadım dərisini soyum,
O sürü qoyundan biri qalmadı.

Sən bizə vermişdin yüz səksən inək,
Yuxarıdan getməyək, aşağı enək,
Daha nə danışaq, daha nə dinək,
İnəklər da öldü diri qalmadı.

Sən bizə vermişdin yüz səksən qatır,
Gördüyün köhlənlər yan-yana yatır,
Nə yağış yağır, nə da ot bitir,
Acından qıvrıldı diri qalmadı.

Sən bizə vermişdin altmış beş eşşək,
Yaxşıynan yamanı gəl indi seçək,
Əlavə qırıldı yanında köşək,
O zəngin sürüdən biri qalmadı.

Sulduzlu Bəhramam, söylərəm sizə,
Kalları dərədən sürüdük düzə,

Əti sizə olsun, gönləri bizə,
O nəhəng kallardan biri qalmadı.

Sulduzlu Bəhramam, yoxdur yalanım,
Şah başına dönüm, dolanım.
Sənə qurbandır olub qalanım,
Hamısını dedim, yeri qalmadı.

Çini-Macından

Bir atlı qarışqa qaça-qaça gəlirdi. Soruşdular:
- A qardaş, hardan gəlirsən?
Yekəxana cavab verdi:
- Çini-Macından.
Gülə-gülə dedilər:
- Bəllidir qır-qıçından.

Çəpərimizdə tülkü balalayıb

Uşaq qaça-qaça gəlib atasına deyir ki, çəpərimizdə tülkü balalayıb.

Atası deyir:

- Kefini pozma oğul, bu bizim tulanın fərasətindəndir.

Aşıq Şenlik

Aşıq Şenlik Türkiyənin Çıldır elinin Suxara kəndindəndir, ustad aşıqdır. Günlərin bir günü evlərinə bir qonaq gəlir. Babasına him eyləyir ki, baba, bu mənim istəkli qonağımdır. Buna bir qaz kəsək. Babası razı olmur. Deyir:

- Baba, yaxşı hind toyuğunun birini kəsək.

Yenə razı olmur. Deyir:

- Baba, sarı beçənin birini kəsək.

Yenə razı olmur. Qonaq axşam qalıb sabah gedir. Bundan beş-altı ay keçir. Evlərinin üst tərəfi dağlı-təpəli yer idi. Yaz vaxtı güclü yağış yağır, sel damlarını gəlib dağıdır. Yüz əlli toyuq-cücədən bir dənəsi da salamat qalmır. Hamısını sel aparır. Baba deyir:

- Oğul bu işə nə deyirsən?

- Eh baba, qulaq as, gör nə deyirəm.

Ay baba

Gəlin baxaq əlvan quşlar halına
Fələk səltənətdən salıb, ay baba.
Dostlar görsə, bu günümüzə heyflər,
Düşmənlər üstümüzə gülüb, ay baba.

Babası dedi:

- Oğul, necə-necə?

And içirdin sarı qazın başına,
Çil fərəylə çox idin aşına,
Qırx ördəyi bir divarın daşına,
Fələk qəzəblə çalıb, ay baba.

Hind toyuğun çox oldu, qədrin bilmədin,
Cəfasını çəkdin, səfasını sürmədin.
Yüz əlli fərədən birini qurban vermədin,
O borclar boynunda qalıb, ay baba.

İndi quşlarımıza dastan bağlayaq,
Yadımıza düşdükcə hərdən ağlayaq,
Şenlik deyər, yığılaq yasın saxlayaq,
Xəsisliyini indi bilib, ay baba.

Xoruz

Dincəlin ay qonşular,
Yediniz mərcan xoruzu,
Gözləri qan qırmızı,
Tükləri əlvan xoruzu.
Döyüşə hazırlanmış idi,
İngilis, Alman xoruzu.
Arvada derdim həmişə,
Saxla evdə pünhan xoruzu.
Dincəlin ay qonşular,
Xoruzu oruc tutanlar yedilər,
O gün orucluq günüydü,
Etdilər bidar yedilər,
Ağzında ağı dadsın,
Olsun zəhirmar yedilər.
Tülkü yox, çaqqal yox,
Apara tardan xoruzu.

Səhər tezdən banlayanda,
Mənə xoş gəlirdi səsi,
Poyez kimi fit verirdi,
Qığı-qığı zümzüməsi.
Banlamağa var həvəsi,
Var idi kəskin nəfəsi,
İnci, mərcana bənzərdi,
Gözlərinin hər dənəsi.
Arvad evdə bəsləyərdi,
Saxlardı pünhan xoruzu.

Siz də bilin ay camaat,
Belə iş arvad işidi,
Əgər arvad da olmasa,
Arvada bənzər kişidi.
Bəlkədə məclisdədi,

Mən desəm özü eşidir.
Mən dedim kafir işidi,
Yeyib müsəlman xoruzu.

Dincəlin ay qonşular,
Fermanın taxtasıdır.
Kooperativi də yardınız,
Ölkəyə sığası deyil,
Kərəmin yağ küpəsi,
Məmişin buğdasıdır,
Daha hansı birini deyim,
Sözüm heç qurtarası deyil,
Yalvarın mən aşığa,
Eyləyim dastan xoruzu.
Aşıq Aqil saz götürər,
Çıxardar yasdan xoruzu.
Arvad yaxşı bəsləmişdi,
Bir belə meydan xoruzu.

Qarışqa kababı

Bir hökmdar vəzirə deyir:

- Erkək qarışqanın kababını çəkdirib gətirməsən, səni vəzifədən qovacağam. Vəzir elin bilicilərinə müraciət edir. Bir nəfər çoxbilmiş deyir ki, "Mən bunu təşkil edərəm, qəm eləmə".

El bilicisi böyük bir qarışqa topasını dağıdır, iri bir qarışqa tutub şüşəyə salır. Onu hökmdarın yanına aparırlar. Hökmdar deyir:

- Bunun qarışqa olduğunu bildim. Bəs erkək qarışqa olduğunu siz nədən bildiniz?

- Hörmətli hökmdar, biz bu qarışqaya deyəndə ki, şah erkək qarışqa ətindən kabab istəyir, onda bu qarışqa dillənib hirslə dedi ki, "Hökmdar kabab əvəzinə mənim… "Onun bu söyüncündən başa düşdük ki, erkək qarışqadır".

Koroğlu deyimləri

Xoca Əziz

Bütövlükdə Koroğlu dastanından əlavə aşıqlarda və ayrı-ayrı sinədəftər insanların yaddaşında Koroğlu haqqında kiçik-kiçik, lakin çox mənalı xatirələr yaşayır. Ola bilsin ki, «Koroğlu» qollarının hər hansındasa müəyyən dəyişikliklərə münasibət bildirilmiş, fərqli şəkildə şerlər də nəşr olunmuşdur. Bizim üçün ən maraqlı olan odur ki, aşıqlar Koroğlu ilə bağlı hansı hadisələri və ya şerləri dəftərdə, varaqda yox məhz, sinəsində yaşadır. Bu folklorumuzun canlı və hərəkətli olan, xalqın qəlbini ovunduran hissəsidir.

Koroğlunun çox yaxın dostu olan Xoca Əziz iyirmi ildi ki, Koroğlunu görmürdü. Sovqat götürüb Çənlibelə üz tutdu.

Çənlibeldə at kişnərtisi, dəlilərin nərəsi eşidilmirdi. Çənlibeldə bir sükut var idi.

Bu Xoca Əzizi qəmə qərq etdi.

Yaz idi. Bənövşələr, nərgizlər bir-birinə göz vururdu. Lakin bu gözəllikdə bir qəmginlik var idi.

Xoca Əziz gəlib bir qapını döydü. Koroğlu qapını arxadan bağlamışdı. Koroğlu dedi:

- Səsini çıxar görüm sən kimsən?

Xoca Əziz səsini çıxaran kimi, Koroğlu dedi:

- Əski dostum, Xoca Əziz, xoş gəldin. Bir-biri ilə hal-əhval tutdular. Nigarın gözlərindən yaş yaz yağışı kimi tökülürdü. Koroğlu dedi:

- Xoca Əziz, dəlilər başımdan dağılıb. Eyvaz Təbrizdədir. Arxasınca get. Əgər onu Çənlibelə gətirsən, Eyvaz dəliləri yenidən Çənlibelə qaytarar.

Koroğlunun qəlbi qübarlandı. Aşağıdakı gəraylını söylədi:

Canım-gözüm, Xoca Əziz,
Var get, Təbrizə, Təbrizə.
Bir şad xəbər yetir bizə,
Var get, Təbrizə, Təbrizə.

Nişanə götür sazımı,
Oxuyum gör avazımı.
Tap gətir Xan Eyvazımı,
Var get, Təbrizə, Təbrizə.

Koroğlu ölməyib, sağdı,
Oğulluqda üzü ağdı,
Evdə fələyə dustaqdı,
Var get, Təbrizə, Təbrizə.

Məlumdur ki, türksayağı Koroğlu şerləri xalq arasında yaşasa da, aşıqlar bunu belə bilsə də, qorxudan dilə gətirə bilmirdilər.

Müstəqillik «Koroğlu» şerlərinə də azadlıq bəxş etdi. Aşıqlar «Koroğlu» qoşmalarında və gəraylılarında mövcud olan türk ləhcəli ifadələri olduğu kimi işlətməyə başladılar. Koroğlunun söylədiyi «Gəliyor» gəraylısı nə qədər də təbii səslənir.

Gözün aydın, Nigar xanım,
Baharımız, yaz gəliyor.
Soyun qara, gey qırmızı,
Köməyə Eyvaz gəliyor.

Qəmdən titrəyirdi sərim,
Çənlibel durağım, yarım,
Gəldi seçmə dəlilərim,
Hayıf kömək az gəliyor.

Koroğluyam oda yandım,
Bu dünyanı yaylaq sandım.

Qorxma, Nigar, cahıllandım,
Köməyə Eyvaz gəliyor.

Qocaman aşıq Məhəmməd Göyçəliyə görə Koroğlu Muradbəyli mahalının Taxta kəndindəndir. Xoca Əziz də Taxta kəndindəndir.

Aşıq Məhəmmədə görə Koroğlu Həzrəti Əli ilə bir əsrdə yaşamış, hətta Həzrəti Əli ilə qarşılaşanda, ona hərbə-zorba söyləmişdi.

Tatsan, kürdsən, nə millətsən,
En atından, əcəm oğlu.
Gözlərindən məzaratsan,
En atından, əcəm oğlu.

Dağıdaram sər huşunu,
Axıdaram göz yaşını,
Tutub kəsərəm başını,
En atından, əcəm oğlu.

Qoç Koroğlu mənəm-mənəm,
Çətin dediyimdən dönəm.
Sənin zatına düşmənəm,
En atından, əcəm oğlu.

Həzrəti Əli dedi:

- Ə, Koroğlu, məni tanımadın?
- Sən, kimsən?
- Mən cənabi-Əliyəm.

Koroğlu qılıncını, qalxanını atıb, Həzrəti Əliyə sarıldı. Xeyli söhbətdən sonra öpüşüb ayrıldılar.

Aşıq Məhəmmədə görə, Koroğlunun Gizir oğlu Mustafa bəylə bağlı şerlərində də ifadə dəyişikliyinə çox yer verilir. Məsələn: Koroğlunun «Mustafa bəy» gəraylısı aşağıdakı şəkildə başlanır.

Bir xışmnan gəldi keçdi,
Giziroğlu Mustafa bəy.
Xışmı dağı dəldi, keçdi,
Giziroğlu Mustafa bəy.

Bir atadan beş olaydım,
Beşindən on beş olaydım.
Mən onnan qardaş olaydım,
Giziroğlu Mustafa bəy.

Səni

(Koroğlu Telli xanıma)

Yeri, get, paşanın qızı,
Gəlincə gözlərəm səni.
Səhər-səhər dan ulduzu,
Doğunca gözlərəm səni.

Ağ çiçəklər açar yarpaq,
Kəfən tikərlər ağappaq,
Ala gözə qara torpaq
Dolunca gözlərəm səni.

Qəbrimi qazalar qatı,
Üstə bəzərlər Qıratı,
Ay qız, məhşər qiyaməti
Qopunca gözlərəm səni.

Qəbrimi qazalar dərin,
Suyunu tökələr sərin.
Qız, sənin gözəl əllərin,
Solunca gözlərəm səni.

Qəbrimi qazalar ası,
Üstündə tutalar yası.

Aşiqin şirin butası,
Göründə gözlərəm səni.

Qəbrimi qazalar daşdan,
Suyunu tökələr başdan.
Mən dönmərəm qələm qaşdan,
Doyunca gözlərəm səni.

Ərisin dağların qarı,
Tökülsün çaylara sarı,
Koroğlunun gözəl yarı,
Gəlincə gözlərəm səni,
Ölüncə gözlərəm səni.

Koroğlu ilə çoban

Günlərin bir günü Koroğlu Qıratı minib, üz qoydu çölə. Az getdi, çox getdi, bir dağın ətəyinə yetişdi. Bir çoban o dağın ətəyində qoyun otarırdı. Qıratı əyləyib, çobanı səslədi. Çoban yaxına gəldi. Koroğlu dedi:

- Ey çoban qardaş, o sürüdən bir otuz dənə qoyun ayır, gətir, mənə lazımdır, aparacağam.

Çoban dedi:

- Necə yəni, mənə lazımdır. Haqsız, pulsuz aparırsan?

Koroğlu dedi:

- Bəli.

Çoban dedi:

- Oğlan, sən kimsən mənim qoyunumu haqsız, parasız aparırsan?

Koroğlu dedi:

- Mən bəyləri, paşaları taxtından salan qoç Koroğluyam.

Çoban dedi:

- Yalan danışırsan. Sən Koroğlu deyilsən.

Koroğlu dedi:

- Çoban, bu mənim Qıratım, bu Misri qılıncım, - qolunu göstəridi – bu da mənim bazubəndim.

Çoban xeyli baxıb dedi:

- Oğlan, sənin Koroğlu olduğuna inandım. Amma indi sən Koroğlu sözü danışmadın. Koroğlu mərd adamdır, belə iş eləməz. Onun işi şahlarla, paşalarla, xanlarla, bəylərlədir.

Koroğlu dedi:

- Halal olsun çoban qardaş, yaxşı tanımısan. Mən mərdəm, namərd sözü dedim, çünki səni sınayırdım.

Dastanlardan parçalar

Səlminaz və Kərəm

Nər insan həyatı bir dastandı desək, yanılmarıq. Lakin bu dastanlar cürbəcür olur. Bir janr olaraq tanıdığımız dastan məhəbbət dastanıdırsa, ailə-məişət dastanıdırsa, üç hissədən ibarət olur. Məhəbbət və ailə-məişət dastanlarının əvvəlində üç ustadnamə, sonra dastanın yurdutəhkiyə hissəsi, sonda isə dastan xoşbəxtliklə tamamlanırsa, duvaqqapma, yox faciə ilə bitirsə, cahannamə verilir.

Qəhrəmanlıq dastanlarının əvvəlində vücudnamə (əzəl-axır), yurdu, sonda cahannamə verilir.

Bu ənənəvi dastanlardan sonra, çoxsayda kiçik süjetli, lakin çox maraqlı, təkamül dövrünü yaşayan, dastandan çox hekayəti, bədii tərzdə qurulmuş əhvalatı xatırladan nümunələrdə var ki, bunların əvvəlində ustadnamə, vücudnamə, sonunda da duvaqqapma və ya cahannamə olmur. Biz bunları şərti olaraq, «ustadnaməsiz dastanlar» adlandırırıq. «Arzu Qəmbər», «Yaxşı Yaman» bayatılı dastanlarıyla bunların az-çox oxşarlıqları var. Lakin bu «ustadnaməsiz dastanlar» variantsız olurlar.

Nədənsə toplayıcılar «Səlminaz və Kərəm»lə bağlı bu tipli dastanı «Əsli Kərəm» dastanının daxilində, süjetlə əlaqəsi olmadan vermişlər.

Məlumdur ki, «Əmrah» dastanını Ərzurumlu Aşıq Əmrah yaratmışdır. «Əmrah» dastanı Orta Asiyada və Azərbaycanda geniş yayılmış maraqlı bir dastandır. Aşıq Əmrah çox erkən vəfat etmişdir. Türkiyədən axan Arazın bir qolu «Əmrahın sazı axan çay» və ya sadəcə olaraq «Əmrah çayı» adlanır. Belə deyirlər ki, hər yağış yağandan sonra çaydan səs gəlir:

«Əmrah, Əmrah!»

Məhz Əmrahın ölümündən sonra «Səlminaz və Kərəm» dastanı yaranmışdır. Bu qısa süjetli, ustadnaməsiz

dastandır. Əmrahın sevgilisi Səlminaz ömrünün son parçasını məzarıstanda keçirmiş və Kərəmə də orada rast gəlmişdir.

Kərəm Ərzurum məzarlığında qənirsiz, qaralar geymiş bir gözəllə qarşılaşır. O, bu qeyri-adi, əsrarlı vəziyyəti öyrənməyə çalışır. Kərəm şerlə-sözlə soruşur:

Qaşların haramı, gözlərin yağı,
Ahu gözlüm, nə ararsan məzarı?
Aşiqi bənd etdi zülflərin tağı,
Ahu gözlüm, nə ararsan məzarı?

Səlminaz:

Aşıq, gəl soruşma, ərzi-halımı,
Yar eşqidi, mən gəzirəm məzarı
Fələk soldurubdu yaşıl-alımı,
Yar eşqidi, mən gəzirəm məzarı.

Kərəm:

Qaralar geymisən, yaslıdır başın,
Qüdrətdən çəkilmiş, qələmdi qaşın.
Ölən atandırmı, yoxsa qardaşın?
Ahu gözlüm, nə ararsan məzarı?

Səlminaz:

Qaralar geymişəm, yaslıdır başım,
Qüdrətdən çəkilmiş, qələmdi qaşım.
Ölən nə atamdı, nə də qardaşım,
Yar eşqidi, mən gəzirəm məzarı.

Kərəm:

Nə müddətdi sən buraya gələli?
Ağlayıban, sızlayıban, güləli?
Neçə ildi sənin yarın öləli?
Ahu gözlüm, nə ararsan məzarı?

Səlminaz:

Bir müddətdi mən buraya gələli,
Ağlayıban, sızlayıban, güləli
Yeddi ildi mənim yarım öləli,
Yar eşqidi, mən gəzirəm məzarı.

Kərəm:

Duman gəlib, dağlarınız bürümüş,
Fərman olmuş, ağır ellər yerimiş.
Yeddi il oldusa, çoxdan çürümüş,
Ahu gözlüm, nə ararsan məzarı?

Səlminaz:

Duman gəlib dağımızı bürüməz,
Fərman olsa, ağır ellər yeriməz,
Əmanətdi, yeddi ildə çürüməz,
Yar eşqidi, mən gəzirəm məzarı.

Kərəm:

Kəm baxdı dostuna qanlı haramı,
Vurdun ürəyimə dərdi-vərəmi,
Xan Əslindən betər etdin Kərəmi,
Ahu gözlüm, nə ararsan məzarı?

Səlminaz:

Gəl, yetər ağlatma bu Səlminazı,
Vurma ürəyimə atəşi-közü,
Açım məzarını, görünsün üzü,
Yar eşqidi, mən gəzirəm məzarı.

Rəvayətə görə Səlminaz daş sandığın qapağını qaldırır, məzarda cavan, telli bir oğlanın sazı da yanında yatdığı görünür. Bu məhəbbətin, sevginin ölməzliyidir.

lətifələr

Dayçanın toyu

Hıçqırıqlı Məhəmməd yanı dayçalı atının axşamdan gəlmədiyini bilib narahat olur və dağlara tərəf üz tutur. Gəlib görür ki, dayçanı canavar yeyib, leşin üstünə çoxlu qarğa-quzğun qonub. Hıçqırıqlı Məhəmməd dəfli-nağaralı bir dəstə zurnaçı götürür, öz dayçasına tərəf çaldıra-çaldıra gedir. Soruşurlar:

- Ay Məhəmməd əmi, bu nə toydur?

Deyir:

- Ay eviniz yıxılsın, qarğa-quzğun dayçanın toyuna gəlir. Kənd hələ xəbərsizdi.

Zurnaçı çaldıqca, nağaranı vurduqca qarğa-quzğun göyə qalxıb havada səkir, ikibir, üçbir leşin üstə enir. Dayçanın başında (ətrafında) böyük izdiham görən Hıçqırıqlı Məhəmməd deyir:

- Di gedin kəndə mənim dayçamın toyundan danışın.

At və ovçu

Hıçqıraqlı Məhəmməd atı örüşə ötürən zaman, kənd camaatı görür ki, at ciflidir, üstündə də əlində tüfəng bir ovçu müqəvvası var. Bu mənzərəni görən adamlar gülüşə-gülüşə Məhəmməd kişiyə deyirlər:

- A kişi, bu da son pəstahandır?

-Ayə, sizin kimilərin sözünə baxsam, çox şey itirərəm. Canavar atın belindəki «ovçunu», onun əlindəki tüfəngi görəndə ilim-ilim itəcək, heç dönüb mənim atıma da baxmayacaq.

Kəllə

Qarğa Məcidin lətifələri də belə əyaniliklə bağlıdır.

Axşam kolxoz iclası çox tənqidi keçir. Qarğa Məcid oğrulara baxıb atları xatırlayır. O, bir neçə gün kəndi onun ətrafını gəzib heyvan kəlləsi yığır. Kəndlərində gecə birinin çöl qapısının başına at kəlləsi, digərinə eşşək, ya da it kəlləsi asır. Sabah kəndə çaxnaşma düşür. Hamı fikirləşir ki, bunu ancaq Qarğa Məcid edə bilər. Məcidin yanına gəlirlər və bildirirlər ki, düşmənçilik çəkməyəcəklər, təkcə düzünü desin. Məcid deyir ki, kimin atasını yuxuda necə görmüşəmsə, onun bənzəri kəlləni qapısından asmışam.

«Quran» ağlayar…

Yusif adlı bir nəfər Qədirə deyir:

- Mən «Quran»ı elə oxuyuram ki, «Quran» zar-zar ağlayır.

Qədir deyir:

- Hə, Yusif, «Quran» ağlayar. «Quran» deyir ki, gör mən nə günə qalmışam, məni Yusif də oxuyur.

Amma siz…

Qədir ailəsinə daxil olanda ehtiram əlaməti olaraq hamı ayağa durardı. Bir dəfə onun evə girdiyindən heç kim xəbər tutmur. Qədir deyir:

- Necə olur ki, mən tövləyə girəndə heyvanlar ayağa durur, amma siz…

Payına bu düşür

Qədir Qəbələnin Xırxatalı kəndində traktorçu olub. Kəndlilərindən biri deyir ki, traktorla işim var.

Qədir deyir:

- Kolxoz işinə gedirəm.

Onda kolxozçu qışqıra-qışqıra deyir:

- Bu traktordan mənim də payım var.

Qədir traktorun sandıqcasını açıb bir açar götürüb onun üstünə atır.

- Sənin payına bir açar düşür.

Ya maqnit

Övliya ocağının yanında traktorun mühərriki dayanır. Qədir nə qədər çalışırsa işə düşmür.

Qədirin yanındakı kolxozçu deyir:

- Ya Övliya, dua edirəm, traktoru işə sal.

Qədir deyir:

- Ayə, Övliyanın sağlığında texnika olmayıb, o nə bilir texnika nədir? Sən de ki, ya Maqnit, cərəyan ver.

Əvəzini versin

Qədirin qoyunu ölür. Gələnlər təsəlli verir:

- Qədir Allah əvəzini versin.

Qədir deyir:

- Zalım uşağı, Allahın ferması var ki, əvəzini də versin?

Acından ölərsən

Qədirlə başqa traktorçu söhbət edir. Traktorçu deyir:

- Qədir, biz işləyəni bizə versələr, xan kimi dolanarıq.

Qədir deyir:

- Mən işləyəni mənə versələr, xan kimi dolanaram, ancaq sən işləyəni sənə versələr, acından ölərsən.

Kimdə günah çoxdu

Bayram namazı vaxtı Qədir namaza gecikir. Yaxınlıqdakı gilas ağacına çıxıb gilas yeyir. Molla namaz qılarkən Qədiri görüb deyir:

- Camaat namaz qılır, sən gilas yeyirsən?

Qədir deyir:

-Mən gilas yeyə-yeyə fikrim namazda idi, ancaq sən namaz qıla-qıla fikrin gilasda idi İndi de görək, kimdə günah daha çoxdur?

Mədə ağrısı

Qədirin mədəsi ağrıyır. Bir müddət sonra o, başına gələni nağıl edir:

- Mədəm ağrıyırdı. Mən yedim, o ağrıdı, mən yedim, o ağrıdı, mən yedim, birdən o kəsdi. Sən demə, yemək istəyirmiş.

Bütün Azərbaycan tanıyır

Molla Alcanı radioda möhkəm tənqid edirlər. Ona deyirlər ki, səni bütün ölkədə biabır etdilər. Alcan kefini pozmadan deyir:

- Çox gözəl, əvvəl məni təkcə Qəbələ tanıyırdı, indi isə bütün Azərbaycan tanıdı.

Öz inəklərimə yazardım

Molla Alcana bir nəfər 3 manat verir və deyir:

- Ay molla, mənim inəklərimə dua yaz, südü çox olsun.

- Molla duanı yazıb tapşırır ki, inəyinin sol buynuzuna bağla.

O, getdikdən sonra Molla Alcan üzünü adamlara tutub deyir:

- Rəhmətliyin oğlu, duayla süd artsaydı, öz inəklərimə yazardım, südləri çay kimi axardı.

Niyə çatdırmasın

Alcana bir kəndli deyir:

- Alcan, tək canına Əzrail bu qədər adamın canını necə alır, necə çatdıra bilir?

- Niyə çatdırmasın ayə? Bir düyməni basmaqla Mingəçevir bir dünyanı işıqlandırır.

Qaya üstə ot tayası

Daşkəsənin Əmirvar kəndindən olan Dəvral Ələsgər çox baməzə adam idi. O, yayda otu biçər, tayanı ayrı-ayrı qayaların başında qurardı. Qar yağıb hər yanı bağlayanda, ot tayalarını qonşu kəndlərin adamlarına satardı. Hər dəfə də bir dava çıxardı, çünki, qar altında qalmış tayanı və qayanı bir yerdə satardı. İri ot tayasını alan adam iki-üç atı yükləyəndən sonra ot qurtarar, qaya çıxardı. Adamlar soruşanda:

- A Dəvral, bu nə otdu?

Dəvral gülə-gülə deyərdi:

- Onu məndən yox, öz bəxtindən soruş. O, niyə yayda yığılan otu, qışda qayaya döndərdi.

Ot alan adam qayaya baxa-baxa Dəvraldan uzaqlaşardı.

Özgələrə yar olsun

Tovuzun Bozalqanlısından olan şair Xəyyat Mirzə dostu Qəhrəmana deyir:

- Ayə, gəl gedək, atama mənim adımdan de Sənubərə elçi getsin. Əgər atam buna etiraz etsə, ona bir qarğış qarğayacağam ömründə heç kəs eşitməmiş olsun.

Qəhrəmanla Xəyyat gəlib onun atasına bu təklifi deyirlər. Xəyyatın atası etiraz edir. Xəyyat deyir:

- Ata mənim sənə son qarğışımdı, görüm yarın özgələrə yar olsun!

Məşədi Madyan

Dabrovol Qasım xalqın arasında dolaşan əhvalatlara maraq göstərərdi. O, daha çox qeyri-adi, möcüzəli hadisələrə meyl edirdi. Ona görə də onun söhbətləri hamını özünə cəlb edirdi. Qasım belə bir əhvalat danışırmış:

Goranboyun Kəpənəkçi kəndində üç qardaş yaşayırmış. Böyük qardaş Məhəmməd, Məşədiyə ziyarətə gedib gəlir. Amma o, Məşədi kimi az məşhurlaşır. Məhəmməd onunla Məşədə gedib-gələn atını «Məşədi Madyan» kimi hamıya tanıdır. O gündən Məşədi Madyan qoruğa girir, taxıl zəmisinə girir, heç kəs ona toxunmur. Hətta, bir dəfə də olsun, Məhəmməd Məşədi Madyanı nə yükləyib dəyirmana dən aparır, nə də minir. Hətta, öləndə də bu Məşədi Madyanın cəmdəyinə it-pişik toxunmasın deyə, onu öz həyətində dəfn edir. Hələ də həmin elatda Məşədi Madyanı xatırlayanlar çoxdu.

Qoy əzanı o salsın

Qamanov toya gedəndə, ölü yerinə gedəndə onu tək buraxmırdı. Qamanovun iti onunla bərabər yas mağarının qabağına gəldi. Qamanov itlə danışmağa başladı:

- Ayıbdı bir evdən birimiz əza salmalıyıq. Ya sən get mən qayıdım, ya mən gedim sən qayıt.

Nə qədər cəhd göstərirsə it qayıtmır. İyirmi beşliyi itin ağzına verir və deyir:

- Mən getdim, bugünkü yas pulunu sən sal.

Rayona çox gedirsən

Bəhram Qamanov Zodd kəndində partkom işləyərkən Yumru adlı bir qadın partiyaya keçmək üçün ərizə verir. Qamanov ona deyir:

- Mən səni partiyaya keçirə bilmərəm. Rayona tez-tez gedirsən. Yumru deyir:

- Sizin bacınızda rayona tez-tez gedir. Qamanov cavab verir:

- Mənim bacım rayona tez-tez getdiyi üçün partiyaya keçmir. Sənində qanacağın olsun səndə keçmə.

Sən ki nalbənd idin

Bəhram Qamanovla, Bədöy arasında möhkəm dostluq və həddini aşmış zarafat var idi. Bədöyün atası öləndə onun qəbrinin üstə bir mıx sancır. Onun nə demək olduğunu və rəmzi mənasını Bədöy yadında saxlayır.

Qamanovun atası ölərkən Bədöy əlində çəkic, nal və mıx tutub Qamanovun atasının təzə qəbrinin ayaq tərəfində durur. Bunun nə demək olduğunu bilən Qamanov dillənir:

- A, Bədöy sən ki, belə nalbənd idin atanı o, dünyaya qara nal göndərdin.

Aşıq Abbasın hazırcavablığı

Aşıq Abbas XX əsrin əvvəllərində Laçın rayonunun, Piçənis kəndində dünyaya göz açmışdır. Bu hazırcavab sənətkar elə ad-san çıxarmışdır ki, sorağı Sultan bəyə də çatmışdır. Həmin gündən Sultan bəy onu öz yanında saxlamış, böyük məclislərə aparmışdır. Hətta el arsında ona Sultan bəyin vəziri, Sultan bəyin elçisi deyirlərmiş.

Bir gün Sultan bəyin dostlarından biri Şuşadan məktub yazıb, ondan on qoyun göndərməsini xahiş edir.

Sultan bəy qoyunları Şuşaya aşıq Abbasla göndərir. O, yolda qoyunun birini kəsib yeyir. Bəy məktubu açıb oxuyur və deyir:

- Sultan bəy mənə on qoyun göndərib. Ancaq qoyun doqquzdur. O, yazır ki, ondur.

Aşıq Abbas deyir:

- Onsa, ondur

Bəy deyir:

- Axı doqquzdur.

Aşıq Abbas deyir:

- Doqquzsa, doqquzdur

Şuşa bəyi on nəfər adam çağırır və deyir:

- Hərəniz qoyunun birini tutun.

Hərə birini tutur, bir adama qoyun çatmır. Şuşa bəyi deyir:

- Görürsənmi, bir adamın əli boş qaldı. Ona qoyun çatmadı.

Aşıq Abbas deyir:

- Bacarığı var idi, o da tutardı.

Şuşa bəyi soruşur:

- Nə sənətin sahibisən?

Aşıq Abbas cavab verir:

- Sultan bəyin aşığıyam.

Şuşa bəyi bir aşıq çağırır və deyir:

- Bu aşığa doy gələ bilərsənmi?
Aşıq deyir:
- Mən onu bircə bayatı ilə susduraram.
Aşıq bir bayatı deyir:

Əsil adamı,
Sevmişəm, əsil adamı
Çox gəzdim, çox dolandım
Tapmadım əsil adamı.

Aşıq Abbas dərhal cavab verir:

Əsil adamı,
Sevmisən əsil
Özün əsil delilsən
Tapmazsan əsil adamı.

Şuşa bəyi deyir:
- Aşıq, sənə də halal olsun, dostum Sultan bəyə də.

Ona bir arvad da alaq

Səkinə xanım, Daşkəsənin Mərkəzi Mədəniyyət evində işləyirdi. Raykomun I katibi Xəlifə İbrahimov onun xətrini istəyirdi. Qadını irəli çəkmək üçün orta təhsili belə tam deyildi. Şəhər Sovetinin sesiyası çağrılmışdı. İbrahimov çıxış edərək, qeyd etdi:

- Yoldaşlar, Səkinə, kişi kimi adamdır. Onun şəhər sovetinə sədr seçmək təklifini irəli sürürəm.

Redaktor Sədnik Paşayev ayağa qalxıb söz aldı və dedi:

- Bir halda Səkinə kişi kimi adamdır, mən deyirəm ona bir arvad da alaq ev işlərini görsün.

Vücudnamələr

Şair Cavadın «Yetişdim» rədifli VÜCUDNAMƏSİ

İbtida xəlq oldum qolu-bəladan,
O vaxtdan insana sana yetişdim.
Bir aləmə gəldim sirri əladan,
Səda gəldi imtahana yetişdim.

Səs gəldi ki, məni yaradan bilər,
Baxdım tənəzzül var ağlayıb, gülər,
Gördüm iki hissə sədalar gələr,
Bəli dedim: - Xoş məqama yetişdim.

Üç ay keçdi məlum oldum anama,
Məkanım bətli qan cismi xanama,
Bu vaxtın bağıdı, çoxdu fənama,
Düzüldü hər əzam danə yetişdim.

Elə ki, doqquz ay, doqquz gün oldu,
Zənanə toplaşdı böyük ün oldu,
Gəldim bu cahana canha-can oldu,
Atam-anam şad, bu kana yetişdim.

Gecə-gündüz mən ağladım, altı ay,
Anam yuxusuz qalıb dedi: - Laylay.
Bir yaşıma qədər məmə oldu pay,
İki yaşda suya-nana yetişdim.

Üç yaşımda şirin gəldim anaya,
Dilim şirin gəldi qohum-əqrəbaya,
Atam şükür etdi bari-xudaya,
Dörd yaşımda dürr-dahana yetişdim.

Beş yaşımda oldum vazehi göyçək,
Dediyim sözləri saydılar gerçək,
Meylim oynamaqdı, etdim əyləncək,
Altı yaşda xoş dövrana yetişdim.

Yeddi yaşda mənim şagird çağımdı,
Səkkiz də, doqquz da gül budağımdı,
On yaşımda bildim qönçə bağımdı,
On beş yaşda imtahana yetişdim.

İyirmi yaşda sevdim bir canan,
Mənə çox xoş gəldi gülən, oynayan,
Yetişdim məqsədə şövqü natavan,
Əsas məqsəd bir canana yetişdim.

Elə ki, yetişdim iyirmi beş yaşa,
Təzədən mən çatdım ağıl və huşa,
Ehtiram göstərdim qohum-qardaşa,
Dərya idim, bir ümmana yetişdim.

Otuz yaşda oldum əhli-danəndə,
İbadət eyələdim oldum haq bəndə,
Bildim ki, günaha tutar şərbəndə,
Qırx yaşımda qana-qana, yetişdim.

Əlli yaşda bildim ömrüm yarıdı,
İnsanı aldadan dünya varıdı,
Altmış yaşda ağlım haqq bazarı,
Yada düşdü ata-ana, yetişdim.

Yetmiş yaşda qocalığa tutuldum,
Keçən günlərimə ağladım, güldüm,
Səksən yaşda xəstəliyə bulundum,
Bildim həyat imiş fəna yetişdim.

Doxsan yaşda qaldım evlərdə yalqız,
Almadı sözümü oğul, gəlin, qız,
Gördüm əcəl mənlə durur üzbəüz,
Könlüm qondu hər bir yana yetişdim.

Yüz yaşımda tamam oldu həyatım,
Qızıldı məzarım, hər ehtiyatım,
Qılındı namazım sonu salatın,
Xələtim ağ, qeyri dona yetişdim.

İki kimsə gəldi, tutuldu dilim,
Durdu qabağımda güllü əməlim,
Qəzəbli dillənir, tez cavab verim,
Bir ümidim o sübhanə yetişdi.

Dilimdə car etdim haqqı bir Allah,
Əşrəfi əndiyə ya Rəsul Allah.
İslamın pənahı ol Vəlieyullah,
On dörd kimsə mehribana, yetişdim.

Bu vaxtı yetişdi Vəleyi-Xuda,
Dedi haqq bəndədi atmayın oda,
Məzlumların pənahı ol Şiri-Xuda
Ağam gəldi, sanki cana yetişdim.

Tutdum dəmadindən, açıldı dilim,
On bir övladımla mən sənə qulam,
Üzüm turabındca göstərdi yolum,
Yol göstərir o Rizvana yetişdim.

Qülvü-Allah, əhəd bir və min birad,
Cəbrayıla ustad, ey böyük ustad.
Göstər rəhmini yol versin sirat,
Qul Cavadam gövhər-kana yetişdim.

AŞIQ SALEHİN VÜCUDNAMƏSİ

Atadan gəldim anaya,
Bir qətrə qana döndüm.
Yatdım ana bətnində,
Beş ayında cana döndüm.

Sanadılar ayım, günüm,
Qərar tapdı sür-sümüyüm,
Sərasər insana döndüm,
Zülmətdən dünyaya döndüm.

Dədəm mənə verdi dayə,
Əmdim ağız, tutdum maya,
Bir tifli-nadana döndüm,
Sərvəri-sultana döndüm.

On yaşımda oxudum kəlam,
Ayaqlandım, gəzdim aləm,
Ustadlara verdim salam,
Dərs aldım, rəvana döndüm.

İyirmi yaşda oldum dəli,
Dindirənə dedim, bəli!
Yıxdım qaleyi-xeybəri,
Rüstəmi-Zala döndüm.

Otuzunda tutdum maya,
Bədirlənmiş döndüm aya,
Çıxdım ərsan əlaya,
Hökm Süleymana döndüm.

Qırxında yetişdim,
Qırxlarnan yedim-içdim,
Qırxlar çəminə qarışdım,
Dəryayi-ümmana döndüm.

Əlli yaşına da yetdim,
Günü-gündən geri otdum,
Zəri-zibasını satdım,
Bazarsız dükana döndüm.

Altmışında köç eylədim,
İki qılçamı üç eylədim,
Cavan ömrü puç eylədim,
Xırd oldum, samana döndüm.,

Yetmişində zikr eylədim,
Ağı-bezi fikir eylədim,
İlahiyə şükür eylədim,
Sərvəri-sultana döndüm.

Səksən də qəddim büküldü,
Gözümün nuru töküldü,
Dizimin taqəti çəkildi,
Bir əbli-kamana döndüm.

Doxsan yaşımda halallaşdım,
Əcəl badəsini içdim,
Bu fani dünyadan köçdüm,
Mən gözəl zamana döndüm.

Yüz yaşda gətirin atımı,
Siz oxuyun bayatımı,
Tez yetirin xələtimi,
Məkandan-məkana döndüm.

O vaxt məni götürdülər,
Dar küçədən ötürdülər,
Yeddi qəddən səf düzdülər,
Salehəm düşdüm azara.
Bulunmaz dərdimə çarə,

O gün qoyuldum məzara,
Qarışdım torpağa döndüm.

MİSKİN VƏLİNİN VÜCUDNAMƏSİ

Ən ibtidai torpaq idim,
Tərpənib covlana gəldim.
Dörd mələyin zatındanam,
Dolana-dolana gəldim.

Əridim yağ tək süzüldüm,
Eşqi həvəsdən üzüldüm.
Təəcübən necə düzüldüm,
O bir qətrə qana gəldim.

Qan oldum yerimdə qaldım,
Beş ayımda nəfəs aldım.
Doqquz ayda məskən saldım,
Sonra bu cahana gəldim.

Götürüb tutdular suya,
Bəslədilər boydan-boya.
Dedilər tez verin maya,
Bu tipli nadanə gəldim.

Anam layla dedi yatdım,
Hərdən yatanları oyatdım.
Maya əmdim, maya tutdum,
Bir az cana, qana gəldim.

Bir yaşda durdum ayağa,
İkidə eyvan otağa,
Üç yaşında oynamağa,
Gözlədi ata, ana gəldim.

Dörd yaşında dedim, güldüm,
Beş yaşında əbiyə oldum.
Altı yaşda qulluq bildim,
Gətirdim nişana gəldim.

Yeddidə al dəftərimi,
Səkkizdə bil hünərimi,
Doquzda xeyri - şərimi,
Onda Qana-qana gəldim.

On beşdə dərsim aldım,
Gələcəyimi yada saldım.
Elmin dəryasına daldım,
Dolana-dolana gəldim.

İyirmidə bir oğlanam,
Qoy sevinsin atam - anam,
Düşmənimlə bil düşmnəm,
Bəslənib meydana gəldim.

İyirmi beşdə dərinəm,
Olarmı işdə ərinəm.
Çalışdım yaxşı görünəm,
Ədəblə meydana gəldim.

Otuzumda bəzənmişəm,
Hər işimdə qazanmışam.
Gündə üç yol dolanmışam,
Mən süfrəyə nana gəldim.

Çatdım otuz beş yaşıma,
Peşman oldum savaşıma,
Ağlım cəm olub başıma,
Düşməyin gümana gəldim.

Qırx yaşımda var kamalım,
Coşqundu əhvalım - halım.
Pozulmaya bu cəlalım,
Layiqdi «Quran»a gəldim.

Qırx beşdə bu diləyim,
Ödənmiş əskik-gərəyim.
Qocalığa necə deyim,
Gəlməsin bu yana gəldim.

Əlli yaşımda dayandım,
Bu həyatı fani sandım.
Bədəndə zəiflik qandım,
Oyana-oyana gəldim.

Əlli beşdə geri qalar,
Ağılım, huşum azalar,
Oğul - uşaq gözdən salar,
Düşərəm zindana gəldim.

Altmışımda vaxt namazım,
Bir gün mənə olar lazım,
Qismət nədir, tədbir yazım,
Qail oldum ona gəldim.

Altmış beşdə nübarım,
Töküldü qalmadı varım.
Baxdım bağlanıb bazarım,
Dolandım əfsanə gəldim.

Yetmişimdə batdım yasa,
Gözlədim itməsin əsa,
Yaxın mənzilə əsə-əsə,
Dolana-dolana gəldim.

Yetmiş beşdə dolaşıram,
Gün kimi dağdan aşıram.
Dildə kəlməmi çaşıram,
Oyana, buyana gəldim.

Səksənimdə mən yatıram,
Qəmə, qüssəyə batıram.
Taqət yox duram, oturam,
Düşmüşəm zindana gəldim.

Səksən beşdə düşdüm xəstə,
Yatanmıram döşək üstə,
Qocalıq tənginəfəsdə,
Gətirdi imana gəldim.

Doxsanda artdı azarım,
Neyləsin dövlətim, varım.
Baxdım bağlanıb bazarım,
Dolandım əfsanə gəldim.

Doxsan beşdə oğul - uşaq,
Qonşu gəldi halallaşaq,
Çətin oldu halallaşmaq,
Hörmətlə mehmana gəldim.

Yüzdə gəldi nəfəs getdi,
Qəssəl yudu, el götürdü,
Səfərim mənzilə yetdi,
Düşdüm dondan-dona gəldim.

Ellər qıldı namazımı,
Yazanlar yazdı yazımı,
Səs gəldi açdım gözümü,
Bir qaranlıq dama gəldim.

Çırağımız haqdan yandı,
Gördüm üç kimsə dayandı.
Birisi şahmar ilandı,
Sidqim bağlı ona gəldim.

Gördüm sual ayağıdı,
Əcəlim mənə yağıdı.
İşimin yaman çağıdı,
Düşdüm pərişana gəldim.

Toxtaq verirdim özümə,
Əcəlim durdu üzümə,
Qüvvət versələr sözümə,
Axirət imana gəldim.

Dolu badə içə bilsəm,
Şəkki-şədi keçə bilsəm,
Mən siratdan keçə bilsəm,
Qismətdə rizvana gəldim.

Sirri qaldım sirr işlərə,
Əcəlim olan dəftərə,
Qorxulu axır məhşərə,
Sığındım sübhana gəldim.

Ömrümün axır əvvəli,
Deyərlər itirdik ləli,
Əslim Emir, Miskin Vəli,
Qul oldum «Quran»a gəldim.

Sara haqqında əfsanə, rəvayət və mahnılar

Belə deyirlər ki, çox-çox uzaq dövrlərdə, qədim zamanlarda Mil-Muğan düzündə bir xan yaşayırdı. Bu xan bir gün öz qoşunu ilə Muğan səhrasına səyahətə gəldi. Gəlib səhranın bir yerində çadır qurub, qərar tutur. Muğan tərəfdə Xançoban adında bir çoban yaşayırmış. Bu çobanın Sara adında nişanlısı var imiş. Saranın atası da çoban idi. Sara öz gözəlliyi ilə ətraflarda məşhur olan bir gözəl idi.

Bu Araza qədimlərdə Arpaçayı deyirdilər. Sonra Araz adlı bir pəhləvanın başını daşın üstündə kəsib, Araza atıblar. O gündən Arpaçayın adı qalıb Qanlı Araz. Arazın nişanlısı yay oxunu götürüb, düz düşmənin qabağına gedib, gedən də bunu tanımırlar. Yay oxunu çəkib, tez düşmənin sinəsini nişan alıb vurur, sonra başını kəsir. Bu qadını tuta bilmirlər. Qaçıb aradan çıxır. Ondan sonra çayın adı qalır, Qanlı Araz.

Həmin Arazın qırağında xan çadır qurur. Xan görür ki, bulaqdan bir gözəl qız sənəyi doldurub gedir. Xan uzaqları seyr edirdi. Xan adam göndərir ki, görün o qız hara gedir. Bu adamlar güdə-güdə gəldilər, gördülər ki, çoban obasına daxil oldu. Geri qayıdıb xana xəbər verdilər. Xan üç nəfər adam göndərdi ki, gedin o qızı bura gətirin. Gəlib qızı zorla aparmaq istəyəndə qızın atası müqavimət göstərib yolu kəsdi. Baltanı götürüb bunların üstünə cumdu. Bunlar qaçıb xana xəbər verdilər. Bu dəfə xan altı adam göndərdi. Bu adamlar gələndə çoban Səməd yenə həmlə eylədi. Səməd dəmir yaba götürüb bunları qovdu. Bunlar yenə gedib xana xəbər verdilər. Xan bu dəfə on nəfər adam göndərdi. Səməd kişi dedi:

- Qızım, dərədə gizlən. Qız dərəyə sarı gedir, gizlənmək istəyəndə, Arpaçayına düşür. Səməd kişi nə qədər elədi, qızı çıxarda bilmədi. Aşıqlar, şairlər, sözbilənlər başladılar Saraya söz qoşdular.

*** ********* ***

«Apardı sellər Saranı» adlı iki rəvayəti Gəncə Dövlət Universitetinin filologiya fakültəsinin birinci kurs tələbəsi Aygün Namazova toplayıb gətirmişdir:

Birinci rəvayət: Qədim zamanlarda ağıllı, xeyirxah bir qoca kişi yaşayırdı. Kişinin gözünün ağı-qarası bircə qızı vardı. Qızın adı Sara idi. Sara çox gözəl idi. Qız Xançoban adlı bir oğlana deyikli idi. Xançoban həm də elin çobanı idi. Xançoban çox qolu güclü, zor pəhləvan idi. O, kənddə olanda kimsə ürək edib kəndin həndəvərindən keçməz, camaatın var-yoxunu talayıb aparmağa cürət edə bilməzdi. O, həmişə olduğu kimi, bir dəfə yaz vaxtı elin mal-qarasını yaylağa aparmışdı. Günlərin birində onların yaşadığı vilayətə qonşuluqda olan zalım bir xan hücum edir. Xanın adamları camaatı çapıb-talayır, gözə dəyən oğul və qızları da özünə qul edirdi. Zülmkar xan Saranı da görür və nökərlərinə əmr edir ki, bu qızı hərəmxanaya aparsınlar. Qızın atası nə qədər çalışır ki, qızını verməsin, mümkün olmur. Xanın adamları qocanın qollarını bağlayıb öldürmək istəyir. Vəziyyəti belə görən ata xahiş edir ki, heç olmasa axırıncı dəfə qızı ilə görüşə icazə versinlər. Kişinin qollarını açırlar. Bu hadisə Arpaçayın sahilində baş verir. Ata görüşmək üçün qızına yaxınlaşanda Sara deyir:

- Ata, mənə yazığın gəlməsin, şərəfsiz əllərdə qalmaqdansa, ölmək yaxşıdır.

Ata özünü itirir:

- Mərhaba, ağıllı qızım, - deyir. – Mən səndən, ancaq belə cavab gözləyirdim. Hərəmxanaya getməkdənsə, ölmək daha yaxşıdır.

Yaz vaxtı idi. Arpaçayın buzları təzəcə əritməyə başlamışdı. Ata qızının əlindən tutub Arpaçayına atır. İti axın Saranı çəkib suyun altına alır. Xan qızın atasını o dəqiqə öldürtdürür. O vaxt belə bir mahnı yaranır:

Gedin deyin Xançobana,
Gəlməsin birdə Muğana,

Muğan batıbdı al qana,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Sara kimi gəlin olmaz,
Axar sular sərin olmaz,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Arpa çayı aşdı, daşdı,
Sel saranı aldı qaşdı.

İkinci rəvayət: Başqa bir rəvayətə görə, Sara Xançobana gəlin gedirmiş. Gözəl bəzədilmiş Saranı cer-cehiz ilə arabada Arpaçayından keçirəndə çayın suyu az imiş. Saranı aparanlar suyun azlığına aldandılar. Yaz vaxtıdır. Araba çayın ortasına çatanda birdən sel gəlir. Sel arabanın çarxlarının hərəsini bir yana atır. Elin ən gözəl qızı Saranı gəlinlik arabasında sel aparır. Bu vaxt Xançoban Saranı Arpaçayının o tayında gözləyirdi. Saranın acı taleyi, bu kədərli xəbər mahnıya çevrilib hər yana yayılır.

Apardı sellər Saranı,
Bir ala gözlü balanı…

*** ****** ***

Filologiya fakültəsinin birinci kurs tələbəsi **Vüsalə Musayevanın** bizə təqdim etdiyi «Apardı sellər Saranı» dastanı (O, bunu Saranın dastanı adlandırır, görünür söyləyici belə demişdir) daha maraqlıdır. Yeganə əfsanədir ki, burada qızın atasının adı Xançobandır. Yazı bizə necə təqdim olunubsa, dəyişmədən, olduğu kimi çap edirik.

«Apardı sellər Saranı» dastanı

«Apardı sellər Saranı» dastanı haqqında eşitdiyimdən sizə də xəbər verim.

Dastanda, kəndlərin birində Xançoban adlı bir kişi yaşayırmış. Onun da gözəllər gözəli Sara adlı qızı varıymış.

Günlərin bir günü başqa yerin hökmdarı öz qoşunları ilə bu kəndi işğal eləyir. Hər gün bu hökmdarın yanına kənddən gözəl bir qız aparırmışlar.

Bir gün Xançoban eşidir ki, hökmdar onun qızının gözəlliyindən xəbər tutub. Xançoban fikirləşir ki, bir gün gəlib zorla olsa da, onun qızını hökmdarın yanına aparacaqlar.

Bir səhər dan yeri sökülənd Xançoban, qızını qaldırır ki, hazırlıq görsün, «meşəyə gedək bu gün» - deyir. Sara qalxıb hazırlıq görür. Sonra meşə yolu ilə, meşəyə yollanırlar. Meşənin girəcəyində gur çay axırmış. Onlar bu çaydan keçəndə Xançoban öz qızını itələyib çaya salır. Çay Saranı öz qoynuna alıb aparır. Xançoban bu işi qızının zalım hökmdara qismət olmaması üçün eləyir. Bir ata kimi öz balasını itirməyi ona çox ağır gəlir. Hər səhər Xançoban həmin çayın yanına gəlib saatlarla orada oturardı ki, qızını aparan çay bəlkə geri qaytardı.

Elə bu vaxt oxuyarlarmış:

«Apardı sellər Saranı,
Bir ala gözlü cananı».

Bu dastan haqqında eşitdiklərim bu qədər.

Apardı sellər Saranı»

Arpa çayı ətrafında bir çoban yaşayırmış. Bu çobanın Sara adlı çox gözəl və ağıllı bir qızı varmış. Sara uşaqlıqdan anasını itirmiş, yetim böyümüşdür. Çoban atası ona həm

ata, həm də ana olmuşdur. Atasının çoban olmasına baxmayaraq Sara çox əziz və ərköyün olmuşdur. Sara öz kəndlərindən ağıllı, igid bir oğlanla əhdi-peyman bağlayaraq, bir-birini sevirmiş. Bu igid oğlan həm də çox yaraşıqlı imiş. Saranın sevdiyi oğlan toy etmək üçün qazanc əldə etmək niyyəti ilə şəhərə üz tutur.

Bir gün Saranın yaşadığı kəndin xanı ov etmək üçün çay qırağında ov etmək üçün çay qırağında öz adamları ilə gəzirmiş. Gözəl Sara da gül toplamaq üçün çay qırağında oxuya-oxuya gəzirmiş.

Bu vaxt xan qənirsiz olan bu gözəli görür və bir könüldən min könülə aşiq olur və çobanın evinə elçi göndərir. Çoban xanın elçilərini geri qaytarır, qızının nişanlı olduğunu söyləyir. Xan bundan qəzəblənir, tez çobanı hüzuruna çağırtdırır. Qızı ona verməsə başının vurulmasını söyləyir. Çoban evə çox kor-peşman qayıdır, olanları qızına söyləyir. Hər yerdən əli üzülən Sara atasının üzünə baxıb için-için ağlayır. Atasını bu bəladan qurtarmaq üçün özünü Arpaçayına atır. Bu hadisə yaz vaxtı baş verdiyinə görə qarın əriməsi və Arpaçayına qarışmasına görə çayın suyu çox imiş. Əslində Arpaçayı kiçik bir çay olduğuna görə, o çayda adam batmazmış. Lakin sellər, sular öz məcrasından çıxdığına görə Saranı xilas etmək mümkün olmur.

Beləliklə, Sara qoca atasını və özünü bu bəladan qurtarır. Əli hər yerdən üzülən ata çayın sularına baxıb göz yaşı axıdır, fəryad qoparır, acı bayatı söyləyir. Bu acı bayatını sazla eldə-obada oxuyan aşıqlar bu günümüzə qədər olduğu kimi çatdırmışlar.

Arpaçayı aşdı, daşdı,
Çay Saranı götdü qaşdı,

Bu bayatını çoban söyləyir.

Sonralar xalq bu bayatını genişləndirib belə oxuyur:

Gedin deyin siz o xana,
Bir də gəlməisn Muğana,
Muğan batıbdır al qana,

Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Beləliklə, tarixən Azərbaycanlı qızlarının əhdə sədaqətini, vəfasını tərənnüm edən rəvayətlər xalqın hafizəsindən, yaddaşından bu günə qədər bizlərə nümunəsidir.

Fəridə Əbülfəz qızı

1938-ci ildə S.Rüstəm, M.Rahim qoşmalar kitabı nəşr etdirmişlər. Həmin kitaba Sara haqqında bayatılar və bənzərsiz şerlər daxil etmişlər. Biz həmin el mahnısını olduğu kimi çap etdiririk.

S A R A

Düyünü tökdüm tabağa,
Bişmədi qaldı sabaha,
Çilovdar düşsün qabağa,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Pəncərədən gördüm ayı,
Gözəllikdə yoxdu tayı,
Çox daşıbdır Arpa çayı,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Mən bu bağa girməmişəm
Qonca gülün dərməmişəm,
Mən Saranı görməmişəm,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Arpa çayı aşdı, daşdı,
Sel Saranı aldı qaçdı,
Məni qoydu qaçdı,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Arpa çayı dərin olmaz,
İçmə, suyu sərin olmaz,
Sara kimi gəlin olmaz,
Apardı sellər Saranı,
Bir başı şallı balanı.

Beş manat verdim qoyuna,
Bəylər yığıldı toyuna,
Baxmadım Saranın boyuna,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Saranı sellər sürüməz,
Qanını daşlar bürüməz,
Saranın meydi yeriməz,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Qırmızı taftadan geyibdir tuman,
Dağların başını almışdır duman,
Sellər aparmağa gəlmirdi guman,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Arpa çayı görüm suyun qurusun,
Dibində hesabsız daşın görünsün,
Çilovdar çil olsun, əlin burulsun.
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Folklorşünas Əhliman Axundovun tərtib etdiyi «Azərbaycan folklor antologiyası» kitabının birinci hissəsində Sara mahnısını «Saramı» adı ilə genişliyi ilə vermişdir. Biz onu olduğu kimi veririk.

S A R A M I

Arpa çayı aşdı, daşdı,
Sel Saranı götdü qaşdı,
Ala gözlü, qələm qaşdı.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!
Yüz atlıydıq, çıxdıq düzə,
Bıçaq batsın yaman gözə,
Çağrı başmaq suda üzə,
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Arpa çayı dərin olmaz,
Axar sular sərin olmaz,
Sara kimi gəlin olmaz.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Arpa çayı məni aldı,
Apardı dəryaya saldı,
Cilovdarım dalda qaldı.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Mən bu dağa girməmişəm,
Qönçə gülün dərməmişəm,
Mən Saranı görməmişəm.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Olduq əcəb günü qara,
Dərdimizə yoxdu çara,
Sara həsrət qaldı yara.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Qaldı bu sinəmdə dağın,
Öldürdü məni fərağın,
Oldu qara toy otağın,
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Adaxlın gözlər yolunu,
Boynuna salsın qolunu,
Su aldı sağı, solunu.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Düyünü tökdüm qazana,
Qaynadı qaldı azana,
Əlac yox Allah yazana.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Arpa çayı ada gəlir,
Kor yengələr dada gəlir,
Sağrı başmaq suda gəlir.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Düyünü tökdüm tabağa,
İslandı qaldı sabaha,
Cilovdar, düşsün qabağa,
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Qarağac, kökün qırılsın,
Dibinə balta vurulsun,
Cilovdar əlin qurusun.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana,
Muğan batıb nahaq qana.
Apardı sellər Saramı,
Bir ala gözlü balamı!

Tələbələrin Sara haqqında gətirdikləri bayatılardan seçmələr:

Arpa çayı dərin olmaz,
Axar çaylar sərin olmaz.
Saray kimi gəlin olmaz,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Məhəbbət Novruzova

Arpa çayı aşdı-daşdı,
Sel Saranı aldı qaçdı.
Alagözlü, qələm qaşdı,
Apardı sellər Saranı,
Bir alagözlü balanı.

Sel Saraya oldu yağı,
Su bürüdü solu-sağı,
Yasa batdı toy otağı,
Apardı sellər Saranı,
Bir alagözlü balanı.

Sehrə Bayramova

Toyun qaldı azana,
Düyün töküldü qazana,
Nə deyim taleh yazana,
Apardı sellər Saranı,
Bir ala gözlü balanı

Gedin deyin Xançobana,
Gəlməisn bu il Muğana,
Muğan batıb nahaq qana,
Apardı sellər Saranı,
Bir üzü göyçək balanı.

Anar Əliyev

Sara və Sarayla səsləşən mahnılar

Sarı gəlin

(Azərbaycan xalq mahnısı)

Saçın ucun hörməzlər,
Neynim aman, aman,
Neynim aman, aman, Sarı gəlin.
Səni mənə verməzlər,
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Əyil üzündən öpüm,
Qaranlıqdı görməzlər,
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Bu dərə uzun dərə,
Getdikcə uzun dərə,
Burda bir bağ salmışam,

Yar gələ üzüm dərə.
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Bu dərənin uzunu,
Çoban qaytar quzunu,
Gedim qonşuya deyim,
Mənə versin qızını.
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Yük üstə sarı xalça,
Kim qaldıra, kim açа,
O yara qurban olum,
Dindirə, könül açа.
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Qızılgülü biçmişəm,
Üstündə and içmişəm,
On iki gözəl içində,
Bircə səni seçmişəm.
Oy, neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Qızılgül oyum-oyum,
Oyum, boşqaba qoyum,
Yağış yağar yer doymaz,
Mən səndən necə doyum?
Oy, neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Eyvanımız yan-yana,
Ay qız, mənə bax, mənə,
Mən səndən ayrılmaram,
And verirəm vicdana,

Oy, neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Bu gecə xoş gecədi,
Yar qoynu boş gecədi.
Mən səndən soruşuram,
Yalqız yatmaq necədi?
Oy, neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Əzizim yenə gəlləm,
Gedirəm, yenə gəlləm,
Bir dəfə üzün görsəm,
İmana, dinə gəlləm.
Oy, neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Getmə gözdən irağa,
Mən düşərəm sorağa,
Telin birin verməræm,
Təbriz, Tehran, Marağa,
Oy, neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Su axar daşa dəyər,
Kirpiklər qaşa dəyər,
Qurban olum o cana,
Gələr baş-başa dəyər.
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Su axar axmağınan,
Dağı, daşı yıxmağınan.
Ay xanım qan olmadı,
Bir sənə baxmağınan.

Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Qərənfilsən qənirsiz,
Qərarım gəlmir sənsiz,
Qoynuna qorlar dolsun,
Necə yatırsan mənsiz?
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Başıma batdı sancaq,
Çıxarda bildim, ancaq.
Danışdırdım dinmədin,
Mən uşaq, sən utancaq.
Neynim aman, aman, neynim aman, aman,
Neynim aman, Sarı gəlin.

Qızıl İrmaq, netdin, allı gəlini
(Türk mahnısı)

Altı qardaş idik mindirdik ata,
Hürünü göndərdik üç köydən ötə.
Qızıl İrmağa varınca buldu bir xata,
Qızıl İrmaq, netdin, allı gəlini,
Dalğa vurdu, görənmədim boyunu.

Evdə qaynanası evi bəzədir,
Yolda qaynatası yolu gözədir,
Gəlinsiz otağı kimə bəzədir,
Qızıl İrmaq, netdin, allı gəlini,
Dalğa vurdu, görənmədim boyunu.

Atlılar da Qapaltına dolaşır,
Yengələr də quzu kimi mələşir,

Qara xəbər təzə bəyə ulaşır,
Qızıl İrmaq, netdin, allı gəlini,
Dalğa vurdu, görənmədim boyunu.

Körpüyə varınca körpü yıxıldı,
Üç yüz igid birdən suya töküldü,
Neçə ər igidin beli büküldü,
Qızıl İrmaq, netdin, allı gəlini,
Anamın gəlini, mənim yarımı.

Tüfəng gətrin bu qartalı vuralım,
Dalğıc gətrin, allı gəlini bulalım,
De, gəlinsiz necə köyə varalım?
Qızıl İrmaq, netdin, allı gəlini,
Gəlini, gəlini, mənim yarımı.

Əlinin xınası solmuşmu ola?!
Gözünün sürməsi pozulmuşmu ola?!
Evdə qaynanası duymuşmu ola?!
Qızıl İrmaq, netdin, allı gəlini,
Anamın gəlini, mənim yarımı,

Qızıl İrmaq, parça-parça olaydın,
Parçalanıb dağda, daşda qalaydın,
Sən də mənim kimi yarsız qalaydın,
Qızıl İrmaq, netdin, allı gəlini,
Dalğa vurdu, görənmədim boyunu.

Üzərində tarixin möhürü olan mahnılarımızdan biri

İrəvanda xan qalmadı

"Apardı sellər Saranı", "Sarı gəlin" mahnıları kimi mötəbər mahnılarımızdan biri də "İrəvanda xal qalmadı" və ya "İrəvanda xan qalmadı" mahnısıdır. Belə rəvayət edirlər ki, üzünə qoşa xal düzülmüş qızların üstündə xanlar bir-birini məhv edir. Odur ki, xanların və bəylərin sayı İrəvanda azalır. Bir qism də belə izah edir ki, qızlar xalları qoşa-qoşa üzə düzdürdüyündən İrəvanda xal qalmayıb, yəni xal qəhətliyidir. Bu mahnı qədim bir mahnı olsa da, onun haqqında yeni rəvayətlər də mövcuddur. Həmin variantlar həm də mahnının qədim variantlarından xeyli fərqlidir. Kəlbəcərli aşıq Qəmbər mahnı haqqında belə bir rəvayət danışır:

- Məhşur xanəndəmiz Xan keçən əsrin əvvəllərində İrəvana toya gedir, varlı bir ailənin gəlini haqqında bu mahnını söyləyir. X.Şuşinskiyə görə Cabbar Qaryağdıoğlu həmin mahnını İrəvanda toyda bir xanın gəlininə demişdir. Rəvayətə görə Cabbar Qaryağdıoğlu bu toyda toyun sonuncu günü bəyin tərifi ilə toyu yekunlaşdırmaq istərkən oxuduğu tərif gəlinin əmisinin acığına gəlir və o, məşhur xanəndədən gəlinə də tərif söyləməsini tələb edir. Buna isə şəriət yol vermədiyinə görə Cabbar boyun qaçırmaq istəyir. Bunun üçün gəlini görmədiyini bəhanə gətirir. Əmisi onun gözəllik nişanəsindən birini bildirib deyir:

- Qızımızın sol yanağında qoşa xalı var.

Vəziyyətin çıxılmazlığını görən xanəndə bədahətən bu mahnını oxumağa başlayır:

İrəvanda xal qalmadı,
O xal nə xaldı, qoşa düzdürmüsən?
Daha məndə can qalmadı,
O xal nə xaldı üzə düzdürmüsən?

Xal mənim, yar mənim, ixtiyar mənim,
Xalqa nə borcdur üzə düzdürmüşəm,
Yarım deyibdir qoşa düzdürmüşəm.

İrəvanda xal qalmadı,
O xal nə xaldı qoşa düzdürmüsən?
Əllərin qandı, adam öldürmüsən?

Xal mənim, ixtiyar mənim,
Xalqa nə var ki, qoşa düzdürmüşəm,
Yarım deyibdi üzə düzdürmüşəm.

Aşıq Qəmbərin Xan Şuşinskinin dilindən söylədiyi variant

GDU-nun filologiya fakültəsinin birinci kurs tələbəsi Əhmədova Çinarənin söylədiyi variant

İrəvanda xal qalmadı,
O xal nə xaldı, qoşa düzdürmüsən?
De görüm, nə xaldı qoşa düzdürmüsən?
Yarım deyibdi üzə düzdürmüşəm.

Xal mənim, yar mənim, ixtiyar mənim,
Xalqa nə borcdur, üzə düzdürmüşəm.
Yarım deyibdi qoşa düzdürmüşəm.

İrəvanda gəzən gözəl,
O xal nə xaldı, üzə düzdürmüsən?
De görüm nə xaldı, üzə düzdürmüsən?
Yarım deyibdi qoşa düzdürmüşəm.

Aşıq Məhəmməd isə öz söylədiyi variantda mahnını İrəvanla deyil, Qarabağla bağlayır. Bu variant digərlərindən çox fərqlidir. Mahnının sonradan ifa zamanı dəyişdirildiyini

göstərir. Həmin bu variant da öz sözünü deyir. Aşıq Məhəmməd mahnını bu şəkildə söyləyir.

Ay qız, məndə can qalmadı,
Qarabağda xan qalmadı,
Gəncədə sultan qalmadı,
Ay qız, nə xaldı üzə düzdürmüsən?
Əllərin qandır, adam öldürmüsən?

Qarabağda bir quyu var,
Şəkərdən şirin suyu var,
Hər gözəlin bir xoyu var,
Ay xanım, nə xaldı üzə düzdürmüsən?
Əllərin qandır, adam öldürmüsən?

Qarabağda yol işlərəm,
Xançalımı gümüşlərəm,
Bir öpərəm, bir dişlərəm,
Ay qız, nə xaldı üzə düzdürmüsən?
Əllərin qandı, adam öldürmüsən?

Qarabağın oyaq quşu,
Gedər yazı, gələr qışı,
Yaxşı olar yar görüşü,
Ay naz, nə xaldı üzə düzdürmüsən?
Əllərin qandı, adam öldürmüsən?

Qarabağda çarşı bazar,
İçində bir gəlin gəzər,
Dərdlərimə dərman yazar,
Ay gözəl, nə xaldı üzə düzdürmüsən?
Ay xanım, nə xaldı qoşa düzdürmüsən?
O ala gözlər niyə süzdürmüsən?
Əllərin qandı, adam öldürmüsən?

H. Əlizadə, İrəvanda xal qalmadı variantı

İrəvanda bir quyu var,
Şəkərdən şirin suyu var.
Hər gözəlin bir xoyu var,
Ay qız, o xal nə xaldır
Sən ora düzdürmüsən?
Ay naz, o xal nə xaldı
Sən üzə düzdürmüsən.

İrəvanda yol işlərəm,
Xançalımı gümüşlərəm.
Bir öpərəm, bir dişlərəm,
Ay qız, o xal nə xaldı
Sən ora düzdürmüsən?
Ay naz, o xal nə xaldı
Sən üzə düzdürmüsən.

İrəvanın oyax quşu,
Gedər yazı, gələr qışı,
Yaxşı olar yar görüşü,
Ay qız, o xal nə xaldı
Sən ora düzdürmüsən?
Ay naz, o xal nə xaldı
Sən üzə düzdürmüsən?

İrəvanda çarşı bazar,
İçində bir gəlin gəzər.
Dərdlərimə dərman yazar,
Ay qız, o xal nə xaldı
Sən ora düzdürmüsən?
Ay naz, o xal nə xaldı
Sən üzə düzdürmüsən.

İrəvanda Zəngi çayı,
Hüsnün mat eyləyir ayı,
Mən yazıq yetimin payı,

Ay qız, o xal nə xaldı
Sən ora düzdürmüsən?
Ay naz, o xal nə xaldı
Sən üzə düzdürmüsən.

İrəvanda olar düyü,
Tacirlər bağlayar yükü,
Hindistandakı qul təki,
Ay qız, o xal nə xaldı
Sən ora düzdürmüsən?
Ay naz, o xal nə xaldı
Sən üzə düzdürmüsən.

İrəvanda xan qalmadı,
Gəncədə sultan qalmadı,
Daha məndə can qalmadı,
Ay qız, o xal nə xaldı
Sən ora düzdürmüsən?
Ay naz, o xal nə xaldı,
Sən üzə düzdürmüsən?

Deyilən rəvayətlərə görə bir günləri Xan əmi İrəvanda, İrəvan xanının oğlunun toyuna gedir. Toyun axırında gəlini məclisə gətirirlər. Belə bir təklif buyururlar ki, gözəl xanəndəmiz Xan, gəlnimizə gözəl bir tərif desin. Xan gəlinin görkəminə baxır. Görür ki, gözəl bir gəlindi, üzündə qoşa xalı var. Elə bil ki, bu xalı qəsd ilə qoyublar. Xan qavalı götürüb çalanlara işarə edir ki, çalın. Burada Xan belə oxuyur:

İrəvanda xal qalmadı,
O, xal nə xaldı qoşa düzdürmüsən?
Əllərin qandı, adam öldürmüsən?
Xal mənim, ixtiyar mənim
Xalqa nə var ki, qoşa düzdürmüşəm.
Yarım deyibdi belə düzdürmüşəm.

Təbiətin möcüzələri

Baba bulağı

İsmayıllı rayonunun Baba dağında «Baba bulağı» var. Bu bulaq həmin elat üçn ocaq sayılır. Sınaqlı bulaqdır. Niyyət edib bulağın üstə gələnlər bir qab su götürürlər. Kimin niyyəti baş tutursa, qəlbi təmizsə su təmiz və dum-duru olur. Yox, kiminsə niyyəti baş tutmursa qəlbindən yalnış fikr keçirsə dum-duru bulaqdan götürdüyü su bulanır.

Belə bir sınaqlı bulaqda Laçın bölgəsindədir. Bulaq «Əsli Kərəm» bulağı adlanır. Əgər qızla oğlan həqiqətən təmiz qəlblə sevişirlərsə bulağın üstə gələndə suyu durulaşır. Oğlan və ya qızın xəyali dəyişirsə bulaq sızqı axır, səsi eşidilmir.

Çıraq dərəsi

Xanların sarısu kəndinin yuxarı hissəsində bir çoban qoyun sürüsünü itirir. Axşamacan gəzir tapmır. Qaranlıq düşəndə bir sürü qoyun gözü ətrafa işıq salır. Çoban sevincək qoyunlara tərəf yüyürür, lakin çaya düşür. çıraq kimi yanan qoyunların gözü deyilmiş, molbiden daşları imiş. Çoban çörək çantası ilə bir həmin daşlardan yvğır. Qoyunları özbaşına kəndə gəlibmiş. Çoban naşı olduğundan başa düşmür ki, qoyunlar qaranlıq düşdükdə dərəyə yox, təpənin, dağın başına yığılır.

Çobana məsləhət görürlər ki, bu daşları aparıb Gədəbəydə Simens qardaşlara göstərsin. Simens qardaşları çobanın çantasını boşaldıb ağzınacan qızıl doldururlar. Simens qardaşları çobanın köməyi ilə Xanlar rayonundakı molbiden mədənini kəşf edirlər. O, gündən q dərənin adı

çıraq dərəsi qalır. Simens qardaşları mədəndə Azərbaycanlılardan çox rəhbər işdə Ermənilər işlətdikləri üçün onlar çıraq dərəsinin adını dəyişib Ermənicə Çıraqidzor qoyurlar.

Yaşılbaş ördək

Onlar göldə cüt üzərlər. Müxtəlif səslərlə, ritmik hərəkətlərlə bir-birilərinə sevgilərini, sevinclərini çatdırırlar. Erkək və ya dişi ördəklərdən birini ovlayarlarsa ikincisi özünü intahar edir, tək yaşamır. Filalogifa elmləri doktoru Məmməd Cəfərzadə mənə bildirdi ki, Udlu gölündə iki sevgili ördəkdən birini vurdum. İkincisi başım üstən uça-uça kəndin yaxınlığına qədər gəldi. sonra özünü bir göy daşa çırpıb öldürdü. Eyni xüsusiyyəti qırqovulda da müşahidə etmişlər.

Qırx əmcəkli dağ

Xanlar rayonunun Balçılı kəndinin Axarca yaylağı var. Axarca yaylağında qız qalası var. qız qalasının o, üzündə Şəmkirə tərəf vaxtilə 30-cu illərdə buradan köçürülmüş İncirli kəndinin yaxınlığında bir dağ var. dağ bir möcüzədir. Dağın altı uzun bir qayalıqdır. Bu qayalıqda bütün heyvanların fiquru var. Atın, inəyin, qoyunun, ceyranın, maralın və başqa canlıların əmcəyindən süd axır. Təkcə qatırın döşündən süd gəlmir. Bu dağa «Qırx əmcəkli» dağı deyilir. Doğrudan da atla eşşəyin törəməsi olan qatır doğmur ki, məməsindən süd axa. Təbiət təbii olaraq bu möcüzəli mənzərəni özü yaratmışdır.

Mumya necə tapılır

Ovçu oxla maralın dal qıçını qırır. Çətinliklədə olsa maral qaçıb gözdən itir. Üç gündən sonra ovçu onun izi ilə bir qayanın dibinə gəlir. Ovçu baxır ki, maral qayanın yarığından axıb gələn qara mayını yalayır. Maral ovçunu görüb qaçıb gözdən itir. Ovçunu heyrət götürür. Maralın üç gün ərzində qıçı sağalmışdır. Ovçu maralın yaladığı bu möcüzəli madədən iri bir kütlə kəsib götürür və loğman İbn Sinanın yanına gətirir. Loğman deyir:

- Siz bəşəriyyətə böyük yaxşılıq etdiniz. Bu mumyadır. 77 dərdin dərmanıdır. Mumya Özbəkistanın Zərövşən dağlarında beləcə kəşf edilir.

Göyərçin sevgisi

Erkək və dişi quşlar çoxlu göyərçinlər içərisindən seçilir. Bir neçə saat dimdik-dimdiyə qalırsa onlar bir-birilərinə məhəbbətlərini ishar edirlər. Bundan sonra bir-birini tanıyır, sevi və həyat boyu cüt yaşayırlar. Biri digərinə xəyanət etmir.

Arqalı ağacı

Ordubadın Aza kəndinin yuxarı hissəsində Arqalı ağacı vardır. aRqalı çöl keçisi deməkdir. Əvvəllər Füzuli rayonunun Arqalı kümbəzində və Şəmkirin Arqalı kəndində (kəndin indiki adı Keçilidir) kosa-kosa oyunları üçün təlim görmüş Arqalılar-Keçilər saxlanılmışdır.

Aza kəndinin yuxarı hissəsində olan Arqalı ağacı o, qədər da böyük deyildir. Bu ağacın kiçik bir budağını kəsdikdə qan axır, elə bil bir insanın əlini bıçaqla kəsmisən. Onu yodla və hər hansı qankəsici dərman qoyub sarımadıqda qan kəsmir.

Bəzi bitkilər də qonşuluqda yola getmir

Bəzək bitkilərdən olan fikus ilə çin rozasını yanaşı saxlamaq olmaz. Fikus bitkisi qısqanclığından çoxlu karbon qazı buraxıb çin rozasını məhv edir. Qısa müddətdə ağac quruyub sıradan çıxır. Buna görə də bu bitkiləri eyni otaqda, eyni sahədə yetişdirmək olmaz. Onlar bir-birindən çox uzaq məsafədə olmalıdır.

Doqquz don ağacı

Doqquz don bəzək ağacıdır. Deyilənlərə görə bu ağac qızıl süxuru olan yerdə bitir. Yazda-yayda çiçəkləyən bu ağacın lopa-lopa ağ gülləri olur. Qızlar ərə gedərkən onların saçını bu ağ çiçəklərlə bəzəyirlər. Bu adət İspan xalqında da var imiş. Servantes özünün Don-Kixot əsərində Doqquz don çiçəyindən və toyda qızların o çiçəkləri saçlarına düzməsindən geniş bəhs edir.

Ərgüvən ağacı

Ərgüvə ağacı nadir ağacdır. Gəncə parkında üç, Nizami kinoteatrının qabağında bir dənəsi qalmışdır. Bu ağac əfsanəyə görə çiçəklərlə bəzənərkən ərinə deyərmiş ki, mənə bax, mənə güvən. Mən ərgüvənən gözələm. Toyu olan qızlar qırmızı çiçəklərlə bəzənmiş, gövdəsində qırmızı-qırmızı çiçəklər puçurlayan bu gözəlin yarpaqları ilə yanaşı gövdəsindəki muncuqları da sapa düzüb muncuq kimi yaxalarından asarmışlar. Çiçəklər açıq qırmızı rəngə çplır. Deyilənlərə görə ərgüvən qızın sevgilisi Füzuli rayonundakı ərgünəş dağıdır. Onların məhəbbətləri haqqında şerlərdə yazılmışdır.

Ayrım – Aurum – qızıl mənasındadır

Ayrım - lüğəvi mənası - qızıl deməkdir. Bu Mendeleyevin elementlərin siyahısı cədvəlində dəqiq göstərilmişdir. Mendeleyev cədvəlinin 79-cu xanəsində Aurum latınca qızıl deməkdir. Ruslarda bu ifadəni «Zoloto» şəklində işlədirlər. Mendeleyev kimyəvi elementlər cədvəlini 1869-cu ildə tərtib edərək nəşr etdirmişdir. Aurum cədvəlin 6-cı dövründə yerləşdirilmişdir.

Doğurdan da ayrımlar harda qızıl mədəni varsa, həmin ərazidə məskən salmışlar. Türkiyənin Duzluca və Qazman şəhərlərində yaşayırlar. Hətta Qazman şəhəri vaxtilə onların paytaxtı olmuşdur. İqdirdə, Anadolunun Sivas hissəsində, Qarsda və Ərzurumda, Azərbaycanın Gədəbəy, Qazax, Tovuz, Daşkəsən və Kəlbəcər (Seydlər-Löy zonasında) rayonlarında kütləvi şəkildə məskən salmışlar. Adını çəkdiyimiz ərazilərin əksəriyyətində qızıl mədənləri mövcuddur. Ayrımlara görə qızıl olan yerdə xəstəlik ola bilməz. Hətta bu gün də hər kim xəstələnirsə (Əlbəttə imkanı olan adamlar) xəstənin balıncının, yastığının altına qızıl qoyurlar. Qızıl qorxunc qüvvələri qovur. Belə deyirlər ki, Hindistan səfərində Makedoniyalı İskəndərin qızıl qab-qaşıqla yemək yeyən adamları sağ qalır, yerdə qalanları isə xəstəliyə düçar olurlar.

Ayrımlar əsl Türk tayfası olaraq Türkiyənin ictimai həyatında fəal iştirak edirlər. Hətta, Ayrım İsmayıl adlı bir şəxs Duzluca vilayətindən Türkiyənin milli məclisə deputat seçilmişdir.

Kəlbəcərdə Aşağı Ayrım, Yuxarı Ayrım, Qazaxda Vağanıs-Ayrımı kəndləri çox məşhurdur.

Ayrımlar Dağ kultuna tapınırlar, inam gətirirlər. Türkiyənin Duzlucasında Quşqonmaz dağına, Kəlbəcərdə Murov dağına, Daşkəsəndə Qoşqar dağına, Gədəbəydə Qoca dağa, Mahıya və Qanlıya, Tovuzda Murğuz, Şahdağ, Sərvaz dağlarına, Qazaxda Avey və Göyəzən dağlarına ziyarətə gedərlər, qurbanlar kəsərlər.

Ayrım dağlarının o biri üzündə yaşayan, bir-birlərinə yaxın olan göyçəlilər daha çox ocağa, pirə tapınırlar. Yunanca pir də ocaq deməkdir. Göyçədə Hacı Bayram, Miskin Abdal ocaqları çox məşhurdur. Miskin Abdal ocağı Göyçədədir. Lakin Miskin adını daşıyan nəsillər Tovuzda, Gədəbəydə, Daşkəsəndə, Goranboyda və Samuxdadırlar.

Ayrımlar və Göyçəlilər qoyun saxlamağı çox sevirlər. Aşıq sənətinə çox bağlıdırlar. Kəlbəcərli Ayrım Əhməd, Bəhmən Vətənoğlu, Daşkəsəndən Ayrım Cavad, Gədəbəydən Miskin Vəli, Tovuzdan Miskin Əli Ayrımların el şairləridir.

Ayrımların canlı danışıq dili Anadolu ləhcəsinə çox yaxındır, bəlkə də eynidir.

Eyni toplumun bir hissəsi olan Hallavar-Pəmbəkdə yaşayan Qərbi azərbaycanlılar Su, Dağ və Ağac kultlarına tapınırlar. Maymaq dağı, onun zirvəsindəki dağ gölü və «Yanıq armud» deyilən ağac onların inam yerləridir. Hətta, Maymaq dağının ayağından axan çayın sahilində qurban kəsilən qoyunların cəmdəyini asmaq üçün yeddi Daş çəngəl vardır. Maymaq gölünə gedib, ondan kömək istəyənlər bir ovuc muncuq aparıb gölə atırlar.

Altı yüz ilə yaxın bir zaman kəsiyində bu gölə muncuq atılır. Gün çıxanda gölün üstündə qövsü-qüzey yaranır. Bu inam yerlərinin hamısı Miskin Abdalın adı ilə əlaqələndirilir.

«Spartak» romanının müəllifi Rafaello Covanyoli yazır ki, hələ Roma şəhəri salınmamışdan iki əsr qabaq ora Ayrımların yaşayış məskəni imiş. Həmin yerdə Roma şəhəri salındıqdan sonra bir müddət Romalılarla Ayrımlar iç-içə yaşamalı olmuşlar. Lakin adət-ənənələri uyğun gəlmədiyi üçün bir-birinə qarşı mübarizə aparmışlar. Ayrımların Romada yaşadıqları dövrə aid bəzi mənbələrdə tarixi rəvayətlər qalmışdır. Bir rəvayətə görə Ayrımlar yaşayan ərazidə saysız-hesabsız qartallar yaşayırmış. Hətta onlar insanları, heyvanları məhv edirmişlər. Bu cəsur xalq belə nəticəyə gəlir ki, o oğlana qız verilsin ki, diri-diri qartalları

qayalarda qanadından çarmıxa çəksinlər. Eşqin və məhəbbətin gücündən istifadə edərək qartalları zərərsizləşdirirlər.

İkinci rəvayətə görə Ayrımların başçısı gənc oğlan İtaliya Sezarının başçısına elçi göndərir, bacısını istəyir. İtaliyan qızı buna etiraz edir. O zaman Ayrım cəngavəri Sezarı təkbə-tək döyüşə çağırır və döyüşdə Sezarı məğlub edib öldürür. Bir neçə gün sonra Sezarın bacısı oğlana sifariş göndərir ki, əvəllər sənin belə cəngavər olduğunu bilməmişəm. İndii sənə getməyə hazıram. Onlar evlənirlər. Az bir müddətdən sonra Sezarın bacısı bu cəngavər Ayrım oğlunu zəhərləyib öldürür. Bu dərin ziddiyyətdən sonra Ayrımlar Türkiyənin Rum eli deyilən yerinə köçməli olur və «Ay Rum! Ay Rum!» deyə-deyə həsrətlə öz torpaqlarından ayrılırlar. O gündən Türkiyənin Rum eli deyilən ərazisini özlərinə əbədi yaşayış məskəni seçirlər.

Ayrımlardan bəhs olunan Rafaello Covanyolinin «Spartak» romanı ilk dəfə 1874-cü ildə çapdan çıxmışdır. Rafaello Covanyoli özü isə 1838-ci ildə mayın 13-də Romada anadan olmuşdur.

«Spartak» romanı Azərbaycan dilində 1982-ci ildə «Maarif» nəşriyyatı tərəfindən nəşr olunmuşdur. Pomanda oxuyuruq:

«Kapuya, Roma təsis ediləndən təxminən iki əsr əvvəl, Vulturn çayının gözəl sahillərində osklar (qədim italya qəbiləsidir) tərəfindən qurulmuşdur, ilk əvvəl də ona çayın adı Vulturn deyilirmiş. Kapuya bu diyarda salınmış on iki şəhər ittifaqının üç əsr paytaxtı olmuşdur. Bu diyarı otrusklar – okslardan, avzonlardan, aurumlardan zəbt etmişlər. Mədəniyyəti İtalya, yunanlardan çox-çox əvvəl yüksək mədəniyyəti olan bu xalqlardan götürmüşdür»[2].

Rafaello Covanyoli

[2] «Spartak» romanı «Maarif nəşriyyatı», Bakı, 1982, səh 242.

Rafaello, Spartakın cəsur aurumdardan öz ordusuna əsgərlər seçdiyini də öz romanda qeyd etmişdir[3].

Daşkəsən və Kəlbəcər dağları arasında Rumbasar dağları da mövcuddur.

Kərbala səfəri

Rza kişi gözünü açandan tayfasını Goranboy rayonunun Yolğullar kəndində görmüşdür. Bu kəndin üst yanından karvan yolu keçirmiş. Pəri bacıları adı ilə məhşur olan bir cüt bacı karvan yolu kəsərək böyük miqdarda sərvətlər toplayırmışlar. Onlar xeyli aralıda bir dəyirman tikdirib Yolğullardan olan Pirani bir qocanı dəyirmançı qoymuşlar. Dəyirmançıya tapşırıblarmış ki, dəyirmana dən üyütməyə gələn adamlardan şahat almasın. O, ancaq gizli şəkildə yaxınlıqda olan daşlıqda gizlədilmiş Pəri qızları xəzinəsini gözləsin.

Pəri qızları qabaqcadan nurani kişiyə vəsiyyət edibmişlər ki, bizim ölüm xəbərimizi eşitsən əsl müsəlman qaydası ilə bizi yerdən götüzdür. Məzarımızı elə tikdir ki, başqa məzarlardan seçilsin. Diqqəti cəlb etsin. Qoy desinlər bunlar cəngavər pəri qızlarının məzarıdır.

Bir gün nurani kişi eşidir ki, pəri qızlarını qətlə yetirmişlər. O, xəzinədən çoxlu pul qızıl götürür, pəri qızlarını dəfn etdirir. Məzarın üzərində qoşa abidə qurdurur. Adna günləri «Pəri qızları təpəsində» ehsanlar verir. Eyni zamanda hər zaman pəri qızlar məzarına diqət yetirir. Bu yerlərdə quşda səkə bilmirdi. Pirani qoca ölüm vaxtının yaxınlaşdığını bilib ağıllı və zəkalı, allaha, peyğəmbərə, imama inamı olan nəvəsi Rzanı yanına çağırır. Deyəcəyi sirri möhkəm saxlamağı ona tapşırır:

- Oğul evlisən, indi yekə kişisən. Bir qızın, üç oğlun var. Xədicənin uşaqları az qala oğlanlarınla yaşıddır. Oğlun

[3] «Spartak» romanı «Maarif nəşriyyatı», Bakı, 1982, səh

Əliyə toy etmisən. Həsən həddi buluğa çatıb. Təkcə Hüseyn körpədir.

Bax o, təpədə görünən pəri qızlarının məzarını göz bəbəyi kimi qoru. Onların xəzinəsi məndədir, halallıqla özləri bağışlayıb. Əcəldən qaçmaq olmaz, ölüm var, itim var. Gəl qızıl-gümüş xəzinəsinin yerini sənə deyim. Onun halallıqla övladlarına xərclə.

Rzanın bircə arzusu var idi. Balaca oğlu Hüseyndə toly eliyib Kərbəlaya ziyarətə getsin və ölüb Kərbəlada qalsın. Həsənin da toyu oldu. Rza kişi Hüseynində böyüməsini səbrsizliklə gözləyirdi. Gün o, gün oldu ki, Hüseyn həddi buluğa çatdı. Rza kişi Hüseyni yanına çağırıb dedi:

- Hüseyn sən bilirsən ki, indiyə qədər sənin böyüməyini gözləmişəm. Mən Kərbəlaya gedib orada öləcəyəm. Sən elə ağıllı qız seçib-seçməlisən ki, bu yurda həm gəlin, həm ana olsun. Mənim nəvələrim tez-tez bu evə gələcəklər. Onların üzünə turş baxmasın. Evimizdəki səmitmiyyət bu abu-hava qalsın.

Hüseynində toyu oldu. Aradan bir ay keçənnən sonra bütün övladlarını bir yerə cəmlədi və dedi:

- Hə övladlarım arzu etdiyim gün çatdı. Mən sizlə vidalaşmalı olacağam. Yorğan-döşək yükünün arxasındakı kisələri ortaya gətirin. O, kisələrdəki qızıllar «Pəri qızlarından» babama yadigar qalmışdır. Mən onları stizin aranızda bölməliyəm. Qızına və iki oğluna üç çanaq-üç çanaq qızıl verdi. Balaca oğlu Hüseynə altı çanaq qızıl verdi. Özü isə altı çanaq götürdü. Övladlarının qəlbində narahatlıq və narazılıq yaranmasın deyə belə dedi:

- Balaca oğlum Hüseynin evinə hər gün nəvə-nəticəm gələcək. İldə bir dəfə yad edib mənə ehsan verəcək. Mən özüm ona görə 6 çanaq qızıl götürdüm ki, bəlkə Kərbəlaya çatan kimi ölmədim. Allah mənə bəlkə də daha uzun ömür verəcəkdir.

Rza kişi bütün kənd əhlini çağırdı, özünə sağ-sağ ehsan verdi, hamıdan halallıq aldı.

Bu kəndə bir kərbəlayı Ağ at var idi. Kərbəlaya gedənlər Ağ atı kirayə tuturdular. Ağ at Kərbəlanın yollarına tanış olduğu üçün zəvvarlara bələdçilik edirdi. Rza kişi at sahibinə dedi:

- Mən atı kirayə tutmayacağam. Onu mənə satmalısan. Kərbəladan bu yerlərə gələn olsa Ağ atı ona əmanət edib göndərəcəm. Mən Kərbəlanı ziyarət edib orda ölüb qalacağam. Bəlkə tale elə gətirdi ki, Ağ at da Kərbəlada qaldı.

Kənd əhli ağlaşa-ağlaşa Rza kişini kəndin qurtaracağındakı Dərbənd yoluna qədər ötürdülər. Rza kişi oğul-uşağı ilə, nəvələri ilə, bir sözlə kənd əhli ilə bir-bir öpüşdü və ayrıldı.

Aradan 5-10 il keçdi. Artıq Rza kişinin böyük qızı Xədicə, böyük oğlu Əli dünyasını dəyişmişdi. Bir gün Həsən qardaşı Hüseynə dedi:

- Əzizim sən bizdən gəncsən. Kərbəla ziyarətinə yola düş. Atamızın öldüsündən, qaldısından bir xəbər tut.

Hüseyn zəvvarlara qoşulub bir neçə gündən sonra Kərbəlaya çatdı. Düşündü ki, atam «Quran» əhlidir. Yəqin ki, ölübsə baş daşının üstünə adını yazdırmış olar. Xeyli gəzib dolanandan sonra məzarıstana gəldi. molallardan soraqlaşa-soraqlaşa atasının məzarını tapdı. Hələ məzarın torpağı da yaş idi. Atası təzəcə ölmüşdü. O, hər gün günorta namazı atasını ziyarət edib, baş daşından öpüb ağlayırdı. Bığ yeri təzəcə tərdəmiş bir oğlan uşağı ona yaxınlaşıb soruşdu:

- Qardaş sən kimsən ki, mənim atamın baş daşını öpüb ağlayırsan. Hüseyn dilləndi:

- Bu mənim da atamdır. Onlar bir-birini qucaqlayıb arı kimi sızan-sızana verdilər. Sonra evə dönüb atasının yeni ailə üzvləri ilə tanış oldu. Atası Kərbəlaya gələndən sonra Səkinəylə evlənmiş və ondan oğlu İbrahimxəlil və qızı Zəhra dünyaya gəlmişdir. Rza kişi 20 ildən artıq gümrah ömür sürmüşdür. Ailəsi üçün ev-eşik, gözəl şərait qoyub getmişdir. Hüseyn bir neçə gün burada qalıb vətənə döndü.

Möhkəm əlaqə saxlayacağına, bacı qardaşlarına və Səkinə anaya söz verdi. Lakin söz, söz olaraq qaldı. Sən saydığını say, fələk gör nə sayır. Hüseyn vətənə qayıdanda artıq 11-ci ordu Bakıda idi.

Əlaqələrdə qırıldı, ümüdlərdə üzüldü.

Maral və Şibiyə

Müşahidəçilər, o mənzərəni seyr edənlər deyirlər ki, maralların görüş vaxtı bir dişi maralla əlaqə üçün iki erkək maral döyüşür. Bir-birlərini buynuzları ilə al qana qatırlar. Erkək marallarda döyüşdə hansı qalib gəlsə dişi maral könüllü olaraq onun yanına gəlir. Yaralı marallar dərhal daş üzərindəki şibiyələri-daşxınalarını yalayan kimi qanları axmır, kəsir. Hətta onları həvəsə gətirən maralçiçəyidə vardır ki, onları otlamaqla da hüröyünləşirlər.

Canavar dözümü

İnsan, heyvan aylar keçdikdən sonra öz vədəsində dünyaya bala gətirirlər. Doğum günündən bir gün belə keçə bilməz. Təkcə canavar doğum gününü bir ay, iki ay gecikdirə bilər. Təhlükə sovuşana qədər gözləyir. Həm da, canavar qatı çən olan günü doğur. Qatı çən olanda adamlar deyir:

- Yəqin bu gün canavar doğur.

Sədnik Paşa Pirsultanlının (Paşayev Sədnik Xəlil oğlu) qısa tərcümeyi-hal

1. Filologiya elmləri doktoru, professor, şair.
2. 1988-ci ilin dekabr ayının 30-da "Əmək veteranı", 1992-ci ilin may ayının 4-də "Əməkdar Mədəniyyət işçisi", 2007-ci ilin yanvar ayında "Qabaqcıl Təhsil işçisi", Türkiyə Cumhuriyyəti Kültür Bakanlığının "Teşekkür belgesi"-ni almışdır.
3. 20 may 1929-cu il tarixdə Azərbaycan Respublikasının Daşkəsən rayonunun Qazaxyolçular (Pirsultan) kəndində anadan olub.
4. 1946-cı ildə "Daşkəsən" qəzetində "Zəfər bayramı" adlı ilk şeiri çap olunub.
5. Natamam orta təhsilini Qazaxyolçular kəndində, orta təhsilini Dəstəfur internat məktəbində alıb. 1950-ci ildə H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutunun (indiki

Gəncə Dövlət Universitetinin) birinci kursuna qəbul olunub, 1954-cü ildə Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib.

6. 2004-cü ildən AYB-nin üzvüdür.
7. 1955-ci ildən 1970-ci ilə qədər "Yeni Daşkəsən" (Daşkəsən), "Mübariz" (Goranboy) və "Yenilik" (Kəlbəcər) rayon qəzetlərində redaktor, "Kirovabad kommunisti" qəzetinin məsul katibi işləyib. 1970-ci ilin oktyabr ayında H.B.Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna müsabiqə yolu ilə müəllim qəbul olunub, baş müəllim, dosent vəzifələrində işləyib. Hal-hazırda Gəncə Dövlət Universitetinin professorudur.
8. 1993-cü ildə Ankarada keçirilən "İpək yolu uluslararası xalq ədəbiyyatı simpoziumu"nda və Nevşehirdə keçirilən "Hacı Veli Bektaşi" törənində məruzəçi kimi çıxış edib.

1955-ci ilin iyul ayından "Bilik" cəmiyyətinin, 1960-ci ilin iyun ayından Jurnalistlər Birli-

yinin, 1989-cu ilin aprel ayından Aşıqlar Birliyinin, 1998-ci ilin oktyabr ayından Azərbaycan Vətən Müharibəsi Veteranlar Birliyinin (fəxri), 2003-cü ilin iyun ayından Yeni Azərbaycan Partiyasının, 2004-cü ilin aprel ayından Yazıçılar Birliyinin üzvüdür.

9. Almaniya Avropa Türk-İslam Birliyinin dəvəti ilə "Yunis İmrəyə sevgi ili" kutlamalarında məruzəçi kimi çıxış edib, Türkiyədə elmi konfraslarda və simpoziumlarda iştirak edib, İranda yaradıcılıq səfərində olub.

Sədnik Paşayevin — Sədnik Paşa Pirsultanlının kitablarının

Siyahısı

(ixtisarla)

I. Kitablar

1. Lalə (Aşıq Bəsti), Gənclik, Bakı, 1969
2. Yaşayan əfsanələr, Gənclik, Bakı, 1973
3. Xəstə Qasım, Gənclik, Bakı, 1975
4. Yurdumuzun əfsanələri, Gənclik, Bakı, 1976
5. Nizami və folklor, Bilik, Bakı, 1976
6. Yanardağ əfsanələri, Gənclik, Bakı, 1978
7. Azərbaycan xalq yaradıcılığının inkişafı, Bilik, Bakı, 1981
8. Nizami və xalq əfsanələri, Gənclik, Bakı, 1983
9. Bayatılar (top. V.Vəliyev, S.Paşayev), Yazıçı, Bakı, 1985
10. Azərbaycan əfsanələrinin öyrənilməsi, Bilik, Bakı, 1985
11. Azərbaycan xalq əfsanələri, Yazıçı, Bakı, 1985
12. Azərbaycan mifoloji mətnləri, Elm, Bakı, 1988 (Toplayanlar Sədnik Paşayev, Maqbet Əhmədov, Arif Rəhimov, Arif Acalov)
13. Azərbaycan folkloru və aşıq yaradıcılığı (dərs vəsaiti), Azərbaycan Dövlət Universiteti nəşriyyatı (Azərb. Xalq Təhsil Nazirliyinin qrifi ilə), Bakı 1989
14. Azərbaycan xalq dastanlarının tədrisinə dair (metodik göstəriş), Bakı, 1989

15. XIX əsr Azərbaycan aşıq yaradıcılığı (dərs vəsaiti), Azərbaycan DPİ-nin nəşriyyatı, Bakı, 1990
16. Öz səsim (şerlər), İdeya, Gəncə, 1990
17. Azərbaycan xalq söyləmələri, Yazıçı, Bakı, 1992
18. Pirsultan bulağı (şerlər), Elm, Bakı, 1994
19. İnciçiçəyim (şerlər), Gəncə, 1996
20. Karağan Usubun lətifələri, Gəncə, 1997, təkrar 2000, 2001
21. Xalqın söz mirvariləri, Azərnəşr, 1999
22. İlahi bir səs (şerlər), Gəncə, 1999
23. Unnu Ağcanın lətifələri, «Ekologiya» nəşriyyatı, Gəncə, 1999
24. Ağdabanlı şair Qurban, Gənclik, 2000
25. Dabravol Qasımın lətifələri, Gəncə, «Əsgəroğlu», 2001
26. Yəhya bəy Dilqəmə el-oba məhəbbəti, Gəncə, «Agah» 2001
27. Aşıq Bəsti. Bənövşələr, Gəncə, «Əsgəroğlu», 2001
28. Heca vəznli şer və mənzum ata sözləri, Gəncə, «Əsgəroğlu» 2001
29. Heca vəznində tapmacaların inkişafı, Gəncə, «Agah», 2001
30. Azərbaycan eposunun əfsanə qaynaqları Azərnəşr, Bakı, 2002
31. Qaraxanlı Künə Dəmirin lətifələri Gəncə, «Pirsultan», 2002
32. Qamışlı şair Rüstəm, Laçın qaya çal yadıma düşəndə, Gəncə «Pirsultan», 2002
33. Ozan-aşıq sənətinin nəzəri məsələləri, Bakı, «Ozan», 2002
34. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar, I cild, Gəncə, «Pirsultan», 2002

35. Ozan-aşıq yaradıcılığına dair araşdırmalar, II cild, Gəncə, «Pirsultan», 2002
36. Bir içim nəğmə.Gəncə, "Pirsultan", 2003
37. Heca vəzninin bayatı və qoşma möcüzələri. Gəncə, "Pirsultan"2003
38. Gəncəbasar lətifələri. Gəncə, "Agah" 2005
39. Bir çiçək də vətəndi. Gəncə, "Agah", 2005
40. Mir Cəfər Bağırov yaddaşlarda. "Pirsultan", Gəncə, 2005.

MÜNDƏRİCAT

Himətlərlə dolu bir kitab 3
Zəkanın töhfəsi
Torpağın nəfəsi 6
Tək-tək Bədir də doğar 6
Torpaq Morulundur 7
Qılınc ustası 8
Cambulun pələngi 8
İkisi də mənimdir ..... 9.
Qanın mənim damarımda axır 9
Kim ona toxunsa 10
Dilənçiyə onluq qızıl verir 10
Özünüzə yezid tapın 11
Donun yerini göstərmişəm 11
Kişi patronu ilə 11
Sümsü məsələsi 12
İlan və bağban 13
Tale gölü 13
Allahla şərikli qarpız 14
Şir tükündən dua 15
Bülbül və qızıl 16
Kişi bığı 16
Sultan Yavuz və Xətai 17
Göylər kəndində möcüzə 18
Başını türk ordusuna gətirir 18
Göz qayanı yıxır 19
Ardanış əhvalatı 19
Qızıl küpəsi 20
Gülləsiz ayı ovu 21
Ağlağan qarı 21
Təkə 22

Qurduğum saray uçar....22
Loğman Bibixanım....23
Səmənd ağanın faytonu....24
Səmənd Ağanın kişiliyi....25
Alovdan qorxurdum....26
Qaçaq Kərəm və Məşədi Yəhya....27
İlan vuran ölməmişdi....27
At altında oynayır....28
Gözlərini itirir....29
Qara xurcunun tayına kömək et....29
İmişlidə bir kənd var....30
Plov məsələsi....30
Övlad haradan olardı....31
Bir atanın iki qızı....31
Yuxu....32
Tapa bilmirik, tapanda vura bilmirik....32
Hərbi and....33
Məni kişi saymadınız....33
Qarışqa və buğda....33
Bulaq qanımızı aldı....34
At məsələsi....34
Qaçaq Nəbi toya gəlir....35
İtin sədaqəti....36
Mən ikinci sınıqçı Səfiyəm....36
Daha kəndimizi yandırmazlar....37
Bəyin şərti....38
Kürk əhvalatı....38
Mənimsə cavabım banketə qaldı....39
Durnalı düzündə....39
Buzxana....40
Ağını belə toplayarlar....41

Əski dünya görüntüləri

Ovçu Pirim və Xan Kəlbi....42
Ovçu Pirim və Xan Kəlbi (II variant)....42
"Kərimoğlu və ayı" dastanı....44
İki güyüm....45
Ağacın dibindən....45
Üç şey itirdim....46
Vərə mumu....46
Dörd nökər....47
Evdə də Lala qoymur....48
Birə min....48
Lala xaş-xaş əfsanəsi....49
Dağyanusun rəvayəti....50
Sazın qəbri....52
Abı-dərdə....53

Mahnılarda yaşayan məhəbbət

Minayə mənəm....53
Bəlkə, yar gələ, yar gələ....54
Yaz, ay Lala....56
Şair Sədi....57
Şair Abdulla....58
Hələ....58
Verirlər....59
Aşıq Hüseyni də ağladır....59
Şuxluq edirəm....60

Gülüş doğuran əhvalatlar

Toy mağarına da gəlmərəm....61
O, televizora baxan deyil....61
Saxta yuxu....62
Olubdu....63
Qalmadı....64
Çini-Maçından....66
Çəpərimizdə tülkü balalayıb....66

Aşıq Şenlik.....66
Ay baba.....67
Xoruz.....67
Qarışqa kababı.....69

Koroğlu deyimləri

Xoca Əziz.....70
Səni.....73
Koroğlu ilə çoban.....74

Dastanlardan parçalar

"Səlminaz və Kərəm".....75

Lətifələr

Dayçanın toyu.....78
At və ovçu.....78
Kəllə.....79
"Quran" ağlayır.....79
Amma siz.....79
Payına bu düşür.....80
Ya maqnit.....80
Əvəzini versin.....80
Acından ölərsən.....80
Kimdə günah çoxdur.....81
Mədə ağrısı.....81
Bütün Azərbaycan tanıyır.....81
Öz inəklərimə yazardım.....81
Niyə çatdırmasın.....82
Qaya üstə ot tayası.....82
Özgələrə yar olsun.....82
Məşədi Madyan.....83
Qoy azanı o salsın.....83
Rayona çox gedirsən.....84
Sən ki nalbənd idin.....84
Aşıq Abbasın hazırcavablığı.....84
Ona bir arvad da alaq.....86

Vücudnamələr

Şair Cavadın "Yetişdim" rədifli vücudnaməsi.....86
Aşıq Salehin vücudnaməsi.....89
Miskin Vəlinin vücudnaməsi.....91

Azərbaycan xalq dastanlarında arzulamalar

Sara haqqında əfsanə, rəvayət və mahnılar.....96
"Apardı sellər Saranı" dastanı.....98
Sara.....101
Saramı.....102

Sara və Sara ilə səsləşən mahnılar

Sarı gəlin.....106
Qızıl İrmaq, netdin, allı gəlini.....109

Üzərində tarixin möhürü olan Mahnılarımızdan biri

"İrəvanda xal qalmadı".....111

Təbiətin möcüzələri

Baba bulağı.....116
Çıraq dərəsi.....116
Yaşılbaş ördək.....117
Qırx əmcəkli dağ.....117
Muniya necə tapılır.....117
Bəzi bitkilər də qonşuluqda yola getmir.....118
Göyərçin sevgisi.....118
Arqalı ağacı.....118
Doqquz don ağacı.....119
Ərgüvən ağacı.....119
Ayrım-Aurum-qızıl mənasındadır.....119
Kərbəla səfəri.....122
Maral və Şibyə.....125
Canavar dözümü.....126

SƏDNİK PAŞA PİRSULTANLI
Filologiya elmləri doktoru, professor,
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
Respublikanın Əməkdar Mədəniyyət işçisi

Kitab "Xalq Ozanı" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Agah" nəşriyyatında çap edilmişdir.

Operator və dizayner: ***Aygün Quliyeva***

Nəşriyyatın direktoru: ***Namiq Babayev***

Lisenziya №022142

Yığılmağa verilmişdir: *07.06.2005*
Çapa imzalanmışdır: *23.01.2006*
Fiziki çap vərəqi: *10,6*
Tirajı:200

Nəşriyyatın ünvanı: *Gəncə şəhəri İnzibati bina, 378 otaq.*
Tel:56-07-70
Mob: 355-30-57